RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 164 (10184) 10 sentyabr 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan-Tacikistan dostluğu və qardaşlığının möhkəmlənməsi məmnunluq doğurur

### Tacikistan Respublikasının Prezidenti zati-aliləri cənab Emoməli Rəhmona

Hörmətli Emoməli Şərifoviç!

Tacikistan Respublikasının dövlət müstəqilliyinin 35 illiyi münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Ötən otuz beş il ərzində Sizin uzaqgörən və qətiyyətli rəhbərliyiniz sayəsində Tacikistan dövlət quruculuğu, daxili sabitliyin bərqərar olunması və sosial-iqtisadi tərəqqi sahəsində böyük inkişaf yolu keçmiş, qlobal arenada nüfuzunu və mövqeyini möhkəmləndirmişdir. Tacikistanın müstəqillik tarixi və əldə etdiyi bütün nailiyyətlər Sizin adınızla bağlıdır.

Ortaq dini-mədəni və tarixi köklərlə bağlı olan xalqlarımızın iradəsini özündə əks etdirən Azərbaycan-Tacikistan dostluğu və qardaşlığının möhkəmlənməsi və gündən-günə yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Şübhəsiz ki, ali səviyyəli fəal dialoq, müntəzəm təmaslar, sıx əməkdaşlığımız bu əlaqələrin daha sürətlə inkişafına və dərinləşməsinə şərait yaradır.

Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-Tacikistan əlaqələri və strateji tərəfdaşlığı bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf etməyə və daha da möhkəmlənməyə davam edəcəkdir.

Hörmətli Emoməli Şərifoviç, bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə uğurlar, qardaş Tacikistan xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2026-cı il*



# QURUCU, YARADICI, SÜLHPƏRVƏR VƏ UZAQGÖRƏN LİDER

Heç də hər sərkərdə müharibəni ən uğurlu vaxtda başlamaqla ən qısa müddətdə başa çatdırmağı, ən az itki ilə ən yüksək nəticəyə nail olmağı bacarmır.

İlham Əliyev bunu etdi!

Heç bir qalib dövlət qarşısında diz çökdürərək məğlub etdiyi dövlətə sülh əlini uzadaraq onunla dərhal sülh müqaviləsi bağlamağa çalışmır.

İlham Əliyev bunu bacardı!

Heç də hər bir lider hər bir tərəfin maraqlarını təmin edən, dostluğa və əməkdaşlığa xidmət edən nəhəng layihələr hazırlayaraq onu reallaşdıra bilmir!

İlham Əliyev bunu uğurla həyata keçirir!

Heç də hər bir dövlət başçısı əməkdaşlıq etdiyi hər bir ölkə ilə bu qədər səmərəli, faydalı, qarşılıqlı hörmətə əsaslanan uzunömürlü əlaqələr yarada bilmir.

İlham Əliyevin sayəsində Azərbaycanın əlaqə və əməkdaşlıq qurduğu dövlətlərin sayı ildən-il artır, münasibətlər yeni səviyyəyə yüksəlir, iqtisadi göstəricilər yaxşılaşır.

Bunları təkcə biz demirik!

ABŞ Prezidenti D.Trampın Azərbaycan Prezidentinin ünvanına müxtəlif vaxtlarda dediyi sözləri, fəaliyyətinə verdiyi qiyməti xatırlatmaq kifayətdir:

"Siz güclü və ağıllı insansınız".

"Siz böyük lidersiniz".

"Siz gözəl danışıq aparırsınız".

Belə Prezidentlə fəxr etməyə və qürur duymağa dəyər!

6

## Aİ Azərbaycanı öz təhlükəsizliyinin əsas aktorlarından biri kimi qəbul edir



Strateji yaxınlaşmanın və Bakıya artan diqqətin bariz göstəricisi olaraq Avropa İttifaqının ali rəhbərliyinin ölkəmizə intensiv səfərlərini qeyd etmək olar. 2026-cı ilin martında Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın, may ayında Aİ-nin Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın və iyulda Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfərləri rəsmi Bakının Brüsselin xarici siyasət gündəmində nə dərəcədə önəmli aktor olmasından xəbər verir. Qitənin ali rəhbərliyinin Prezident İlham Əliyev ilə keçirdiyi konstruktiv görüşlər Brüsselin Cənubi Qafqazda sabitlik, inkişaf və təhlükəsizliyin mərkəzi kimi məhz Azərbaycanı qəbul etdiyini göstərir. Təsadüfi deyil ki, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen Azərbaycanı Avropa İttifaqının strateji tərəfdaşı adlandıraraq, dünyada az sayda ölkənin Azərbaycan qədər regional əməkdaşlığın və sabitliyin inkişafına töhfə vermək imkanına malik olduğunu xüsusi vurğulamışdır.

8




## Orta dəhlizin aparıcı gücü

Azərbaycan və ABŞ hökumətləri arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasında Azərbaycan və ABŞ-nin Orta dəhlizi əsas götürərək quru, dəniz və hava nəqliyyatı infrastrukturunun inkişafı, enerji və data bağlantısı, ticarət və tranzitin asanlaşdırılması, gömrük nəzarəti və sərhəd keçidi, beynəlxalq multimodal logistika və digər əlaqəli sahələrdə əməkdaşlıq yolu ilə regional bağlantıları təşviq etmək üçün birgə işləmək niyyətindədirlər. Sənəddə həmçinin Zəngəzur dəhlizi (TRIPP) xüsusi qeyd olunur.

Azərbaycanın ən böyük tərəfdaşlarından biri Çindir. Əlaqələri dinamik dərinləşən iki ölkə arasında iqtisadi əməkdaşlığın mühüm istiqamətlərindən birini Orta dəhlizin inkişafı təşkil edir. Avropa ilə Asiyanı birləşdirən bu mühüm nəqliyyat marşrutu yüklərin təhlükəsiz və sürətli daşınması baxımından böyük əhəmiyyətə malikdir. Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün əsas hissələrindən biri olan Orta dəhliz ölkələrimizin çoxşaxəli əlaqələrinə də şərait yaradır.

9

## Birinci vitse-prezident Mehriban Əliyeva Xalq artisti Aleksandr Şarovskinin vəfatı ilə bağlı başsağlığı verib



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Xalq artisti Aleksandr Şarovskinin vəfatı ilə bağlı sosial media hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Aleksandr Yakovleviç Şarovski. Məkanın cənnət olsun, böyük Ustad!"

## Naxçıvanın coğrafi üstünlükləri

### Bunlar yerli sahibkarlara istehsal etdikləri məhsulları xarici bazarlara daha tez çıxarmağa imkan verir



Kənd təsərrüfatının inkişafı üçün yeni dövlət proqramları həyata keçirilir. Fermerlər və kiçik torpaq mülkiyyətçiləri üçün kənd təsərrüfatı istehsalı kooperativləri yaradılır. Naxçıvan Sənaye Parkının yaradılması və Orta dəhlizə inteqrasiya biznes mühitini gücləndirir.

Prezident İlham Əliyevin 5 iyun 2023-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında" dövlət başçısının 2 sentyabr 2026-cı il tarixli sərəncamı muxtar respublikanın sosial-iqtisadi inkişaf prioritetlərinin müasir çağırışlara uyğunlaşdırılması və tədbirlərin icra mexanizmlərinin təkmilləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

10

# İƏT-in fəal üzvüyük

## Milli Məclisin Sədri Sahibə Qafarova Nyu Yorkda İƏT-ə üzv dövlətlərin daimi nümayəndələri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova ABŞ-yə işgüzar səfəri çərçivəsində Birləşmiş Millətlər Təşkilatının (BMT) Nyu Yorkdakı Baş Qərargahında İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin daimi nümayəndələri ilə görüşüb.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə çıxış edən spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan İƏT-in fəal üzvüdür və Milli Məclis hazırda İƏT-ə üzv dövlətlərin Parlament İttifaqına sədrlik edir.

İƏT-in Afrika, Asiya, Yaxın Şərq, Avropa və Amerika üzrə 57 dövlətini bir araya gətirdiyi qeyd olunaraq, islam dünyasının nəhəng insan, mədəni və iqtisadi potensiala malik olduğu bildirilib. Bu coğrafiyanın gənc əhaliyə, tarixi təhsil mərkəzlərinə, böyük ticarət yollarına, mühüm resurslara, dərin icma və həmrəylik ənənələrinə malik olduğu vurğulanıb. Bununla yanaşı, İƏT-ə üzv ölkələrin bir çoxunun münaqişə və məcburi köçkünlük yaşadığı, yoxsulluq, ərzaq və su təhlükəsizliyi, iqlim dəyişikliyinin cəmiyyətlərimizə əlavə təzyiq göstərdiyi, terrorizm, ekstremizm və islamofobiyanın qorxu və etimadsızlıq yaratdığı qeyd olunub. Bu çağırışlar isə üzv ölkələr arasında əlaqələndirilmiş fəaliyyət, güclü institutlar və praktiki dəstək vasitəsilə həmrəyliyin ifadə olunmasını tələb edir.

Milli Məclisin Sədrinin sözlərinə görə, parlament diplomatiyası beynəlxalq danışıqları milli parlamentlərlə əlaqələndirməklə bu işi dəstəkləyə bilər.

Görüşdə beynəlxalq parlament təşkilatlarında birgə əməkdaşlıq məsələləri də nəzərdən keçirilib, həmçinin beynəlxalq parlament təşkilatlarının fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb. Bu çərçivədə spiker Sahibə Qafarova BMT ilə Parlamentlərarası İttifaq (PAİ) arasında daha sıx əməkdaşlığın əhəmiyyətini qeyd edərək deyib ki, bu, beynəlxalq qərarların qəbulunu milli parlament fəaliyyəti ilə əlaqələndirir və sazişlərin insanlar üçün nəticələrə çevrilməsinə kömək edir.

Milli Məclisin Sədri vurğulayıb ki, çoxtərəflilik prinsipləri seçici tətbiq edildikdə, öhdəliklər yerinə yetirilmədikdə və ya bəzi səslər digərlərindən daha əhəmiyyətli sayıldıqda öz nüfuzunu itirir. Etimadı bərpa etmək üçün bərabər hörmət, ardıcıl fəaliyyət və real iştiraka ehtiyac var. Onun sözlərinə görə, rəsmi münasibətlər çətinləşdikdə, parlamentarilər hələ də əlaqə saxlaya, anlaşılmazlıqları azalda və dialoq imkanlarını qoruya bilərlər.

Qeyd olunub ki, PAİ regional parlament təşkilatları, o cümlədən İƏTPİ ilə daha sıx əməkdaşlıq etməlidir. Bu əməkdaşlıq İƏT prioritetlərini qlobal müzakirəyə gətirə və islamofobiya, irqçilik və dini nifrətə qarşı cavabımızı gücləndirə bilər.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, bir çox İƏT ölkələri maliyyə və texnologiya əldə etməkdə çətinlik çəkir. Parlamentlər daha yaxşı qanunlar, iqtisadi nəzarət, təhsil və innovasiyaya investisiya, güclü sosial müdafiə və ictimai resurslardan ədalətli istifadə vasitəsilə bu işi dəstəkləyə bilərlər. İqlim dəyişikliyinin nəticələri ilə üzləşən bir çox ölkələr bu çağırışlara cavab vermək üçün ən az resurslara malikdirlər. Buna görə də iqlim maliyyəsi proqnozlaşdırıla bilən, dayanıqlı və əlçatan olmalıdır.

Spiker deyib ki, biz bu çağırışın parlament ölçüsünü Bakıda COP29-da gördük. Həmin çərçivədə Milli Məclis və PAİ qlobal iqlim öhdəliklərinin milli fəaliyyətə necə çevrilə biləcəyini müzakirə etmək üçün yüzlərlə parlamentarini bir araya gətirdi.

Milli Məclisin Sədri çıxışının sonunda onu da bildirib ki, parlamentarilər təcrübə mübadiləsi aparmalı, təkrarların qarşısını almalı və regional prioritetləri qlobal müzakirələrə gətirməlidir.

*Təhminə VERDİYEVA, "Azərbaycan"*

# Aleksandr Yakovleviç Şarovski

**Azərbaycanın mədəni ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan teatr sənətinin tanınmış nümayəndəsi, Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının baş rejissoru, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq artisti Aleksandr Yakovleviç Şarovski 2026-cı il sentyabrın 9-da ömrünün 79-cu ilində vəfat etmişdir.**



Aleksandr Şarovski 1948-ci il fevralın 10-da Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1968-1973-cü illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun ingilis dili və ədəbiyyatı fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə hələ tələbə ikən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında başlayan Aleksandr Şarovski ömrünü teatr sənətinə həsr edərək, 1976-cı ildən etibarən yarım əsrlik bir dövr ərzində Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında aktyor, rejissor assistenti və quruluşçu rejissor,1993-cü ildən isə baş rejissor vəzifələrində çalışmışdır.

Azərbaycan səhnə sənətinin əldə etdiyi nailiyyətlərdə Aleksandr Şarovskinin teatrın klassik ənənələrindən və müasir inkişaf təmayüllərindən məharətlə faydalanmış sənətkar kimi böyük xidmətləri vardır. O, teatr səhnəsində özünün təbiiliyi ilə seçilən obrazlar canlandırmışdır. Rejissor kimi zəngin yaradıcılıq axtarışları sayəsində onun Azərbaycan və dünya dramaturji irsinin dəyərli nümunələrinə quruluş verdiyi çox sayda tamaşa parlaq səhnə həlli ilə seçilmiş və teatr mühitində rəğbətlə qarşılanmışdır. Bu tamaşalar ölkəmizin hüdudlarından kənarda da mötəbər teatrlarda uğurla nümayiş etdirilmiş və Azərbaycan mədəniyyətinin təbliği işinə töhfə vermişdir.

Aleksandr Şarovski eyni zamanda geniş ictimai fəaliyyəti ilə tanınırdı. O, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayəçilik Şurasının üzvü və Avropa yəhudilərinin Bakı dini icmasının rəhbəri olaraq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması və ölkəmizdə multikultural dəyərlərin qorunub saxlanılması üçün var qüvvəsini əsirgəməmişdir.

Aleksandr ŞarovskininAzərbaycan mədəniyyətinin inkişafında xidmətləri dövlət tərəfindən layiqincə qiymətləndirilmişdir. O, "Əməkdar artist" (1987) və "Xalq artisti" (1998) fəxri adlarını almış, Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət" (2008), "Şərəf" (2018) ordenləri və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" (2023) ilə təltif edilmişdir.

Tanınmış sənətkar və ictimai xadim, səmimi insan Aleksandr Yakovleviç Şarovskinin əziz xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

***Qəbri nurla dolsun!***

**İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Sahibə QAFAROVA, Samir NURİYEV, Eldar ƏZİZOV, Fərəh ƏLİYEVA, Adil KƏRİMLİ, Ramin MƏMMƏDOV, Polad BÜLBÜLOĞLU, Anar RZAYEV, Hacı İSMAYILOV, Şəfiqə MƏMMƏDOVA, Lyudmila DUXOVNAYA**

# Azərbaycan beynəlxalq parlament diplomatiyasının inkişafına töhfələr verir

## Milli Məclisin Sədri Sahibə Qafarova ABŞ-yə səfəri çərçivəsində BMT-dəki Şərqi Avropa Qrupu ölkələrinin daimi nümayəndələri ilə görüşüb

**Sentyabrın 8-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova ABŞ-nin Nyu York şəhərinə işgüzar səfəri çərçivəsində Birləşmiş Millətlər Təşkilatındakı (BMT) Şərqi Avropa Qrupu ölkələrinin daimi nümayəndələri ilə görüşüb.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə çıxış edən Milli Məclisin Sədri beynəlxalq parlament diplomatiyasının əhəmiyyəti, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi və beynəlxalq parlament təşkilatlarında fəaliyyətin müxtəlif aspektləri barədə fikirlərini bildirib.

Milli Məclisin Sədri müxtəlif beynəlxalq və regional parlament təşkilatlarının ölkələri bir araya gətirdiyini qeyd edərək, belə platformalarda işin səmərəli təşkili üçün bütün tərəflərin mövqelərinin dinlənilməsinin, ədalətli və şəffaf prosedurlara riayət olunmasının, eləcə də ümumi maraq doğuran məsələlər üzrə ortaq fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinin vacibliyini vurğulayıb.

Sahibə Qafarova son illərdə Azərbaycanın beynəlxalq əməkdaşlığa və parlament diplomatiyasının inkişafına verdiyi töhfələrə toxunaraq, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə həyata keçirdiyi fəaliyyətdən, ölkəmizin irəli sürdüyü təşəbbüslərdən və əldə olunmuş mühüm nailiyyətlərdən söz açıb. O, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin ötən müddətdə mühüm beynəlxalq parlament platformasına çevrildiyini qeyd edib.

Spiker çıxışında BMT-nin parlamentlərarası beynəlxalq təşkilatlarla əməkdaşlığının rolunu, bu qarşılıqlı fəaliyyətin qlobal çağırışların həllinə və beynəlxalq qərarların milli səviyyədə həyata keçirilməsinə töhfə verə biləcəyini vurğulayıb. O, dünyanın ən böyük beynəlxalq parlament təşkilatı olan Parlamentlərarası İttifaqın fəaliyyəti, onun beynəlxalq və regional məsələlərdə rolunun gücləndirilməsinin əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Görüşdə qlobal öhdəliklərin milli fəaliyyətə çevrilməsi, davamlı inkişaf, iqlim gündəliyi, habelə qlobal təhlükəsizlik, demoqrafik dəyişikliklər və miqrasiya məsələləri barədə fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Xalq artisti Aleksandr Şarovski son mənzilə yola salınıb

**Görkəmli teatr xadimi, rejissor, Xalq artisti Aleksandr Şarovski ilə Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında vida mərasimi keçirilib.**









AZƏRTAC xəbər verir ki, mərasimdə mədəniyyət naziri Adil Kərimli, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Mərhumun cənazəsi teatrın matəmsayağı bəzədilmiş səhnəsində postament üzərinə qoyulub. Postamentin ətrafına Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, eləcə də dövlət və hökumət qurumları adından əklillər düzülüb.

Aleksandr Şarovskinin həmkarları, dostları, tanınmış mədəniyyət və incəsənət xadimləri, sənətinin pərəstişkarları teatrın binasına gələrək, görkəmli sənətkara son borclarını yerinə yetiriblər.

Vida mərasimində əvvəlcə Aleksandr Şarovskinin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən mədəniyyət naziri Adil Kərimli Mədəniyyət Nazirliyinin kollektivi adından mərhumun ailə üzvlərinə və yaxınlarına başsağlığı verib.

Nazir Aleksandr Şarovskinin ömrünün 60 ilə yaxın dövrünü teatr sənətinə həsr etdiyini bildirib: "Aleksandr Şarovski teatrla nəfəs alır, teatrla yaşayırdı. Əlli ildən artıq çalışdığı Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının inkişafında onun müstəsna xidmətləri olub. Görkəmli sənətkar və ictimai xadim kimi fəaliyyəti hər zaman Azərbaycan dövlətinin diqqət mərkəzində saxlanılıb".

Adil Kərimli vurğulayıb ki, Aleksandr Şarovski teatr və incəsənət sahəsindəki çoxşaxəli fəaliyyəti ilə yanaşı, Azərbaycanda qədim ənənələrə malik rus teatr məktəbinin inkişafına da mühüm töhfələr verib.

Vida mərasimində çıxış edən Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri Hacı İsmayılov Aleksandr Şarovskinin zəngin və çoxşaxəli yaradıcılıq yolundan danışıb. Qeyd edib ki, görkəmli sənətkar Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində Azərbaycan, rus və dünya dramaturgiyasının nümunələri əsasında hazırlanan tamaşalarda 50-dən çox yaddaqalan obraz yaradıb. Hüseyn Cavidin "Şeyx Sənan" əsərində Şeyx Sənanı, Səməd Vurğunun "Fərhad və Şirin" pyesində isə Fərhadı canlandırıb. Rejissor kimi də məhsuldar fəaliyyət göstərən Aleksandr Şarovski 50-dən artıq tamaşaya səhnə həyatı verib.

"Aleksandr Şarovski yaradıcılıq fəaliyyəti boyunca yüksək mükafatlara layiq görülüb, "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilib. Onun ən gözəl xüsusiyyətlərindən biri xalqlar arasında dostluğun möhkəmləndirilməsinə xidmət etməsi idi. Böyük sənətkarın yaratdığı obrazlar, quruluş verdiyi tamaşalar və əziz xatirəsi daim qəlbimizdə yaşayacaq", - deyə Hacı İsmayılov vurğulayıb.

Daha sonra çıxış edən mərhumun həyat yoldaşı Nataliya Şarovskaya Aleksandr Şarovskinin Azərbaycanı ürəkdən sevdiyini bildirib. O, Azərbaycan Respublikasının Prezidentinə, Heydər Əliyev Fonduna, teatr rəhbərliyinə, eləcə də vida mərasiminin təşkilində yaxından iştirak edən hər kəsə dərin minnətdarlığını ifadə edib.

"Aleksandr Şarovski premyeraları, anşlaqları və bu səhnəni çox sevirdi. Tamaşaçıların aktyorlara gül təqdim etməsi ona xüsusi sevinc bəxş edirdi. Bu gün də səhnə güllərlə, onun gözəl portretləri ilə bəzədilib", - deyə Nataliya Şarovskaya vurğulayıb.

Xalq artisti Aleksandr Şarovskinin cənazəsi teatrın binasından götürülərək İkinci Fəxri xiyabana aparılıb.

Burada mərhumun ruhuna dualar oxunub. Görkəmli sənətkarın cənazəsi torpağa tapşırılıb, Məzarı üzərinə əklillər, gül dəstələri düzülüb.

Qeyd edək ki, Aleksandr Şarovski sentyabrın 9-da 79 yaşında vəfat edib.

O, "Əməkdar artist" (1987) və "Xalq artisti" (1998) fəxri adlarına layiq görülüb, "Şöhrət" (2008) və "Şərəf" (2018) ordenləri, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" (2023) ilə təltif edilib. Aleksandr Şarovski 2005-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

# Ölkəmiz dayanıqlı inkişaf istiqamətində ardıcıl tədbirlər həyata keçirir

## Milli Məclisin Sədri Sahibə Qafarova Kolumbiya Universitetində çıxış edib

**Milli Məclisin Sədri Sahibə Qafarova Amerika Birləşmiş Ştatlarında işgüzar səfəri çərçivəsində Kolumbiya Universitetində "Qlobal öhdəliklərin milli fəaliyyətə çevrilməsi: Parlament, davamlı inkişaf və Azərbaycanın iqlim gündəliyi" mövzusunda çıxış edib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlament Sədri çıxışında qlobal öhdəliklərin milli səviyyədə konkret siyasətə və fəaliyyətə çevrilməsinin vacibliyindən danışıb. O bildirib ki, Dayanıqlı İnkişaf Məqsədləri qlobal xarakter daşısa da, onların reallaşdırılması, ilk növbədə milli səviyyədə həyata keçirilən siyasətdən, qanunvericilikdən və konkret layihələrdən asılıdır. Bu baxımdan qlobal hədəflərin milli prioritetlərlə uzlaşdırılması və əldə olunan nəticələrin davamlılığının təmin edilməsi mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunub ki, Azərbaycanın dayanıqlı inkişaf siyasətinə uyğun olaraq, ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, insan kapitalının inkişafı, təhsil və innovasiyaların təşviqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Çıxışda insan amilinin dayanıqlı inkişafın əsasını təşkil etdiyi vurğulanıb. Təhsilin, peşə bacarıqlarının yüksəldilməsinin, layiqli əməyin, bərabər imkanların və gənclərin proseslərdə fəal iştirakının əhəmiyyətinə diqqət çəkilib.

Bildirilib ki, parlamentlər qlobal öhdəliklərin milli səviyyədə icrasında mühüm rol oynayır. Qeyd edilib ki, parlamentlərin qanunvericilik, büdcə və nəzarət funksiyaları Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün əlverişli hüquqi və institusional çərçivənin formalaşdırılmasına imkan yaradır.

Çıxışda Azərbaycanın iqlim gündəliyinə də toxunularaq, enerji, iqlim və inkişaf arasında əlaqənin ölkəmiz üçün mühüm əhəmiyyət kəsb etdiyi bildirilib. Ənənəvi enerji resurslarının iqtisadi inkişafda mühüm rolunu qoruduğu, bərpaolunan enerji mənbələrinin inkişaf etdirilməsinin və enerji keçidinin sürətləndirilməsinin də Azərbaycanın əsas prioritetlərindən olduğu vurğulanıb.

Məruzədə Azərbaycanın Milli Səviyyədə Müəyyən Edilmiş Töhfəsi çərçivəsində iqlim hədəflərinə diqqət çəkilərək, 2035-ci ilədək istixana qazı emissiyalarının 1990-cı illə müqayisədə 40 faiz azaldılmasının nəzərdə tutulduğu bildirilib. Bu hədəflərin həyata keçirilməsində qanunvericilik bazasının təkmilləşdirilməsinin və parlament nəzarətinin əhəmiyyəti vurğulanıb.

Çıxışda 2024-cü ildə Bakıda keçirilən COP29 iqlim konfransının yekunlarına və qlobal öhdəliklərin icra mexanizmlərinə toxunularaq, beynəlxalq ambisiyaların praktiki vasitələrlə dəstəklənməsinin vacibliyi diqqətə çatdırılıb.

Parlamentlərin bu prosesdəki rolu barədə danışan Milli Məclisin Sədri deyib ki, beynəlxalq sazişlər prosesin sonu deyil, yalnız başlanğıcıdır. Spiker bildirib ki, hökumətlər beynəlxalq danışıqlar aparsa da, qəbul edilən qərarlar daxildə fəaliyyət tələb edir. Bu baxımdan parlamentlərin qanunvericilik, büdcə təhlili və nəzarət funksiyaları ictimai resursların səmərəli istifadəsini təmin etməkdə həlledici əhəmiyyət daşıyır. O, COP29 çərçivəsində Parlamentlərarası İttifaq (PAİ) və Milli Məclisin Bakıda təşkil etdiyi Parlament Toplantısının bu təcrübə mübadiləsinə böyük töhfə verdiyini diqqətə çatdırıb.

Azərbaycanın inkişaf yolu və dayanıqlı gələcək barədə danışan Milli Məclisin Sədri bildirib ki, ölkənin təmiz enerjiyə keçidi və iqtisadi şaxələndirilməsi davamlı investisiya, güclü insan kapitalı və innovasiya tələb edir. Qeyd olunub ki, bu transformasiyanı həyata keçirmək üçün hökumət biznes, universitetlər və vətəndaş cəmiyyəti güclərini birləşdirməlidir.

Çıxışına yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova bugünkü öhdəlikləri gələcək nəsillər üçün praktiki və faydalı nəticələrə çevirməyin əsas məqsəd olduğunu bildirib.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova BMT Baş Assambleyasının 81-ci sessiyasının prezidenti ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova ABŞ-yə işgüzar səfəri çərçivəsində Nyu Yorkda BMT Baş Assambleyasının 81-ci sessiyasının prezidenti Xəlilur Rəhmanla görüşüb.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri qarşı tərəfi bu vəzifədə fəaliyyətə başlaması münasibətilə təbrik edib, ona uğurlar arzulayıb.

Görüşdə Azərbaycan-BMT münasibətlərinə nəzər salınıb, Azərbaycanın BMT-nin işinə verdiyi töhfələr, gördüyü işlər barədə danışılıb, bu sahədə Azərbaycan parlamentinin və onun həyata keçirdiyi parlament diplomatiyasının çoxtərəfliliyin inkişafındakı rolu vurğulanıb. Spiker Sahibə Qafarova Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyəti barədə BMT Baş Assambleyasının 81-ci sessiyasının prezidentinə məlumat verib.

Söhbət zamanı tərəflər BMT-nin Parlamentlərarası İttifaqla (PAİ) əlaqələrinin inkişafı haqqında fikirlərini bölüşüblər.

Görüşdə digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı ilə təsdiq edilmiş “İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısı”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 264** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə1252 (Cild I); 2024, № 6 (II kitab), maddə 729; 2025, № 9, maddə 868; 2026, № 2, maddə 185) ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə üzrə:

1.1. aşağıdakı məzmunda 1-1-1-11-ci, 6-1-6-5-ci, 8-1-ci, 8-2-ci, 16-18-ci sətirlər əlavə edilsin:

| | | |
|---|---|---|
| 1-1. | 0141 | Südlük iribuynuzlu mal-qaranın yetişdirilməsi |
| 1-2. | 0142 | Digər iribuynuzlu mal-qaranın və camışların yetişdirilməsi |
| 1-3. | 0322 | Şirin su hövzələrində balıqyetişdirmə |
| 1-4. | 10.11 | Ət emalı və konservləşdirilməsi |
| 1-5. | 10.12 | Ev quşlarının ətinin emalı və konservləşdirilməsi |
| 1-6. | 10.13 | Ətməhsulları və ev quşlarının ətindən alınan məhsulların istehsalı |
| 1-7. | 10.20 | Balıq, xərçəng kimilər və molyuskaların emalı və konservləşdirilməsi |
| 1-8. | 10.41 | Yağ və piylərin istehsalı |
| 1-9. | 10.51 | Süd və pendir məhsullarının istehsalı |
| 1-10. | 1091 | Fermalarda saxlanılan heyvanlar üçün hazır yemlərin istehsalı |
| 1-11. | 1102 | Üzümdən şərab istehsalı |
| 6-1. | 21 | Əczaçılıq məhsullarının istehsalı |
| 6-2. | 22.21.30 | Armaturlaşdırılmamış və ya digər materiallarla kombinə edilməmiş plastinlər, lövhələr, plyonkalar, zər vərəqlər və zolaqların istehsalı |
| 6-3. | 22.21.41 | Məsaməli plastmasdan sair plastinlər, lövhələr, plyonkalar, zər vərəqlər və zolaqların istehsalı |
| 6-4. | 22.23.11 | Döşəmə, divar və tavan üçün plastmasdan rulon və ya plitə şəklində örtüklərin istehsalı |
| 6-5. | 23.13.12 | Şüşə saxsıdan başqa, stəkanların istehsalı |
| 8-1. | 2571 | Bıçaq məmulatlarının istehsalı |
| 8-2. | 25.99 | Digər qruplara daxil edilməyən sair hazır metal məmulatlarının istehsalı |
| 16. | 3511 | Bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisinin istehsalı (paylarının(səhmlərinin) 50 (əlli) faizi və daha artıq hissəsi birbaşa və ya dolayısilə dövlətə məxsus olan hüquqi şəxslərə və dövlətin yaratdığı publik hüquqi şəxslər istisna olmaqla) |
| 17. | 72 | Elmi tədqiqatlar və işləmələr |
| 18. | 8292 | Kənd təsərrüfatı məhsullarının çeşidlənməsi və qablaşdırılması |

1.2. "Qeydlər: "bölməsinə aşağıdakı məzmunda 3-cü və 4-cü hissələr əlavə edilsin:

"3. İkinci və üçüncü siyahılar üzrə müəyyən edilmiş texnika, texnoloji avadanlıqlar, qurğular, xammal və materialların yalnız birinci siyahıda qeyd edilmiş iqtisadi fəaliyyət sahələri üzrə istehsal qurulacağı təqdirdə idxalın əlavə dəyər vergisi və gömrük rüsumundan azad olunması nəzərə alınır.

4. 1-1-1-11-ci sətirlər üzrə investisiya layihələrinə güzəştlər yalnız texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı tətbiq edilir.".

2. 2-ci hissə üzrə:

2.1. 91-ci sətir aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 91. | 8504 | Elektrik transformatorlar, statik elektrik dəyişdiricilər (məsələn, düzləndiricilər), induktivlik çarxları və drossellər (850421, 850422, 850423, 850433, 850434 yarımmövqeləri istisna olmaqla) |

2.2. 120-ci, 121-ci və 122-ci sətirlər çıxarılsın.

3. 3-cü hissə üzrə:

3.1. aşağıdakı məzmunda 101-1-ci, 126-1-ci, 142-1-ci, 315-1-ci, 318-1-ci, 337-1-ci, 338-1-ci, 338-2-ci, 344-1-ci, 344-2-ci, 344-3-cü, 350-1-ci, 350-2-ci, 350-3-cü, 350-4-cü, 350-5-ci, 350-6-cı, 351-1-ci və 355-1-ci sətirlər əlavə edilsin:

| | | |
|---|---|---|
| 101-1. | 3404 | Süni mumlar və hazır mumlar |
| 126-1. | 3901 | İlkin formalarda etilen polimerləri |
| 142-1. | 3923 | Malların nəqli və ya qablaşdırılması üçün plastmasdan məmulatlar; plastmastıxaclar, qapaqlar, qalpaqlar və tıxaclama üçün digər vasitələr (yalnız tava və qazan istehsalında istifadə olunan) |
| 315-1. | 7315 | Qara metallardan zəncirlər və onların hissələri yalnız liftlər, eskalatorlar və digər qaldırıcıların istehsalında istifadə olunan) |
| 318-1. | 7323 | Qara metallardan süfrə, mətbəx məmulatları və ya məişət ehtiyacları üçün digər məmulatlar və onların hissələri; qara metallardan "yun"; qara metallardan mətbəx qablarının təmizlənməsi üçün liflər, təmizləmə və ya pardaqlama üçün yastıqcıqlar, əlcəklər və analoji məmulatlar (yalnız tava və qazan istehsalında istifadə olunan) |
| 337-1. | 7615 | Alüminiumdan süfrə, mətbəx və ya məişət ehtiyatları üçün digər məmulatlar və onların hissələri; alüminiumdan mətbəx qablarını təmizləmək üçün liflər, təmizləmə və ya pardaqlama üçün yastıqcıqlar, əlcəklər və analoji məmulatlar; alüminiumdan sanitar-texniki avadanlıq və onun hissələri (yalnız tava və qazan istehsalında istifadə olunan) |
| 338-1. | 7905 | Sinkplitələri, vərəqləri, zolaqları və ya lentləri və folqa |
| 338-2. | 7907 | Sinkdəndigərməmulatlar |
| 344-1. | 8407 | Dövrü və ya irəli-geri hərəkət edən porşenli, qığılcımla alışan daxili yanma mühərrikləri (motosikletlər və mopedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə) |
| 344-2. | 8425 | Skipli yükqaldırıcılarından başqa, qaldırıcı tallar və qaldırıcılar; bucurğadlar və dolamaçarxlar (kabestanlar); domkratlar |
| 344-3. | 8431 | Yalnız və ya əsasən 8425-8430 mal mövqelərinin avadanlığı üçün nəzərdə tutulmuş hissələr (yalnız liftlər, eskalatorlar və digər qaldırıcıların istehsalında istifadə olunan) |
| 350-1. | 8530 | Dəmir yollarında, tramvay xətlərində, avtomobil yollarında, daxili su yollarında, avtomobil dayanacaqlarında, limanlarda və ya aerodromlarda hərəkətin təhlükəsizliyinin və ya idarə olunmasının təmini üçün elektrik siqnalizasiya qurğuları (8608 mal mövqeyinin avadanlığından başqa) |
| 350-2. | 8531 | 8512 və ya 8530 mal mövqeyinin avadanlığından başqa, səs və ya vizual siqnalizasiya elektrik avadanlığı (məsələn, zənglər, sirenalar, indikatorpanelləri, mühafizənin təmin edilməsi üçün və ya yanğın təhlükəsizliyi üçün siqnalizasiya qurğuları) |
| 350-3. | 8535 | 1000 V-dan çox gərginliküçün elektrik dövrələrinin komutasiyası və ya qorunması üçün və ya elektrik dövrələrinə qoşulmaq və ya elektrik dövrlər üçün elektrik aparatura (məsələn, qoşucu açarlar, dəyişdirici açarlar, kəsicilər, əriyən qoruyucular, ildırım ötürücüləri, gərginlik məhdudlaşdırıcıları, gərginlik sıçrayışlarının söndürücüləri, cərəyan qəbulediciləri, cərəyan götürücüləri və digər birləşdiricilər, birləşdirici qutular) |
| 350-4. | 8536 | 1000 V-dan çox olmayan gərginlik üçün elektrik dövrələrinin kommutasiyası və ya qorunması üçün və ya elektrik dövrələrinə qoşulmaq və ya elektrik dövrlər üçün elektrik aparatura (məsələn, qoşucu açarlar, dəyişdirici açarlar, kəsicilər, rele, əriyən qoruyucular, gərginlik sıçrayışlarının söndürücüləri, ştepsel vilkaları və rozetkaları, elektrik lampaları üçün patronlar və digər birləşdiricilər, birləşdirici qutular); optikliflər, optik-liflij qutlar və ya kabellər üçün birləşdiricilər |
| 350-5. | 8537 | Elektrik cərəyanının idarəetməsi və ya bölüşdürülməsi üçün 8535 və ya 8536 mal mövqeyinin iki və ya daha çox qurğusu ilə təchiz olunmuş, o cümlədən 90-cı qrupun cihazlarını və qurğularını və rəqəmsal idarəetmə aparatlarını daxil edən, tərkibində 8517 mal mövqeyinin kommutasiya qurğuları olmayan pultlar, panellər, konsollar, masalar, bölüşdürücü şitlər və elektrik aparatları üçün digər təməllər |
| 350-6. | 8538 | 8537 mal mövqeyinin məmulatları üçün nəzərdə tutulmuş, lakin müvafiq aparatura ilə komplektləşdirilməmiş pultlar, panellər, konsollar, masalar, bölüşdürücü şitlər və digər təməllər, elektron modullar |
| 351-1. | 8543 | Bu qrupun başqa yerində adları çəkilməyən və ya daxil edilməyən, fərdi funksiyaları olan elektrik maşınlar və aparatura (yalnız liftlər, eskalatorlar və digər qaldırıcıların istehsalında istifadə olunan) |
| 355-1. | 8608 | Dəmiryol və ya tramvay xətləri üçün yol avadanlığı və qurğuları; mexaniki siqnal avadanlığı, dəmir yollarında, tramvay xətlərində, avtomobil yollarında, daxili su yollarında, dayanacaq obyektlərində, limanlarda və ya aerodromlarda hərəkət təhlükəsizliyinin və ya idarə edilməsinin təmini üçün qurğular |

3.2. 243-cü sətir çıxarılsın.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 359 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 271** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 359 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1810 (Cild I); 2024, № 5 (II kitab), maddə 578) 1-ci hissəsində "14" rəqəmləri "15" rəqəmləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## “Əhalinin sağlamlığının qorunması haqqında” və “Onkoloji yardım haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 356-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 265** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 356-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 21 noyabr tarixli 243 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 995 (Cild I) ilə təsdiq edilmiş "Mülkiyyət formasından asılı olmayaraq, tibb müəssisələrində onkoloji xəstələrin qeydiyyatı və uçotu Qaydası"na aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Özəl tibb müəssisələri tərəfindən yalnız bu Qaydanın 4-cü hissəsində göstərilən tibb müəssisələrində qeydiyyata alınmış onkoloji xəstələrə onkoloji yardım göstərilir.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 21 noyabr tarixli 244 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 966 (Cild I) ilə təsdiq edilmiş "Onkoloji xəstələrə göstərilməli olan tibbi yardımın həcmi və keyfiyyət Standartları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissənin "Qeyd"ində "ixtisaslaşdırılmış tibb müəssisələrində aparılır" sözləri "ixtisaslaşdırılmış dövlət tibb müəssisələrində və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq lisenziya almış özəl tibb müəssisələrində (lisenziyanın əlavəsinə uyğun olaraq) həyata keçirilir" sözləri ilə əvəz edilsin;

2.2. 3.2.2-ci yarımbənddə "tibb müəssisələrinin" sözləri "dövlət tibb müəssisələrinin və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq lisenziya almış özəl tibb müəssisələrinin (lisenziyanın əlavəsinə uyğun olaraq)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 21 noyabr tarixli 245 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 997 (Cild I) ilə təsdiq edilmiş "Onkoloji xəstəliklərin azaldılmasına yönəldilmiş müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü hissədə "müalicə diaqnostika yardımı" sözləri ", habelə onların fərdi müraciəti əsasında "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq lisenziya almış özəl tibb müəssisələrində (lisenziyanın əlavəsinə uyğun olaraq) onkoloji yardım" sözləri ilə əvəz edilsin;

3.2. 6-cı hissədə "tibb müəssisələrində" sözləri "dövlət tibb müəssisələrində və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq lisenziya almış özəl tibb müəssisələrində (lisenziyanın əlavəsinə uyğun olaraq)" sözləri ilə əvəz edilsin;

3.3. 8-ci hissəyə "isə" sözündən sonra "ixtisaslaşdırılmış dövlət tibb müəssisələrində" sözləri əlavə edilsin.

4. "Onkoloji xəstələrin dərman vasitələri ilə təminatı Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 20 dekabr tarixli 266 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1155 (Cild I); 2024, № 9, maddə 1106) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adına və 1-ci hissəyə "Onkoloji" sözündən sonra "yardım göstərən dövlət tibb müəssisələrində onkoloji" sözləri əlavə edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş "Onkoloji xəstələrin dərman vasitələri ilə təminatı Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.2.1. adına "Onkoloji" sözündən sonra "yardım göstərən dövlət tibb müəssisələrində onkoloji" sözləri əlavə edilsin;

4.2.2. 1-ci hissəyə "onkoloji" sözündən sonra "yardım göstərən dövlət tibb müəssisələrində onkoloji" sözləri əlavə edilsin;

4.2.3. 3-cü hissəyə "xəstələr" sözündən sonra "dövlət tibb müəssisələrində müalicə olunduqda" sözləri əlavə edilsin;

4.2.4. 4-cü hissəyə "xəstələr" sözündən sonra "dövlət tibb müəssisələrində müalicə olunduqda" sözləri əlavə edilsin.

5. "Onkoloji xəstələrin müalicəsi üçün illik ayrılan dərman vasitələrinin, o cümlədən narkotik və qeyri-narkotik ağrıkəsici preparatların siyahısı və miqdarı"nın təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 yanvar tarixli 17 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 61 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adına və 1-ci hissəyə "Onkoloji" sözündən sonra "yardım göstərən dövlət tibb müəssisələrində onkoloji" sözləri əlavə edilsin;

5.2. həmin Qərarla təsdiq edilmiş "Onkoloji xəstələrin müalicəsi üçün illik ayrılan dərman vasitələrinin, o cümlədən narkotik və qeyri-narkotik ağrıkəsici preparatların siyahısı və miqdarı"nın adına "Onkoloji" sözündən sonra "yardım göstərən dövlət tibb müəssisələrində onkoloji" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## “Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 269** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428; 2025, № 9, maddə 879, № 10, maddələr 972, 996; 2026, № 3, maddələr 270, 272; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 20 iyul tarixli 219 nömrəli və 31 iyul tarixli 249 nömrəli qərarları) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlinin 6-cı hissəsinin "cəmi" və "aparat üzrə" sütunlarında "7" rəqəmi "8" rəqəmi ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 350-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 272** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 350-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 261 (Cild I); 2024, № 9, maddə 1058, № 12 (I kitab), maddə 1311) ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.5-ci bəndinin üçüncü cümləsinə "şəxslərin" sözündən sonra "Azərbaycan Respublikasının" sözləri, ikinci halda "təhsil" sözündən sonra "(əlavə təhsil istisna olmaqla)" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 467 (Cild I); 2024, № 3, maddə 307, № 9, maddə 1058, № 12 (I kitab), maddə 1310) ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nın 1.7-ci bəndinin ikinci abzasına "şəxslərin" sözündən sonra "Azərbaycan Respublikasının" sözləri, ikinci halda "təhsil" sözündən sonra "(əlavə təhsil istisna olmaqla)" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 561 (Cild I); 2024, № 9, maddə 1058) ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.8-ci bəndinin ikinci abzasına "şəxslərin" sözündən sonra "Azərbaycan Respublikasının" sözləri, ikinci halda "təhsil" sözündən sonra "(əlavə təhsil istisna olmaqla)" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 695 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 612, № 9, maddə 1058; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 1.6-cı bəndinin ikinci abzasına "şəxslərin" sözündən sonra "Azərbaycan Respublikasının" sözləri, ikinci halda "təhsil" sözündən sonra "(əlavə təhsil istisna olmaqla)" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr tarixli 398 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri”ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 275** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il30 dekabr tarixli 327-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr tarixli398 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10(Cild I); 2024, № 3, maddə 330; 2025, № 8, maddə 802, № 9, maddə 870)ilə təsdiq edilmiş "Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1.12-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.1.13-cü yarımbənd əlavə edilsin:

"2.1.13. "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zərərçəkmişlərin.".

2. Aşağıdakı məzmunda 4.15-ci bənd əlavə edilsin:

"4.15. "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zərərçəkmişlər dövlət büdcəsinin vəsaiti hesabına ərazi dövlət tibb müəssisələrində və ya həmin müəssisənin göndərişi ilə ixtisaslaşdırılmış dövlət tibb müəssisəsində psixoloji yardımla təmin olunurlar.".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## “Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 352-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 267** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 352-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 21 iyun tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 6, maddə 381 (Cild I); 2025, № 2, maddələr 187, 204) ilə təsdiq edilmiş "Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.38-ci bənddən "asbest ovuntulu," sözləri çıxarılsın;

1.2. Qaydalara 9 nömrəli əlavə ləğv edilsin;

1.3. Qaydalara 23 nömrəli əlavə - "QDS-ın ərazisi və istehsalat binaları üçün yanğından mühafizə avadanlıqlarının siyahısı"ndan "Yanğından mühafizə avadanlığı" sütunu üzrə "Azbest parçası, yaxud" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 246 (Cild I); 2024, № 9, maddələr 1067, 1106; 2025, № 2, maddə 187, № 9, maddə 868) ilə təsdiq edilmiş "Yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. "I. DAĞ-MƏDƏN İŞLƏRİ, METROPOLİTENLƏRİN, TUNELLƏRİN VƏ XÜSUSİ TƏYİNATLI YERALTI QURĞULARIN TİKİNTİSİ" bölməsinin "Tikinti materiallarının hasilatı və zənginləşdirilməsi:" hissəsi üzrə:

2.1.1. onuncu abzas ləğv edilsin;

2.1.2. on altıncı abzasdan ", azbestin" sözü çıxarılsın;

2.2. "VIII. NEFT-KİMYA İSTEHSALI" bölməsinin "Texniki asbest məmulatlarının istehsalı:" hissəsi ləğv edilsin;

2.3. "XVI. TİKİNTİ MATERİALLARI SƏNAYESİ" bölməsi üzrə:

2.3.1. "Tikinti materialları istehsalatının ümumi peşələri:" hissəsinin ikinci abzasından "asbest-sement" sözləri çıxarılsın;

2.3.2. "Asbest-sement məmulatlarının istehsalı:" hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 noyabr tarixli 207 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 11, maddə 828 (Cild I); 2024, № 1, maddə 73; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 29 iyul tarixli 245 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Təhlükəli yüklərin dəmir yolu nəqliyyatı ilə daşınması Qaydaları"na 7 nömrəli əlavə - "Təhlükəli yüklərin daşınması üçün vaqonların və konteynerlərin seçilməsi və hazırlanması"nın 13-cü hissəsindən "azbest kartondan və" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 13 dekabr tarixli 220 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 871 (Cild I); 2024, № 1, maddə 73; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 29 iyul tarixli 245 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Təhlükəli yüklərin hava nəqliyyatı ilə daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5-ci hissənin "Təhlükəli yüklərin siyahısı" cədvəlində "Ağ asbest (krokidolitdən, amozitdən, mizoritdən başqa bütün növlər)", "Mavi asbest (krokidolit) və ya qəhvəyi asbest (amozit, mizorit)", "Ağ asbest" və "Krokodolit. Bax: mavi asbest" yüklərə aid sətirlər ləğv edilsin;

4.2. "6.3.2. 2-ci sinif" bölməsinin "Təhlükəsizlik tələbləri" hissəsinin dördüncü abzasından "asbest və yaxud" sözləri çıxarılsın;

4.3. "6.3.5. 5-ci sinif" bölməsi üzrə:

4.3.1. altıncı abzasın ikinci cümləsindən "asbest," sözü çıxarılsın;

4.3.2. 5.1-ci bəndin altıncı abzasından "asbestlə və yaxud eyni dərəcədə" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 20 fevral tarixli 30 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 2, maddə 108) ilə təsdiq edilmiş "İşləri yerin altında görülən yeraltı istehsalatların, şaxtaların, tunellərin, qurğuların və digər iş yerlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. "Asbest hasilatı Yeraltı dağ-mədən işləri:" bölməsi ləğv edilsin;

5.2. "Dağ-mədən işlərinin açılması:" bölməsi ləğv edilsin.

6.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 iyul tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 583(Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 579, № 9, maddələr 1067,1106; 2025, № 2, maddə 187, № 9, maddə 868) ilə təsdiq edilmiş "Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. "VII. Kimya istehsalatları." bölməsi üzrə:

6.1.1. 155-ci bənddən "asbestli kütlələrin," sözləri çıxarılsın;

6.1.2. "Asbestli texniki məmulatların istehsalı Toxuculuq istehsalı" hissəsi ləğv edilsin;

6.2. "XIV. Elektrik texnikası istehsalı" bölməsi üzrə:

6.2.1. 10-cu və 11-ci bəndlərin ikinci abzaslarından "deltaasbestlə," sözü çıxarılsın;

6.2.2. 114-cü bəndin ikinci abzasından "təbəqəli asbestlə" sözləri çıxarılsın;

6.3. "XV. Radiotexnika və elektron istehsalatları" bölməsinin 177-ci bəndindən "və onların asbestli isti izolyasiya ilə təmirində" sözləri çıxarılsın;

6.4. "XIX. İnşaat materiallarının istehsalı" bölməsi üzrə:

6.4.1. "Asbestsement məmulatlarının istehsalı" hissəsi ləğv edilsin;

6.4.2. 152-ci bənd ləğv edilsin;

6.4.3. 153-cü bənddən "və asbestsementli üzlük plitələrin rənglənməsi bölməsində" sözləri çıxarılsın;

6.4.4. 154-cü bəndin "b)" yarımbəndi ləğv edilsin;

6.4.5. 155-158-ci və 384-cü bəndlər ləğv edilsin;

6.4.6. 167-ci bənddə "bitum və asbestlə" sözləri "bitumla" sözü ilə əvəz edilsin;

6.4.7. 168-ci bəndin "b)" yarımbəndindən "və asbestlə" sözləri çıxarılsın;

6.4.8. 379-cu bənddən "və asbesti" sözləri çıxarılsın;

6.4.9. "Asbestin zənginləşdirilməsi" hissəsi ləğv edilsin;

6.5. "XXVI. Toxuculuq və yüngül sənaye" bölməsinin 376-cı bəndi ləğv edilsin;

6.6. "XXVII. Qida sənayesi" bölməsi üzrə:

6.6.1. "Preslənmə materiallarının və plastmasdan olan məmulatların istehsalı Fenollu, karbamidli, karbinollu, furilli, rolimerizasonlu və digər birləşmiş fenollu (fenoplastlar, aminoplastlar, pulverbakelit, faolit, voloknit, asbest kütlələri, asbovinil, arzamit, ATM, FKF, VDU və böyük fəhlə). Doldurucuların əsasında preslənmə materiallarının istehsalı" hissəsinin adından "asbest kütlələri," sözləri çıxarılsın;

6.7. "XXXIX. Laboratoriyalar, elmi-tədqiqat laboratoriyaları, institutlar, idarə və təşkilatlar, tədris ocaqlarının laboratoriyaları" bölməsinin 3-cü bəndi ləğv edilsin;

6.8. "XL. İqtisadiyyatın bütün sahələrində ümumi peşələr" bölməsi üzrə:

6.8.1. 32-ci bəndin "c)" yarımbəndindən "asbest," sözü çıxarılsın;

6.8.2. 38-ci və 176-cı bəndlərdən ", asbestin" sözü çıxarılsın.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 963 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 579, № 9, maddələr 1067, 1106; 2025, № 9, maddə 868) ilə təsdiq edilmiş "İşçilərə həftə ərzində 36 saatdan çox olmayan, qısaldılmış iş vaxtı müəyyən edilən əmək şəraiti fiziki, kimyəvi, bioloji və habelə insanın sağlamlığıüçün zərərli olan digər ağır istehsalat amilləri mövcud olan əmək şəraitli istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalatların, peşə və vəzifələrin adı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

7.1. "VI. KİMYA İSTEHSALATI.QEYRİ-ÜZVİ MƏHSULLAR" bölməsinin "Asbestli texniki məmulatların istehsalı. Toxuculuq istehsalı", "Asbestlərin: karton, kağız, filtrli lövhəcik, filtrli liflər və onlardan olan məmulatların istehsalı", "Paronitlərin: elektronit, ferronit, frivanit və digər paronitlərin və onlardan olan məmulatların istehsalı", "Friksion və tormozlu məmulatların istehsalı", "Texniki asbest məmulatlarının təcrübəvi-eksperimental istehsalı" hissələri və 166-cı ,167-ci, 168-ci, 169-cu, 170-ci və 171-ci bəndlər ləğv edilsin;

7.2. "XVI. İNŞAAT MATERİALLARININ İSTEHSALI" bölməsinin "Asbestin hasilatı və zənginləşdirilməsi." hissəsi ləğv edilsin;

7.3. "XXXIV. LABORATORİYALAR, ELMİ TƏDQİQAT LABORATORİYALARI, İNSTİTUTLAR, MÜƏSSİSƏ, İDARƏ VƏ TƏŞKİLATLAR, TƏDRİS OCAQLARININ LABORATORİYALARI" bölməsinin 1-ci bəndinin dördüncü abzası ləğv edilsin.

8.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 13 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 43 (Cild I) ilə təsdiq edilmiş "İstehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırılması Qaydası"na - 3 nömrəli əlavənin "Təhlükəli tullantıların xassələri" sütunundan "asbest" və "bərkidilmiş (möhkəmləndirilmiş) asbest"ə aid sətirlər ləğv edilsin.

9.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 18 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 203 (Cild I); 2024, № 1, maddə 74, № 2, maddə 209, № 9, maddə 1106; 2025, № 2, maddə 187, № 9, maddə 868) ilə təsdiq edilmiş "Tikinti layihəsinin texnologiya bölməsinin hazırlanması tələb olunan hallar"ın1.28.3-cü yarımbəndi ləğv edilsin.

10.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 dekabr tarixli 550 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2498 (Cild I); 2025, № 9, maddə 868) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi üçün zərərli, ağır və yeraltı əmək şəraitli istehsalatların SİYAHISI"nıncədvəl hissəsinin 2.112-ci bəndindən "asbestli sıxışdırılmış material" sözləri çıxarılsın.

11.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189, № 3, maddə 264, № 4, maddələr 360, 387, № 5, maddələr 466, 470, 474; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 3 iyun tarixli 165 nömrəli, 9 iyun tarixli 173 nömrəli, 25 iyun tarixli 200 nömrəli və 24 iyul tarixli 237 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə"nin "11.5.2. Faydalı qazıntılar" paraqrafından "asbest," sözü çıxarılsın.

12."Azərbaycan Respublikasının ərazisində dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektləri üçün yeni smeta-normativ və qiymətqoyma sisteminin və onun əsasında qiymətqoymanın resurs metodunun tətbiq olunması ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 25 may tarixli 150 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 84) aşağıdakı dəyişikliklər edilsin:

12.1. həmin Qərarla təsdiq edilmiş 8 nömrəli əlavə - "Tikinti-quraşdırma işlərinin qış vaxtında yerinə yetirilməsi ilə əlaqədar olan əlavə xərclərin smeta normaları toplusu"nun "Tikintinin növləri üzrə əlavə xərclərin smeta normaları" üzrə:

12.1.1. 1 nömrəli cədvəlin 1.20.4-cü yarımbəndindən", asbestsement" sözü çıxarılsın:

12.1.2. 2 nömrəli cədvəl üzrə:

12.1.2.1. 12.4-cü, 21.1-ci bəndlər və 22.1.1-ci yarımbənd ləğv edilsin;

12.1.2.2. 33.4-cü bənddən "Asbest-sement borulardan və" sözləri çıxarılsın.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 may tarixli 172 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2023, № 5, maddə 739) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahısı"nın 2.3-cü bəndi ləğv edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2024, № 5 (II kitab), maddə 600) ilə təsdiq edilmiş "Dəmiryol nəqliyyatının texniki istismar Qaydaları"nın 8.33-cü bəndi ləğv edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 6 mart tarixli 61 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 3, maddə 272 (Cild I); 2025, № 5, maddələr 465, 466) ilə təsdiq edilmiş "Texniki tənzimləmənin şamil olunduğu malların siyahısı"nın 1.57-ci bəndinin "Malın adı" sütununda ", şüşə lifinin və asbest saplarının" sözləri "və şüşə lifinin" sözləri ilə əvəz edilsin.

16. Bu Qərar 2027-ci il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş “Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 276** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Portuqaliya Respublikasında (Lissabon şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 17 iyun tarixli 1063 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 41 (Cild I); 2025, № 4 (II kitab), maddə 415; 2026, № 2, maddə 186; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 27 avqust tarixli 261 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qaydalara4 nömrəli əlavə - "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında dövlət məvacibinin, aylıq əlavənin və digər təminatlarla bağlı ödənişlərin həyata keçirildiyi valyutaların növləri" cədvəlinə aşağıdakı məzmunda 2.22-1-ci bənd əlavə edilsin:

| | |
|---|---|
| 2.22-1. | Portuqaliya Respublikası |

2. Həmin Qaydalara 5 nömrəli əlavə - "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin dövlət məvacibinə tətbiq edilən fərqləndirici əmsallar" cədvəlinə aşağıdakı məzmunda 66-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 66-1. | Portuqaliya Respublikası, Lissabon şəhəri | 2,881 |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan “Regional Su Meliorasiya Xidməti” və “İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti” publik hüquqi şəxslərin yenidən təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 600 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 273** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 600 nömrəli Fərmanının 4.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının su qanunvericiliyi ilə bağlı bəzi qaydaların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 oktyabr tarixli 206 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 627 (Cild I); 2025, № 4 (I kitab), maddə 384, № 10, maddə 966) ilə təsdiq edilmiş "Sudan təsərrüfatdaxili istifadə planlarının və sudan istifadəyə dair ümumsistem planlarının təsdiq edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 11-ci hissənin üçüncü abzasında "Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs" sözləri "Agentliyi" sözü ilə əvəz edilsin;

1.2. 15-ci hissədə "olan "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxsin" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

2. "Obyektlərdə elektrik, qaz və su sayğaclarının quraşdırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 iyul tarixli 101 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 592 (Cild I); 2024, № 2, maddə 229; 2025, № 9, maddə 879) 5-ci hissəsində "olan "Regional Su Meliorasiya Xidməti və İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" sözləri "Regional Su Meliorasiya" və "İri Şəhərlərin Su Təchizatı" qapalı səhmdar cəmiyyətləri" sözləri ilə əvəz edilsin.

3. "Sudan İstifadəedənlər Birliyinin xidmət göstərdiyi ərazidə yerləşən dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin Birliyin uzunmüddətli istifadəsinə verilməsi şərtləri və bu şərtlər pozulduğu halda onların geri alınması Qaydası"nın, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs ilə Sudan İstifadəedənlər Birliyi arasında su təchizatı üzrə sazişin forması"nın və "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs ilə Sudan İstifadəedənlər Birliyi arasında su təchizatı üzrə sazişə uyğun olaraq bağlanılan illik müqavilənin forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 18 iyul tarixli 138 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 671 (Cild I); 2025, № 2, maddə 204, № 4 (I kitab), maddə 384) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında (hər iki halda), 1-ci (hər iki halda) və 2-ci hissələrdə ismin müvafiq hallarında "olan "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs" sözləri ismin müvafiq hallarında "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Sudan İstifadəedənlər Birliyinin xidmət göstərdiyi ərazidə yerləşən dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin Birliyin uzunmüddətli istifadəsinə verilməsi şərtləri və bu şərtlər pozulduğu halda onların geri alınması Qaydası"nın 2-ci, 3-cü, 4-cü (hər iki halda), 5-ci, 7-12-ci hissələrində və 3.6-cı və 3.8-ci bəndlərdə ismin müvafiq hallarında "olan "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs" sözləri ismin müvafiq hallarında "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

3.3. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs ilə Sudan İstifadəedənlər Birliyi arasında su təchizatı üzrə sazişin forması"nın adında, mətnində və saziş formasına əlavənin adında ismin müvafiq hallarında "olan "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs" sözləri ismin müvafiq hallarında "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

3.4. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs ilə Sudan İstifadəedənlər Birliyi arasında su təchizatı üzrə sazişə uyğun olaraq bağlanılan illik müqavilənin forması"nın adında və mətnində ismin müvafiq hallarında "olan "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs" sözləri ismin müvafiq hallarında "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 8 may tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 435 (Cild I); 2024, № 9, maddələr 1090, 1106; 2025, № 2, maddə 204, № 4 (I kitab), maddə 384) ilə təsdiq edilmiş "Meliorasiya və irriqasiya sistemlərinin istismarı və qoruyucu meşə əkinlərinin saxlanması Qaydaları"nın 1.13-cü bəndində "olan "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxsin" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 322 (Cild I); 2024, № 2, maddə 206, № 12 (I kitab), maddə 1313; 2025, № 8, maddə 811; 2026, № 2, maddə 191) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 72-83-cü, 122-1-ci, 122-2-ci və 122-4-122-7-ci hissələrdə "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxs" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

5.2. 84-122-ci və 122-3-cü hissələrdə "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxs" sözləri "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 950 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 336, № 9, maddə 1048; 2025, № 4 (I kitab), maddə 398, № 9, maddə 879) ilə təsdiq edilmiş "Sudan istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. Qaydalara 1 nömrəli əlavə - "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair əhali qrupuna aid olan fiziki şəxslərlə bağlanan Müqavilə" üzrə:

6.1.1. preambula üzrə:

6.1.1.1. cədvəlin birinci sütununda "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti / Regional Su Meliorasiya Xidməti" sözləri "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyəti / "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

6.1.1.2. "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin" sözləri "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə, "Regional Su Meliorasiya Xidmətinin" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin;

6.1.2. 4.1-ci bənddə "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" sözləri "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə, "Regional Su Meliorasiya Xidməti" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

6.2. Qaydalara 2 nömrəli əlavə - "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair hüquqi şəxslərlə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərlə bağlanan Müqavilə" üzrə:

6.2.1. preambula üzrə:

6.2.1.1. cədvəlin birinci sütununda "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti / Regional Su Meliorasiya Xidməti" sözləri "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyəti / "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

6.2.1.2. "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin" sözləri "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə, "Regional Su Meliorasiya Xidmətinin" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin;

6.2.2. 4.1.12-ci yarımbənddə "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" sözləri "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə, "Regional Su Meliorasiya Xidməti" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

7. "Sıx müvəqqəti məskunlaşma yerlərində faktiki yaşayan məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin istifadə etdikləri elektrik enerjisi üzrə limitlərin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 fevral tarixli 55 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 308 (Cild I); 2024, № 2, maddə 229; 2025, № 4 (I kitab), maddə 398) əlavələr - "Forma 1" və "Forma 2"də "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin" sözləri "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə, "Regional Su Meliorasiya Xidmətinin" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 202 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 973 (Cild I); 2025, № 4 (I kitab), maddə 384, № 10, maddə 966) ilə təsdiq edilmiş "Balıqçılıq subyektlərinin uçotunun forması və aparılması Qaydaları"nın 2.1.2-ci yarımbəndində "olan "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxsin" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

9. "Ayrı-ayrı su istifadəçiləri tərəfindən istismar olunan nasos stansiyalarının və subartezian quyularının Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin balansına götürülməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 15 mart tarixli 83 nömrəli qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 iyun tarixli 269 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1243 (Cild I); 2024, № 2, maddə 229) 2-ci hissəsində "olan "Regional Su Meliorasiya Xidmətinin" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

10. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin balansında olan, Xəzər dənizinin sahil zolağında quraşdırılmış modul tipli çirkab sutəmizləyici qurğuların onlara aid əmlakla birlikdə Buzovna, Binəqədi, Bilgəh, Pirşağı və Sumqayıt bələdiyyələrinin mülkiyyətinə verilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 169 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 640 (Cild I); 2024, № 2, maddə 229) 3-cü hissəsində "olan "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin" sözləri "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

11. "Bərpa olunan enerji mənbələri üzrə informasiya sisteminin Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 348 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1369 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 312) 3-cü hissəsində "Regional Su Meliorasiya Xidməti" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 iyun tarixli 297 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 717) ilə təsdiq edilmiş "Meliorasiya və irriqasiya sistemlərinin kadastrının aparılması Qaydası"nın 4.5-ci bəndində "Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 avqust tarixli 372 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 8, maddə 988 (Cild I); 2025, № 4 (I kitab), maddə 398, № 12 (II kitab), maddə 1209; 2026, № 4, maddə 385) ilə təsdiq edilmiş "Təbii inhisar subyektlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

13.1. 34-cü hissənin "Müəssisənin (təşkilatın) adı" sütununda "İRİ ŞƏHƏRLƏRİN BİRLƏŞMİŞ SU TƏCHİZATI XİDMƏTİ" PUBLİK HÜQUQİ ŞƏXS" sözləri "İRİ ŞƏHƏRLƏRİN SU TƏCHİZATI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ" sözləri ilə əvəz edilsin;

13.2. 35-ci hissənin "Müəssisənin (təşkilatın) adı" sütununda "REGİONAL SU MELİORASİYA XİDMƏTİ" PUBLİK HÜQUQİ ŞƏXS" sözləri "REGİONAL SU MELİORASİYA" QAPALI SƏHMDAR CƏMİYYƏTİ" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 avqust tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 8, maddə 801) ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın 1-ci və 2-ci hissələri aşağıdakı redaksiyada verilsin:

"1. "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti;

2. "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyəti;".

15. "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 avqust tarixli 236 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 8, maddə 808) "Kollegiyanın üzvləri" bölməsində "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxsin İdarə Heyətinin sədri" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyətinin icraçı direktoru" sözləri ilə, "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxsin İdarə Heyətinin sədri" sözləri "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyətinin icraçı direktoru" sözləri ilə əvəz edilsin.

16. Bu Qərar "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 600 nömrəli Fərmanının 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulmuş qapalı səhmdar cəmiyyətləri "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındıqları gündən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 23 aprel tarixli 98 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə vəziyyəti haqqında illik xüsusi hesabat forması"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 270** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 23 aprel tarixli 98 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 318 (Cild I) ilə təsdiq edilmiş "Dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə vəziyyəti haqqında illik xüsusi hesabat forması" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin bəzi məsələləri haqqında" 2008-ci il 13 iyun tarixli 136 nömrəli, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi barədə" 2017-ci il 14 noyabr tarixli 490 nömrəli, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparatının işçilərinin aylıq vəzifə maaşlarının cədvəli"nin təsdiq edilməsi haqqında" 2020-ci il 8 avqust tarixli 286 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 274** **Bakı şəhəri, 8 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin bəzi məsələləri haqqında"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 13 iyun tarixli 136 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 588 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adından "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında" sözləri çıxarılsın;

1.2. həmin Qərara 1 nömrəli əlavə - "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin balansına verilən abidələrin, dövlət mülkiyyətinə məxsus qeyri-yaşayış binalarının, tikililərin və binaların qeyri-yaşayış sahələrinin Siyahısı"nın 22-ci və 27-ci hissələri ləğv edilsin.

2. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 noyabr tarixli 490 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2154 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissədə "430" rəqəmləri "300" rəqəmləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturu" aşağıdakı redaksiyada verilsin:

**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin**

**STRUKTURU**

1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparatı (departamentlər və şöbələr).
2. Muzey və Turizm Mərkəzi.
3. Ənənəvi İncəsənət Mərkəzi.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 avqust tarixli 286 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1104 (Cild I) ilə təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparatının işçilərinin aylıq vəzifə maaşlarının cədvəli"ndə (hər iki halda) "Şöbə" sözü "Departament" sözü ilə, həmin cədvəldə "Sektor" sözü "Şöbə" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində olan "Yaşıl Teatr" Bakı Konsert Kompleksi və Bakı Şəhər Bələdiyyə Teatrının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 280** **Bakı şəhəri, 9 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 7.11-ci bəndinə uyğun olaraq və "Bakı Şəhər İcra Hakimiyyətinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 10 iyun tarixli 683 nömrəli Fərmanının 2.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində olan "Yaşıl Teatr" Bakı Konsert Kompleksi və Bakı Şəhər Bələdiyyə Teatrı bütün əmlakı ilə birlikdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 749 (Cild I); 2024, № 7, maddə 910; 2025, № 3, maddə 267, № 7, maddə 709) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "II. Təsərrüfathesablı qurumlar" bölməsinin "1.Teatr və konsert müəssisələri" hissəsinə aşağıdakı məzmunda 1.9-1-ci və 1.35-ci bəndlər əlavə edilsin:

"1.9-1. Bakı Şəhər Bələdiyyə Teatrı";

"1.35. "Yaşıl Teatr" Bakı Konsert Kompleksi".

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 281** **Bakı şəhəri, 9 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 951 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddə 612, № 7, maddə 911, № 9, maddə 1106, № 12 (II kitab), maddə 1460; 2025, № 12 (II kitab), maddə 1262) ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9.3-cü və 9.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"9.3. "Qırmızı kanal" buraxılış sistemi mallara dair sadələşdirilmiş bəyannamə verilməklə, onların kağız üzərində yazılı və ya elektron formalarda bəyan edilməsi üçün nəzərdə tutulur.

9.4. Fiziki şəxslər tərəfindən əl yükündə və (və ya) müşayiət olunan baqajda istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan, lakin yazılı formada bəyan edilməli olan mallar keçirildikdə gömrük orqanlarına bu Qaydaların 10 nömrəli əlavəsində göstərilmiş formada sadələşdirilmiş bəyannamə təqdim edilir.";

1.2. aşağıdakı məzmunda 9.4-1-ci bənd əlavə edilsin:

"9.4-1. Müşayiət olunmayan baqajda (Ümumdünya Poçt İttifaqının aktlarında nəzərdə tutulmuş sənədlərlə müşayiət olunan beynəlxalq poçt göndərişləri istisna olmaqla) keçirilən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara dair gömrük orqanlarına bu Qaydaların 12 nömrəli əlavəsində göstərilmiş formada sadələşdirilmiş bəyannamə təqdim olunur.";

1.3. 10 nömrəli əlavə yeni redaksiyada verilsin *(əlavə olunur)*;

1.4. 12 nömrəli əlavə əlavə edilsin *(əlavə olunur)*.

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı ilə təsdiq edilmiş "Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 285** **Bakı şəhəri, 9 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 960 (Cild I); 2024, №7, maddə 898; 2025, №12 (II kitab), maddə 1203; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 20 iyul tarixli 224 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"nın on üçüncü sətrinə "ağciyər" sözündən sonra ", kök hüceyrələri" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 282** **Bakı şəhəri, 9 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512, № 9, maddələr 845, 868, № 10, maddə 971, № 12 (II kitab), maddə 1261; 2026, № 1, maddə 80, № 2, maddə 178, № 4, maddə 383, № 5, maddələr 452, 466; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 15 iyul tarixli 216 nömrəli və 20 iyul tarixli 221 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2204 10 110 0, 2204 10 910 0, 2204 10 930 0, 2204 10 940 0, 2204 10 960 0, 2204 10 980 0, 2204 21 060 0, 2204 21 070 0, 2204 21 080 0, 2204 21 090 0, 2204 21 110 0, 2204 21 120 0, 2204 21 130 0, 2204 21 170 0, 2204 21 180 0, 2204 21 190 0, 2204 21 220 0, 2204 21 230 0, 2204 21 240 0, 2204 21 260 0, 2204 21 270 0, 2204 21 280 0, 2204 21 320 0, 2204 21 340 0, 2204 21 360 0, 2204 21 370 0, 2204 21 380 0, 2204 21 420 0, 2204 21 430 0, 2204 21 440 0, 2204 21 460 0, 2204 21 470 0, 2204 21 480 0, 2204 21 620 0, 2204 21 660 0, 2204 21 670 0, 2204 21 680 0, 2204 21 690 0, 2204 21 710 0, 2204 21 740 0, 2204 21 760 0, 2204 21 770 0, 2204 21 780 0, 2204 21 790 0, 2204 21 800 0, 2204 21 810 0, 2204 21 820 0, 2204 21 830 0, 2204 21 840 0, 2204 21 850 0, 2204 21 860 0, 2204 21 870 0, 2204 21 880 0, 2204 21 890 0, 2204 21 900 0, 2204 21 910 0, 2204 21 920 0, 2204 21 930 0, 2204 21 940 0, 2204 21 950 0, 2204 21 960 0, 2204 21 970 0, 2204 21 980 0, 2204 22 100 0, 2204 22 110 0, 2204 22 120 0, 2204 22 130 0, 2204 22 170 0, 2204 22 180 0, 2204 22 420 0, 2204 22 430 0, 2204 22 440 0, 2204 22 460 0, 2204 22 470 0, 2204 22 480 0, 2204 22 580 0, 2204 22 790 0, 2204 22 800 0, 2204 22 810 0, 2204 22 820 0, 2204 22 830 0, 2204 22 840 0, 2204 22 850 0, 2204 22 860 0, 2204 22 870 0, 2204 22 880 0, 2204 22 890 0, 2204 22 900 0, 2204 22 910 0, 2204 22 920 0, 2204 22 930 0, 2204 22 940 0, 2204 22 950 0, 2204 22 960 0, 2204 22 970 0, 2204 22 980 0, 2204 29 050 0, 2204 29 110 0, 2204 29 120 0, 2204 29 130 0, 2204 29 170 0, 2204 29 180 0, 2204 29 420 0, 2204 29 430 0, 2204 29 440 0, 2204 29 460 0, 2204 29 470 0, 2204 29 480 0, 2204 29 580 0, 2204 29 790 0, 2204 29 800 0, 2204 29 810 0, 2204 29 820 0, 2204 29 830 0, 2204 29 840 0, 2204 29 850 0, 2204 29 860 0, 2204 29 870 0, 2204 29 880 0, 2204 29 890 0, 2204 29 900 0, 2204 29 910 0, 2204 29 920 0, 2204 29 930 0, 2204 29 940 0, 2204 29 950 0, 2204 29 960 0, 2204 29 970 0, 2204 29 980 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütunlarına "1 litr, 1,4 ABŞ dolları" sözlərindən sonra "(31.12.2030-cu il tarixinədək 15%, lakin 1 litrinə 3,0 ABŞ dollarından az olmamaqla)" sözləri əlavə edilsin;

1.2. 2204 30 100 0 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "0" rəqəmi "0 (31.12.2030-cu il tarixinədək 15%, lakin 1 litrinə 3,0 ABŞ dollarından az olmamaqla)" sözləri ilə əvəz edilsin;

1.3. 2204 30 920 0, 2204 30 940 0, 2204 30 960 0, 2204 30 980 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütunlarında "15" rəqəmləri "15 (31.12.2030-cu il tarixinədək 15%, lakin 1 litrinə 3,0 ABŞ dollarından az olmamaqla)" sözləri ilə əvəz edilsin;

1.4. 2205 10 100 0, 2205 10 900 0, 2205 90 100 0, 2205 90 900 0, 2206 00 100 0, 2206 00 310 0, 2206 00 390 0, 2206 00 510 0, 2206 00 590 0, 2206 00 810 0, 2206 00 890 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütunlarına "1 litr, 1 ABŞ dolları" sözlərindən sonra "(31.12.2030-cu il tarixinədək 15%, lakin 1 litrinə 2,0 ABŞ dollarından az olmamaqla)"sözləri əlavə edilsin;

1.5. 2208 20 120 0, 2208 20 140 0, 2208 20 260 0, 2208 20 270 0, 2208 20 290 0, 2208 20 400 0, 2208 20 620 0, 2208 20 640 0, 2208 20 860 0, 2208 20 870 0, 2208 20 890 0, 2208 30 110 0, 2208 30 190 0, 2208 30 300 0, 2208 30 410 0, 2208 30 490 0, 2208 30 610 0, 2208 30 690 0, 2208 30 710 0, 2208 30 790 0, 2208 30 820 0, 2208 30 880 0, 2208 40 110 0, 2208 40 310 0, 2208 40 390 0, 2208 40 510 0, 2208 40 910 0, 2208 40 990 0, 2208 50 110 0, 2208 50 190 0, 2208 50 910 0, 2208 50 990 0, 2208 60 110 0, 2208 60 190 0, 2208 60 910 0, 2208 60 990 0, 2208 70 100 0, 2208 70 900 0, 2208 90 110 0, 2208 90 190 0, 2208 90 330 0, 2208 90 380 0, 2208 90 410 0, 2208 90 450 0, 2208 90 480 0, 2208 90 540 0, 2208 90 560 0, 2208 90 690 1, 2208 90 690 9, 2208 90 710 0, 2208 90 750 0, 2208 90 770 0, 2208 90 780 1, 2208 90 780 9, 2208 90 910 0, 2208 90 990 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütunlarına "1 litr, 2 ABŞ dolları" sözlərindən sonra "(31.12.2030-cu il tarixinədək 15%, lakin 1 litrinə 4,0 ABŞ dollarından az olmamaqla)" sözləri əlavə edilsin.

2. Bu Qərar dərc edildiyi gündən 90 (doxsan) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 322-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 yanvar tarixli 582 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 283** **Bakı şəhəri, 9 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 322-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 yanvar tarixli 582 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının forması, verilməsi qaydası, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 8 dekabr tarixli 434 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1538 (Cild I); 2024, № 7, maddə 925; 2025, № 6, maddə 592) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının forması, verilməsi qaydası, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası" üzrə:

1.2.1. 1.2-ci bəndə "eləcə də" sözlərindən sonra "enerji effektivliyi informasiya sistemi (bundan sonra - EEİS) vasitəsilə" sözləri əlavə edilsin;

1.2.2. 5-ci hissə üzrə:

1.2.2.1. 5.1-ci bəndə "formada" sözündən sonra "EEİS vasitəsilə" sözləri əlavə edilsin;

1.2.2.2. 5.6-cı bəndə "qədər" sözündən sonra "EEİS vasitəsilə" sözləri əlavə edilsin;

1.2.2.3. 5.7-ci bəndə "tərəfindən" sözündən sonra "EEİS vasitəsilə" sözləri əlavə edilsin;

1.2.2.4. 5.15-ci bənd üzrə:

1.2.2.4.1. birinci cümləyə "təşkilata" sözündən sonra "EEİS vasitəsilə" sözləri əlavə edilsin;

1.2.2.4.2. ikinci cümlədə "elektron və ya yazılı qaydada" sözləri "EEİS vasitəsilə" sözləri ilə əvəz edilsin.

2. "Enerji auditinin keçirilməsi, həmçinin enerji auditinin nəticəsinə dair hesabatın təqdim edilməsi qaydasının və formasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 8 dekabr tarixli 435 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1539 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

2.2. həmin Qərarla təsdiq edilmiş "Enerji auditinin keçirilməsi, həmçinin enerji auditinin nəticəsinə dair hesabatın təqdim edilməsi qaydası və forması"nın 3.2-ci bəndinə "siyahısı" sözündən sonra "enerji effektivliyi informasiya sisteminə (bundan sonra - EEİS) daxil edilən enerji istehlakçısına və illik enerji istehlakına dair məlumatlar (enerji istehlakçısı hüquqi şəxs olduqda adı, fiziki şəxs olduqda soyadı, adı, atasının adı, istehlakçı kodu, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, ünvanı, fəaliyyət sahəsi, illik enerji istehlakının miqdarı) və ya tikinti sahəsinə və onun mülkiyyətçisinə dair məlumatlar (qeyri-yaşayış binasının təyinatı, mərtəbələrin sayı, tikinti sahəsinin və ümumi sahəsinin ölçüləri, mülkiyyətçisi hüquqi şəxs olduqda adı, fiziki şəxs olduqda soyadı, adı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, ünvanı), habelə" sözləri, "edilən" sözündən sonra "və EEİS-ə daxil edilir" sözləri əlavə edilsin.

3. "Enerji idarəçisinə (menecerinə) dair tələblər, habelə onların attestasiyadan keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 8 dekabr tarixli 436 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1540 (Cild I); 2024, № 7, maddə 925) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

3.2. həmin Qərarla təsdiq edilmiş "Enerji idarəçisinə (menecerinə) dair tələblər, habelə onların attestasiyadan keçirilməsi Qaydası"nın 3-cü hissəsi üzrə:

3.2.1. 3.2-ci bəndin birinci cümləsinə "Nazirliyinin" sözündən sonra "(bundan sonra - Nazirlik)" sözləri əlavə edilsin;

3.2.2. aşağıdakı məzmunda 3.2-1-3.2-3-cü bəndlər əlavə edilsin:

"3.2-1. İşəgötürən komissiya üzvünün müəyyənləşdirilməsi üçün enerji effektivliyi informasiya sistemi (bundan sonra - EEİS) vasitəsilə Nazirliyə müraciət edir.

3.2-2. Nazirlik müraciət daxil olduğu gündən 3 (üç) iş günü ərzində komissiya üzvü qismində iştirak edəcək əməkdaş barədə məlumatları EEİS vasitəsilə işəgötürənə təqdim edir.

3.2-3. Attestasiyanın keçirilməsi ilə əlaqədar komissiya üzvləri və namizədə (namizədlərə) dair məlumatlar, attestasiyanın reqlamenti, attestasiyanın nəticəsi və vəzifəyə təyinat barədə məlumatlar işəgötürən tərəfindən EEİS-ə daxil edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**• PUBLİSİSTİK QEYDLƏR**

# QURUCU, YARADICI, SÜLHPƏRVƏR VƏ UZAQGÖRƏN LİDER



*Daha köhnə dünya düzəni işləmir.*

*Yenisi isə yaranmaqda, formalaşmaqdadır.*

*Ağrılı, acılı, qanlı proseslər gedir...*

* Ənənəvi dostlar düşmənə çevrilir;

* Keçmiş düşmənlər silaha əl atır;

* On illərlə işğalda qalan torpaqlar azad edilir!

* Xalqlar müstəmləkəçiliyin müasir formasına qarşı etiraz edərək ayağa qalxırlar;

* Əvvəlki düşmənçiliyə son qoyanlar sülh müqaviləsi imzalamağa hazırlaşırlar;

* Hərbi əməliyyatlar dünya iqtisadiyyatına güclü zərbələr vurur, enerji daşıyıcılarının və digər malların qiyməti artır;

* Mövcud yollarla quruda və suda yükdaşımaları mümkün olmur, ciddi maneə və əngəllər çıxılmaz vəziyyət yaradır;

* Ənənəvi marşrutlar işləmədiyindən yeniləri, daha təhlükəsiz yollar tələb olunur;

* Bütün bunlar azmış kimi, təbiətin yaratdığı fəsadlar - sellər, qasırğalar, zəlzələlər böyük insan tələfatına, ciddi itkilərə səbəb olur!

**Oğulsan belə bir dövrdə dövlətini təhlükələrdən qoru, xalqını əmin-aman və firavan yaşat, bu gün və gələcək üçün qurduğun planları dayanmadan icra et, nəhəng layihələrini durmadan gerçəkləşdir, yeni dünya düzənində özünə münasib yer qazan!**

*İcrası müşkül, həlli qeyri-mümkün görünən məsələlərdir.*

**Bu qədər problemi eyni vaxtda yalnız dahilər uğurla həll edə bilirlər!**

**Bir də seçilmiş, yeni tipli siyasi liderlər!**

❖ ❖ ❖

*"Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,*

*Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur".*

**M.Ə.Sabirin ən məşhur beytlərindəndir.**

*Azərbaycan ikinci müstəqilliyi dövründə ilk dəfə ötən əsrin doxsanıncı illərinin sonlarında ciddi şəkildə çalxalandı.*

**Dövlət başçılarının başlarını itirdiyi bir vaxtda Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən siyasi rəhbərliyə qayıdaraq ölkədə möhkəm və dönməz sabitlik yaratdı, dövlət müstəqilliyini əbədi etdi.**

*Növbəti çalxalanmanı isə erməni təxribatlarına cavab olaraq Azərbaycan özü yaratdı - 2020-ci ilin 27 sentyabrında əks-hücum əməliyyatı keçirməklə torpaqlarını işğaldan azad etməyə başladı!*

**Hadisələrin sonrakı gedişatı və baş verənlər açıq göstərdi ki, cənab İlham Əliyevin nəyi nə vaxt və necə etmək məharəti sayəsində atılan bütün addımlar zərgər dəqiqliyi ilə hesablanıbmış!**

**Nəticə isə möcüzəyə bərabər oldu!**

Bu gün dünyanın nəhəng, iqtisadi cəhətdən qüdrətli və ən müasir silahlara malik olan dövlətləri müharibə aparırlar!

Amma heç biri onu sona çatdıra bilmir.

Son 80 ildə isə Azərbaycanın II Qarabağ müharibəsində əldə etdiyi qələbəyə bənzər nəticə kimsə tərəfindən qazanılmayıb!

**44 gün ərzində düşməni diz çökdürərək ona kapitulyasiya aktını imzalatdıran Müzəffər Ali Baş Komandan İlham Əliyev 3 il sonra qeyri-adi hərbi əməliyyatlar keçirərək tam və qəti qələbəyə nail oldu!**

HƏM DƏ:

* XXI əsrin ən yeni müharibəsini apardı;

* Müharibələr tarixinin yeni səhifəsini açdı;

* Bu müharibədə ən yeni taktika və strategiya tətbiq etdi;

* Digər dövlətlərin də öyrənərək tətbiq etdiyi yeniliklər yaratdı;

* Ordumuz 44 gün ərzində daim hücum edərək hər gün bir və ya bir neçə yaşayış məntəqəsini işğaldan azad etdi;

* Özünü "məğlubedilməz xalq", "məğlubedilməz millət" adlandıran düşməni fərarilər yığnağına çevirdi;

* Şuşa kimi qala şəhər demək olar ki, yalın əllə, əsgər xəncəri və lopatkası ilə geri alındı;

* Lovğa düşmən Ağdam, Laçın və Kəlbəcər rayonlarını bir güllə belə atmadan, yalvararaq geri qaytardı!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev düşmənə təkcə hərb meydanında deyil, diplomatiya sahəsində və informasiya cəbhəsində də qalib gəldi!**

*Kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatın bir neçə şərtini yerinə yetirmək istəməyən düşməni daha sonra keçirilən hərbi əməliyyatlarla yetərincə cəzalandırdı, Azərbaycanın ərazi bütövlüyünü, dövlət suverenliyini və Konstitusiya əsaslarını "dəmir yumruq"la təmin etdi!*

**Daim Ermənistanın tərəfini saxlayan və qanunsuz erməni hərbi birləşmələrinin təminatçısına, müdafiəçisinə çevrilən Rusiya sülhməramlı kontingenti də ölkə ərazisindən çıxarıldı.**

*Bu gün Azərbaycan ərazisində bir nəfər belə separatçı və əcnəbi əsgər olmayan azsaylı ölkələrdəndir.*

6 ildir ki, müharibə bitib, "Böyük qayıdış"a dair dövlət proqramı uğurla yerinə yetirilir, keçmiş məcburi köçkünlər uzun illər həsrətini çəkdikləri doğma yurd-yuvalarına qayıdaraq yeni evlərində xoş güzəranlarını qururlar.

**Azərbaycan Prezidenti İlham Əliyev isə müharibədən əvvəl icrasına başladığı və bu gün də böyük uğurla davam etdirdiyi layihələrini uğurla həyata keçirməkdədir.**

❖ ❖ ❖

*Uzaqgörənlik, hadisələri qabaqlamaq, vaxtında zəruri addımlar atmaqla vacib işləri görmək...*

**Ulu Öndər Heydər Əliyevə xas olan bu keyfiyyətlər cənab İlham Əliyevin simasında öz yeni təcəssümünü tapmışdır!**

Daim "xalqın maraqlarının təminindən" dəm vuran AXC-Müsavat iqtidarı hakimiyyətdə olduğu müddətdə neft sazişləri ilə bağlı bu marağı təmin edən müqavilələr hazırlayaraq imzalaya bilmədi.

Öz fərdi maraqlarını təmin edən müqaviləyə bənzər nə isə hazırlayıb irəlicədən bonusunu da almışdılar...

Amma onu da qaytardılar...

*Əvəzində Azərbaycan iqtisadiyyatını ağlar günə salıb sonra vəzifələrini "dondararaq" qaçıb getdilər...*

**Müstəqil dövlətin iqtisadiyyatını sıfırdan qurmaq missiyası da Ulu Öndər Heydər Əliyevin üzərinə düşdü!**

*Ümummilli Liderimiz dayanmadan, gecə-gündüz bilmədən, yorulmadan çalışdı, Azərbaycan neftinin qeyri-ənənəvi marşrutla dünya bazarına çıxarılması üçün Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin çəkilməsinə nail oldu!*

* "Əsrin müqaviləsi" adlanan yeni layihə ilk dəfə Azərbaycanın öz neftini özü sataraq gəlirindən sərbəst bəhrələnməsinə imkan verdi!

* BTC dünyanın qabaqcıl dövlətlərinin maraqlarını Azərbaycanın maraqları ilə birləşməsinə şərait yaratdı!

* "Əsrin müqaviləsi" ölkə iqtisadiyyatı üçün lokomotivə çevrilərək onun böhrandan çıxmasına kömək göstərdi.

* BTC həm də ən üzünömürlü layihə olaraq bu gün də səmərəli fəaliyyət göstərir.

❖ ❖ ❖

**Cənab İlham Əliyevin reallaşdırdığı layihələr də belə faydalı və uzunömürlüdür.**

*Cənubi Qafqaz Boru Kəməri TANAP və TAP xətti üzrə genişləndirilərək "Cənubi qaz dəhlizi"nə çevrildi.*

Bu qaz dəhlizi yaradılanda kimsənin ağlına belə gəlməzdi ki, Rusiya ilə Ukrayna uzun sürən müharibə aparar, bu səbəbdən Avropa İttifaqı Rusiya qazının ixracına sanksiya qoyar və Azərbaycan qazına əşhədü-ehtiyac yaranar.

**Hazırda Azərbaycan qazının istehlakçılarının sayı 16-ya çatıb.**

**Bu göstərici üzrə - qaz kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına görə Azərbaycan dünyada birinci yerdədir!**

*Nəqliyyat dəhlizlərinin yaradılması baxımından da ölkəmiz öndədir!*

**Bu barədə cənab İlham Əliyevin maraqlı açıqlaması vardır:**

*"Biz artıq uzun müddətdir ki, dəhlizlərin yaradılmasının təşəbbüskarıyıq - enerji dəhlizlərindən başlayaraq, nəqliyyat dəhlizləri ilə davam edərək, hazırda isə artıq elektrik və fiberoptik dəhlizləri də əhatə etməklə. Buna görə də ölkəmizin potensialı möhkəmləndikcə, beynəlxalq əlaqələr inkişaf etdikcə, biz bir növ mövcud bağlantı konsepsiyasına yeni elementlər əlavə edirik".*

Dünyada gedən qarşıdurma və müharibələr yeni, daha təhlükəsiz və səmərəli dəhlizin formalaşmasını tələb edir.

**İlham Əliyevin uzaqgörənliyi sayəsində bir çox elementləri qabaqcadan formalaşdırılmış Orta dəhliz məhz belə marşrutdur.**

Çindən gələn yüklərin Mərkəzi Asiya-Xəzər dənizi-Azərbaycan-Gürcüstan-Türkiyədən keçməklə Avropaya ən qısa zamanda və ən təhlükəsiz şəkildə çatdırılmasını təmin edir.

Statistik göstəricilərə əsasən, 2024-cü ildə Orta dəhliz üzrə yükdaşımaların həcmi əvvəlki illə müqayisədə 62 faiz artaraq 4,5 milyon tona çatmışdır. Mövcud hədəflərə əsasən, 2027-ci ilədək Orta dəhliz üzrə illik yükdaşımaların həcminin 10 milyon tona, 2030-cu ilədək isə 11,4 milyon tona çatdırılması nəzərdə tutulur.

Uzunmüddətli perspektivdə isə dəhlizin illik yükgötürmə qabiliyyətinin 15 milyon tona çatacağı proqnozlaşdırılır.

❖ ❖ ❖

**İlham Əliyevin gördüyü işlər sayəsində Orta dəhliz həm də türk dünyasının birliyinin rəmzinə çevrilmişdir!**

*Qarabağ müharibəsində qazanılan zəfər Zəngəzur dəhlizinin açılmasına, türk dövlətlərini birləşdirən quru yolun uzun illər boyu qəsdən bağlanılaraq onların bir-birilərindən təcrid olunmasının aradan qaldırılmasına və bütövlükdə nəqliyyat dəhlizinin effektivliyinin daha da yüksəlməsinə səbəb olmuşdur.*

**8 avqust 2025-ci ildə Azərbaycanla Ermənistan arasında D.Trampın şahidliyi ilə ABŞ-nin paytaxtı Vaşinqtonda imzalanan sənədlər isə bu dəhlizin (TRIPP) tezliklə reallaşacağının qarantıdır.**

**İlham Əliyevin daha bir böyük xidməti isə Türk Dövlətləri Təşkilatının yenidən canlandırılaraq fəaliyyətinin aktiv fazaya daxil olması, bu dövlətlər arasında siyasi, iqtisadi, mədəni, hərbi sahədə əlaqə və əməkdaşlığın əsaslı şəkildə gücləndirilməsidir!**

*İndiyədək Azərbaycan Prezidentinin fəallığı və öncüllüyü sayəsində görülən işlər, qurulan əməkdaşlıqlar və bağlanan müqavilələr də bunu əyani şəkildə göstərir.*

Azərbaycanın yekdil səslə Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə tamhüquqlu üzv kimi iştiraka qəbul edilməsi deyilənlərin təsdiqidir.

BELƏ Kİ:

* 2025-ci il noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərində tamhüquqlu iştirakı ilə bağlı qərar qəbul edilib. Azərbaycanın bu prosesə fəal qoşulması nəticəsində əvvəllər "C5" adlanan əməkdaşlıq formatı faktiki olaraq "C6" formatına çevrilib, regional dialoq və strateji tərəfdaşlıq isə yeni məzmun və miqyas qazanıb.

* Belə bir format Cənubi Qafqazın və Mərkəzi Asiyanın vahid geoiqtisadi və geosiyasi məkanda birləşməsi deməkdir ki, bunun da təməlində Azərbaycanın ərsəyə gətirdiyi iqtisadi əməkdaşlıq reallıqları dayanır.

* Prezident İlham Əliyev son illər Mərkəzi Asiya ölkələrində 17 dəfə səfərdə olub. Bu müddət ərzində Mərkəzi Asiya dövlət başçıları Azərbaycana 26 dəfə səfər ediblər.

**Cənab İlham Əliyevin bu barədə açıqlamasına diqqət yetirək:**

*"Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətlərinə gəldikdə qeyd etmək lazımdır ki, son illərdə bu əlaqələr müttəfiqlik, strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında dinamik şəkildə inkişaf edib. Tarixi və mədəni yaxınlıq, ortaq mənəvi dəyərlər kimi mühüm amillər Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında mövcud əlaqələrin möhkəm təməlini təşkil edir.*

*Azərbaycan Mərkəzi Asiya ölkələri ilə siyasi dialoqun genişləndirilməsinə, iqtisadi əlaqələrin dərinləşdirilməsinə, nəqliyyat və kommunikasiya imkanlarının artırılmasına, həmçinin enerji və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir. Bu baxımdan Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşləri regional əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi və birgə təşəbbüslərin müzakirəsi üçün çox vacib nüfuzlu platformalardan biridir".*

**Prezidentimizin bu yaxınlarda Qırğızıstan və Özbəkistanda keçirdiyi səfərlər, orada aparılan danışıqlar və görüşlər, habelə imzalanan çoxsaylı sənədlər, perspektivə hesablanmış addımlar türk dövlətlərinin birgə fəaliyyətinin yeni dövrünün başlanmasından xəbər verir.**

Birlikdə diqqət yetirək:

* Azərbaycan Özbəkistan və Qırğızıstanla müttəfiqlik münasibətləri haqqında müqavilə imzalayıb.

* Azərbaycan və Özbəkistan arasında "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə" imzalanıb.

* Azərbaycanla Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə təmsil olunan bütün dövlətlər arasında strateji tərəfdaşlıq haqqında sənədlər imzalanıb.

*Bütün bu sənədlər həm Türk Dövlətləri Təşkilatının institusional dayaqlarını daha da möhkəmləndirir, həm region ölkələrinin qlobal geosiyasi təzyiqlərə qarşı vahid güc mərkəzi kimi çıxış etməsinə imkan yaradır, həm də Azərbaycan və Mərkəzi Asiyanın vahid geoiqtisadi və geosiyasi məkanda birləşməsinə töhfə verir.*

**Cənab İlham Əliyevin avqustun 21-də Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibəsində gələcək uğur və əməkdaşlığın əsaslarından bəhs edərək demişdir:**

*"Əməkdaşlığımız, xüsusən də nəqliyyat və logistika sahəsində qarşılıqlı fəaliyyətimiz böyük perspektivlər vəd edir. Azərbaycanın Cənubi Qafqazda, Özbəkistanın isə Mərkəzi Asiyada mövqeyi ölkələrimizi Şərqlə Qərbi birləşdirən mühüm strateji marşrutlarda təbii tərəfdaşlara çevirir. Bu baxımdan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin Orta dəhliz və TRIPP ilə inteqrasiyası bütün region üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq".*

❖ ❖ ❖

Heç də hər sərkərdə müharibəni ən uğurlu vaxtda başlamaqla ən qısa müddətdə başa çatdırmağı, ən az itki ilə ən yüksək nəticəyə nail olmağı bacarmır.

**İlham Əliyev bunu etdi!**

Heç bir qalib dövlət qarşısında diz çökdürərək məğlub etdiyi dövlətə sülh əlini uzadaraq onunla dərhal sülh müqaviləsi bağlamağa çalışmır.

**İlham Əliyev bunu bacardı!**

Heç də hər bir lider hər bir tərəfin maraqlarını təmin edən, dostluğa və əməkdaşlığa xidmət edən nəhəng layihələr hazırlayaraq onu reallaşdıra bilmir!

**İlham Əliyev bunu uğurla həyata keçirir!**

Heç də hər bir dövlət başçısı əməkdaşlıq etdiyi hər bir ölkə ilə bu qədər səmərəli, faydalı, qarşılıqlı hörmətə əsaslanan uzunömürlü əlaqələr yarada bilmir.

**İlham Əliyevin sayəsində Azərbaycanın əlaqə və əməkdaşlıq qurduğu dövlətlərin sayı ilbəil artır, münasibətlər yeni səviyyəyə yüksəlir, iqtisadi göstəricilər yaxşılaşır.**

Bunları təkcə biz demirik!

**ABŞ Prezidenti D.Trampın Azərbaycan Prezidentinin ünvanına müxtəlif vaxtlarda dediyi sözləri, fəaliyyətinə verdiyi qiyməti xatırlatmaq kifayətdir:**

*"Siz güclü və ağıllı insansınız".*

*"Siz böyük lidersiniz".*

*"Siz gözəl danışıq aparırsınız".*

**Belə Prezidentlə fəxr etməyə və qürur duymağa dəyər!**

**Bəxtiyar SADIQOV**

# BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Dördüncü İqlim Həftəsinin yüksəksəviyyəli açılış mərasimi olub

**Sentyabrın 9-da Bakıda Azərbaycanın evsahibliyi və Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Dördüncü İqlim Həftəsinin (CW4) yüksəksəviyyəli açılış mərasimi keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən xarici işlər naziri Ceyhun Bayramov iqlim dəyişikliyi reallığının artıq uzaq bir təhlükə olmadığını, proqnozların artıq bütün dünyada gözlə göründüyünü deyib: "Son bir neçə ildə ciddi dəyişikliklərin şahidi olmuşuq. Bunu bu gün sahillərimiz və sahilyanı



ərazilərimiz boyunca da görə bilərsiniz. İqlim dəyişikliyinin təsirləri milli iqtisadiyyatlara və qlobal maliyyə bazarlarına təzyiq göstərərək mövcud çətinlikləri daha da artırır".

Nazirin sözlərinə görə, bu proseslər iqtisadi şaxələndirməni və enerjidə davamlılığı milli təhlükəsizlik, iqtisadi sabitlik və uzunmüddətli möhkəmlik üçün daha da vacib edir.

Ceyhun Bayramov qlobal iqlim gündəliyinin irəlilədilməsində həlledici rolun davam etdirilməsinin vacibliyini vurğulayıb. O, qarşıdakı aylarda beynəlxalq liderliyi regionda atılacaq qətiyyətli addımlarla tamamlayacağımızı diqqətə çatdırıb.

Nazir qeyd edib ki, Azərbaycan beynəlxalq səviyyədə iqlim diplomatiyasının və əlaqəli sahələrin inkişafına fəal töhfə vermək öhdəliyinə sadiqdir.

"Azərbaycanın növbəti COP-a evsahibliyi etməyə hazırlaşan qardaş Türkiyəyə sarsılmaz dəstəyini bir daha ifadə etmək istəyirəm. COP29 və COP31 sədrliyi arasında əməkdaşlıq regional həmrəyliyin bariz nümunəsidir. Bu əməkdaşlıq iqlim gündəliyində davamlılığın təmin edilməsinə, iddialı iqlim maliyyələşdirilməsi mexanizmlərinin inkişafına və qlobal iqlim fəaliyyətinin ardıcıl şəkildə davam etdirilməsinə xidmət edir", - deyə o əlavə edib.

Tədbirə videomüraciət ünvanlayan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil tədbirin evsahibliyinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib.

"Mənim üçün Bakıda əldə olunmuş nəticələrə qayıtmaq öhdəliklərin tam icrası üçün bir istinad nöqtəsidir. Bu, danışıqlar zallarında verilən vədlərin yerlərdə real layihələrə, investisiyalara və insanlar üçün müdafiəyə çevrilib-çevrilməməsinin sınağıdır. Bu, son dərəcə vacibdir. İqlim əməkdaşlığının qlobal bir reallıq olduğunu bilirik", - deyə Saymon Stil bildirib.

Türkiyənin ekologiya, şəhərsalma və iqlim dəyişikliyi nazirinin müavini, COP31-in icraçı direktoru Fatma Varankın sözlərinə görə, böhran sərhədləri aşırsa, bizim də sərhədləri aşan iradə nümayiş etdirməyimiz lazımdır. İqlim ədaləti bizim yol göstəricimiz olaraq qalacaq və COP31 masasında həssas coğrafiyaların səsi olacağıq.

"Dünyaya yeni hədəf siyahılarından daha çox, mövcud hədəfləri kənd təsərrüfatında, sənayedə və şəhərlərdə real fəaliyyətə çevirəcək iradə lazımdır. Məhz buna görə COP31-i icraya yönəlmiş, gələcəyə baxan COP kimi müəyyənləşdirmişik", - deyə F.Varank əlavə edib.

Avstraliyanın COP31 danışıqları üzrə Prezidentliyində İcraçı direktor müavini David Higgins bu il COP-un geosiyasi gərginlik, enerji təhlükəsizliyi ilə bağlı narahatlıqlar və qlobal qeyri-müəyyənlik fonunda keçiriləcəyini vurğulayıb. Qeyd olunub ki, çoxtərəflilik uzun müddətdir bu səviyyədə sınaqla üzləşməyib. Aydındır ki, beynəlxalq əməkdaşlıq və çoxtərəflilik heç vaxt indiki qədər vacib olmayıb.

COP30-un icraçı direktoru Ana Toni deyib: "Biz icra və fəaliyyət onilliyinə qədəm qoymuşuq. Bakıda keçirilən BMT-nin İqlim Fəaliyyəti Həftəsi bizi icra prosesində bir addım da irəli aparacaq. Çünki biz regiondan və bu ölkədən çoxlu sayda sahibkarı və təşəbbüskarı bir araya gətirərək iqlim fəaliyyətinin əhəmiyyətini ön plana çəkirik. Hazırda keçirilən BMT-nin İqlim Həftəsi qlobal prosesləri bilavasitə icranı həyata keçirən regionlara, sektorlara və tərəflərə yaxınlaşdırmağa imkan verəcək. Bu, həmin arxitekturanın real fəaliyyətə necə yol açmalı olduğuna çox yaxşı bir nümunədir".

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinin (UNFCCC) Proqramların əlaqələndirilməsi üzrə baş direktoru Daniele Violetti Azərbaycanın hər zaman BMT-nin iqlim prosesinə mühüm töhfələr verdiyini deyib: "Səmimi qonaqpərvərliyə və dünyanı praktiki iqlim həlləri ətrafında bir araya gətirmək istiqamətində davamlı öhdəliyinə görə Azərbaycana minnətdarıq. İndiyədək aparılan müzakirələrdən bir mesaj aydın görünür: həllər mövcuddur. İndi bizim vəzifəmiz icra proseslərini sürətləndirmək, fəaliyyəti ləngidən amilləri müəyyənləşdirmək və həmin maneələri aradan qaldırmağın praktiki yollarını tapmaqdır.

Hökumətlər bunu təkbaşına həyata keçirə bilməz. Biznes, maliyyə sektoru, şəhərlər və vətəndaş cəmiyyəti bizim üçün əvəzolunmaz tərəfdaşlardır".

Rəsmi hissədən sonra bədii hissə nümayiş etdirilib.

# "Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" çərçivəsində qlobal iqlim liderliyinin inkişafı müzakirə olunub



**"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "COP31-dən sonrakı iqlim liderliyi: Tərəfdaşlıq vasitəsilə icranın təmin edilməsi" mövzusunda yüksəksəviyyəli "dəyirmi masa" keçirilib.**

AZƏRTAC xəbər verir ki, artıq ikinci ildir Bakı İqlim Fəaliyyəti Həftəsi ilə əməkdaşlıq edən mərkəz bu il də iqlim sahəsində beynəlxalq dialoqun və tərəfdaşlığın gücləndirilməsinə töhfə verir.

COP31-ə hazırlıq çərçivəsində keçirilən "dəyirmi masa"da son onillikdə qlobal iqlim liderliyinin inkişafı və Paris Sazişindən sonra əldə edilən təcrübə müzakirə olunub. İştirakçılar dəyişən geosiyasi şəraitin beynəlxalq iqlim əməkdaşlığına təsiri, iqlim öhdəliklərinin konkret fəaliyyətə çevrilməsi və yeni tərəfdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıblar.

Tədbirin açılış sessiyasında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike-Frayberqa, COP29-un prezidenti, Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev və Türkiyə Böyük Millət Məclisinin Ətraf mühit komitəsinin sədri Mehmet Qalib Ensarioğlu çıxış ediblər.

Panel müzakirəsində isə COP29-un yüksəksəviyyəli iqlim çempionu, Milli Məclisin deputatı Nigar Arpadarai, COP31 İqlim üzrə Yüksək Səviyyəli Çempionlarının baş müşaviri Kristian Mensah, "Fortescue" şirkətinin İdarə Heyətinin üzvü, "ExxonMobil"in sabiq vitse-prezidenti və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvü Cin Baderşnayder, Nizami Gəncəvi Beynəlxalq Mərkəzin həmsədri, Dünya Bankının sabiq vitse-prezidenti İsmail Serageldin, BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Dmitri Şlapaçenko, Bosniya və Herseqovinanın BMT-dəki daimi nümayəndəsi, ölkənin sabiq Baş naziri Zlatko Laqumdziya, Millətlər Birliyinin sabiq Baş katibi, Böyük Britaniya Lordlar Palatasının üzvü Patrisia Skotland, Özbəkistanda Dayanıqlı İnkişaf Mərkəzinin rəhbəri Saida Safayeva, "Baker Hughes" şirkətinin Avropa və MDB üzrə vitse-prezidenti Yelena Akoltseva, Ərəb Liqasının sabiq Baş katibi və Misirin sabiq xarici işlər naziri Əmr Musa, Belçikanın sabiq Baş naziri İv Leterm, eləcə də COP29-un Gənclər üzrə İqlim Çempionu Leyla Həsənova iştirak ediblər.

Panel zamanı geosiyasi dəyişikliklərin beynəlxalq iqlim əməkdaşlığına təsiri, enerji təhlükəsizliyi, iqtisadi rəqabətlilik, səhiyyə, ərzaq sistemləri, texnologiya və dayanıqlı inkişaf məsələləri müzakirə olunub. Eyni zamanda hökumətlər, beynəlxalq təşkilatlar, maliyyə institutları, biznes və vətəndaş cəmiyyəti arasında əməkdaşlığın gücləndirilməsi, iqlim öhdəliklərinin konkret nəticələrə çevrilməsi və COP31-ə gedən yolda icranın sürətləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

# İqlim maliyyəsinin səfərbər edilməsi mövzusunda "dəyirmi masa" keçirilib

**"Bakı İqlim Fəaliyyəti Həftəsi 2026" çərçivəsində "Sülh, humanitar yardım və bərpa üçün dövlət və özəl sektorun iqlim maliyyəsinin səfərbər edilməsi" adlı "dəyirmi masa" keçirilib.**



AZƏRTAC xəbər verir ki, "dəyirmi masa"da çıxış edən Prezidentin iqlim məsələləri üzrə nümayəndəsi və COP29-un prezidenti Muxtar Babayev əsas prioritetin beynəlxalq öhdəlikləri praktik və ölkələrin özlərinin rəhbərlik etdiyi fəaliyyətə çevirmək olduğunu vurğulayıb. Bildirib ki, iqlim dəyişikliyi artıq kövrəklik, münaqişə, məcburi köçkünlük və humanitar ehtiyaclarla üzləşən ölkələr, xüsusilə də ən az inkişaf etmiş ölkələr və kiçik ada dövlətləri üçün ciddi nəticələr doğurur. Bu, həssas icmalara, dolanışıq mənbələrinə, ərzaq və su təhlükəsizliyinə, inkişafa və uzunmüddətli sabitliyə əlavə təzyiq yaradır.

Xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev çıxışında iqlim dəyişikliyinin artıq sülh və təhlükəsizlik üçün ciddi təhdidə çevrildiyini bəyan edib. Bildirib ki, quraqlıqlar, ekstremal hava hadisələri və dəniz səviyyəsinin yüksəlməsi də daxil olmaqla, iqlimlə bağlı fəlakətlərin tezliyinin və intensivliyinin artması, xüsusilə münaqişələrə meyilli regionlarda yerləşən ölkələr üçün ağır nəticələr doğurur.

Maldivin İqlim Dəyişikliyi, Ətraf Mühit və Energetika Nazirliyinin baş direktoru Amjad Abdulla iqlim dayanıqlılığının sabitliyə və davamlılığın təmin edilməsinə qoyulan investisiya olduğunu vurğulayıb.

Yaşıl İqlim Fondunun nümayəndəsi Maika Nova Yudha isə dünyanın ən böyük iqlim fondu olan Yaşıl İqlim Fondunun (GCF) inkişaf etməkdə olan ölkələrdə iqlim dəyişmələrinin təsirlərinin azaldılması və uyğunlaşma tədbirlərinin həyata keçirilməsi üçün maliyyə vəsaitlərinin səfərbər edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, fond xüsusilə iqlim təsirlərinə həssas ölkələrə dəstək göstərir. Bildirib ki, bu günədək fond inkişaf etməkdə olan ölkələrə 20 milyard ABŞ dollarından çox vəsait ayırmağı öhdəsinə götürüb.

"Dəyirmi masa" müzakirələrlə davam edib.

# Bakıdan dünyaya növbəti iqlim çağırışı

**Bakı Xəzərin sahilində yerləşən bir şəhər statusundan çıxaraq, iqlim dəyişmələrinin gətirdiyi suallara cavab axtarılan, gələcəyin necə olacağı barədə düşüncələrin bir araya gəldiyi məkan kimi yenə dünyanın diqqət mərkəzindədir. Bu baxımdan hazırda davam edən "Bakı İqlim Fəaliyyəti Həftəsi 2026"ya, sadəcə, növbəti beynəlxalq tədbir demək olmaz. O, iqlimlə bağlı fikirlərin konkret addımlara çevrilməsi üçün yaranan mühüm imkanlardan biridir.**

Hər kəsin gözü qabağında gündəngünə iqlim dəyişir. Və bunu uzaq gələcəyin daha böyük problemi kimi təsəvvür etmək elə də çətin deyil. Daha isti aylar, tez-tez dəyişən hava şəraiti, meşələrə, kənd təsərrüfatına və şəhərlərə dəyən ekoloji ziyan bizə bir həqiqəti diktə edir: bu, təbiətlə münasibətdə etdiyimiz səhvlərin əks-sədası və nəticəsidir. Bəlkə də iqlim məsələsinin ən çətin tərəfi də elə budur. Təbiətin bizə göndərdiyi siqnallar çox vaxt səssizdir. Bir gölün suyunun azalması, torpağın quruması, ağacların əvvəlkindən tez çiçəkləməsi və ya havanın bir neçə dərəcə dəyişməsi ilk baxışda kiçik görünə bilər. Amma bu kiçik dəyişikliklər bir-birinin üstünə yığılanda bütöv mənzərə dəyişir.

Şəhərimizdə keçirilən beynəlxalq tədbirin əhəmiyyəti də elə bundadır. İqlim məsələsi təbii ki, əsasən təbiətin qorunmasını özündə ehtiva edir. Bununla belə enerjidən tutmuş nəqliyyata, kənd təsərrüfatından şəhər həyatına qədər bir çox sahələr mövzu ilə birbaşa bağlıdır. Bu sahələrdə indi atılan addımlar sabah necə bir mühitdə yaşayacağımızı müəyyənləşdirir. Ona görə də iqlim dəyişmələrinə qarşı mübarizəni uzaq gələcəyə saxlamaq olmaz, o, bu günün işidir.

Azərbaycan üçün bu mövzu xüsusi məna daşıyır. Su ehtiyatlarının qorunması, enerji keçidi, bərpaolunan enerji mənbələrinin inkişafı və daha dayanıqlı şəhərlərin qurulması indinin məsələsidir. Bakı isə bütün bunların fonunda maraqlı bir məkana çevrilir. Bir tərəfdə əsrlər boyu neft sənayesi ilə tanınan şəhər, digər tərəfdə daha təmiz və dayanıqlı gələcəyə keçid axtarışları. Sanki şəhərin özü də dəyişən dünyanın hekayəsini danışır. Enerji ilə böyüyən bir şəhər indi enerjinin gələcəyini müzakirə edir.

Amma iqlim fəaliyyətinin ən vacib sözü bəlkə də "fəaliyyət"dir. Çünki iqlimlə bağlı gözəl fikirlər, böyük konfranslar və verilən vədlər yalnız real addımlara çevrildikdə məna qazanır. Daha az tullantı, daha səmərəli enerji, daha "ağıllı şəhər"lər, daha qənaətli su istifadəsi və təbiətə daha məsuliyyətli münasibət məhz belə konkret addımlardan başlayır. Bu gün Bakıda səslənən fikirlər sabahın şəhərlərində, istehsal müəssisələrində, enerji sistemlərində və gündəlik həyatımızda öz əksini tapa bilər. Ona görə də bəhs etdiyimiz beynəlxalq tədbiri gələcəklə bağlı söhbətin növbəti dayanacağı kimi qiymətləndirməliyik. Bu söhbətin dəyəri isə onun real həyata toxunduğu yerdə başlayır.

"Bakı İqlim Fəaliyyəti Həftəsi"ndə diqqət bir neçə əsas istiqamətə yönəlib. Bu, "yaşıl enerji"yə keçid, təmiz texnologiyaların tətbiqi, şəhərlərin iqlim dəyişmələrinə uyğunlaşdırılması və dayanıqlı kənd təsərrüfatını təmin etməkdir. Burada həmçinin biznesin "yaşıl transformasiya"dakı rolu, iqlim maliyyəsi və emissiyaların azaldılması üçün yeni həllər də diqqət mərkəzindədir. Bütün bu mövzuların arxasında isə eyni sual dayanır: daha isti, daha quraq və daha dəyişkən bir dünyada həyatımızı necə daha təhlükəsiz və dayanıqlı edə bilərik? Sualın cavabı Bakı Konqres Mərkəzində keçirilən panel müzakirələrində də axtarılır.

Xəzər dənizi ilə bağlı paneldə söhbət artıq gözümüzün qarşısında dəyişən bir coğrafiyadan gedir. Su səviyyəsindəki dəyişikliklərin sahilyanı ekosistemlərə, şəhərlərə, infrastruktura və iqtisadi fəaliyyətə təsiri müzakirə olunub. Xəzərin gələcəyinə dair müxtəlif ssenarilər fonunda əsas məsələ bu dəyişikliklərə necə hazırlaşmaq və sahilyanı əraziləri necə qorumaqdır.

Kənd təsərrüfatı da iqlim gündəliyinin əsas mövzularındandır. Müzakirələrdə quraqlıq, yağıntıların dəyişməsi və ekstremal hava hadisələrinin fermerlərə təsiri önə çıxıb. Burada fikir sadədir: iqlim dəyişirsə, kənd təsərrüfatı da yenilənməlidir. Çünki daha çevik subsidiya mexanizmləri, dayanıqlı istehsal və yeni uyğunlaşma yolları zərurətdir.

Digər diqqətçəkən mövzulardan biri süni intellektin erkən xəbərdarlıq sistemlərində istifadəsidir. Fırtına, sel, daşqın və digər təhlükələri daha əvvəl müəyyən etmək üçün süni intellekt əsaslı hava proqnozu modellərinin imkanları müzakirə olunub. Texnologiyanın burada məqsədi daha dəqiq proqnoz verməklə bərabər təhlükə gəlməmişdən əvvəl insanlara və infrastruktura hazırlaşmaq üçün vaxt qazandırmaqdır.

İqlim maliyyəsi də diqqətdən kənarda qalmayıb. Belə ki, karbon emissiyalarının azaldılmasına yönələn layihələrə investisiya cəlb etmək, "yaşıl texnologiya"ların və dayanıqlı infrastrukturun maliyyələşməsini artırmaq imkanları müzakirə edilib. Deməli, iqlim fəaliyyəti yalnız ekoloji məsələ olmaqla bitmir. Onun arxasında böyük bir maliyyə və investisiya gündəliyi dayanır.

Bütün bu müzakirələrin kəsişdiyi əsas fikir birdir: iqlim dəyişmələrinə qarşı addımlar bu gündən atılmalıdır, sabah gec olar. Söhbət enerji, su, kənd təsərrüfatı, şəhərlər və iqtisadiyyatla bağlı verdiyimiz qərarların sabah hansı dünyanı yaradacağından gedir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# ***BCAW2026:*** Su mərkəzli iqlim fəaliyyətinə dair müzakirələr aparılıb



**"Bakı İqlim Fəaliyyətləri Həftəsi 2026" (BCAW2026) çərçivəsində "İqlim üçün su fəaliyyəti üzrə Bakı Dialoqu - Öhdəliklərdən icraya doğru: Su mərkəzli iqlim fəaliyyətinin COP31-ə doğru irəliləməsi" adlı "dəyirmi masa" keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi və COP29-un prezidenti Muxtar Babayev iqlim dəyişikliyinin su ehtiyatlarının idarə olunmasını daha da çətinləşdirdiyini və təxirəsalınmaz etdiyini qeyd edib. "Quraqlıqlar daha uzun sürür, şiddətli yağışlar və daşqınlar kəskinləşir, su ehtiyatlarının əlçatanlığı isə daha az proqnozlaşdırılan həddə çatır. Eyni zamanda kənd təsərrüfatında, şəhərlərdə, sənaye və energetika sistemlərində suya olan tələbat artır", - deyə M.Babayev əlavə edib.

BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) icraçı katibinin müavini Dmitri Mariyasin 2024-cü ildən bəri su gündəliyinin daha da böyük əhəmiyyət kəsb etməyə başladığını vurğulayıb. O, su olmadan dayanıqlı gələcək qurmağın mümkün olmadığını qeyd edib. "İqlim fəaliyyəti üçün su" təşəbbüsünü son dərəcə zəruri bir platforma adlandıran Dmitri Mariyasin bunun dünyada ehtiyac duyulan alyans modeli olduğunu deyib.

BMT-nin Ətraf Mühit Proqramının Şirin Su Ekosistemləri və Su-Bataqlıq Əraziləri Bölməsi Vivek Şah Bakı Dialoqunun COP-dan COP-a keçid üzrə tətbiq və icra mexanizmi kimi mövqeləndirildiyini bildirib. O, təşəbbüsün əsas məqsədinin COP31-ə qədər olan dövrdə beynəlxalq ictimaiyyət və tərəfdaşlar üçün su və iqlim gündəliyi üzrə ortaq prioritetlərin müəyyənləşdirilməsinə töhfə vermək olduğunu diqqətə çatdırıb.

"Dəyirmi masa" işini müzakirələrlə davam etdirib.

# Madriddə MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin açılışı olub













**Madriddəki Pons Fondunda MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin açılış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva, İspaniyada akkreditə olunmuş diplomatik korpusun üzvləri, incəsənət nümayəndələri və yerli ictimaiyyətin təmsilçiləri iştirak ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyevanın ideya müəllifliyi ilə reallaşan MAMA "Ana Təbiət" beynəlxalq incəsənət sərgisi müxtəlif ölkələri və mədəniyyətləri təmsil edən rəssamları bir araya gətirərək insanlarla təbiət arasındakı əlaqənin, eləcə də ətraf mühitin qorunmasının vacibliyini diqqətə çatdırır.

Layihə ilk dəfə 2024-cü ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Bakıda, Heydər Əliyev Mərkəzində təqdim olunub. Sərgi sonradan beynəlxalq miqyas qazanaraq Manama, Roma, London, Tbilisi, Berlin, Tirana, Cenevrə və Riqada nümayiş etdirilib.

Bu dəfə isə sərgi Heydər Əliyev Fondunun və Azərbaycanın İspaniyadakı səfirliyinin birgə təşkilatçılığı ilə Madriddə təqdim olunur.

Açılış mərasimində çıxış edən Azərbaycanın İspaniyadakı səfiri Ramiz Həsənov MAMA "Ana təbiət" layihəsinin incəsənət və bəşəriyyət arasındakı dərin əlaqəni araşdıran beynəlxalq bədii təşəbbüs olduğunu bildirib. Layihənin müasir dövrün ekoloji çağırışlarına diqqət çəkdiyi qeyd olunub. Səfir layihənin ideya müəllifi Leyla Əliyevaya sərginin Madrid şəhərində keçirilməsinə görə təşəkkürünü bildirib, ekspozisiyanın yalnız incəsənətə marağın artırılmasına deyil, həm də ziyarətçilərdə ətraf mühitə qarşı daha çox məsuliyyət və qayğı hissinin formalaşmasına töhfə verəcəyinə ümidvar olduğunu qeyd edib.

Sonra çıxış edən İspaniya Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyinin Şimali Amerika, Şərqi Avropa, Asiya və Sakit Okean Baş idarəsinin rəisi Lui Fonseka Sançez ölkəsinin incəsənətin, yaradıcılığın və mədəniyyətin diyarı olduğunu bildirib. Qeyd edib ki, məhz bu güc sayəsində Azərbaycan kimi tərəfdaşlarla dialoq və əməkdaşlıq üçün yeni imkanlar açılır. İspaniya həm də Avropada ən geniş qorunan təbiət ərazilərinə malik ölkələrdən biridir. Bu ərazilər minlərlə ziyarətçi üçün əlçatandır və bu da ekosistemlərin, biomüxtəlifliyin qorunmasının əhəmiyyətini dərk edən bir cəmiyyətin formalaşdığını göstərir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyeva çıxışında MAMA "Ana təbiət" beynəlxalq layihəsinin əhəmiyyətindən danışıb. Bu sərginin ilk dəfə COP29 çərçivəsində Bakıda nümayiş etdirildiyini xatırladan Leyla Əliyeva deyib ki, ekspozisiya daha sonra dünyanın müxtəlif ölkələrində təşkil olunaraq təbiət, ətraf mühit və ümumi gələcəyimizlə bağlı mühüm mesajı özündə daşıyıb.

"Təbiət bizim anamızdır. O, bizə torpaq, su və hava bəxş edir. Lakin bütün bunlara baxmayaraq, biz insanlar təbiətin bəxş etdiyi bu nemətlərə zərər verməkdə davam edirik. Bu sərgi daha yaxşı gələcəyə doğru atılan növbəti addımdır", - deyə fondun vitse-prezidenti əlavə edib.

Qeyd edək ki, sərgi sentyabrın 9-dan 18-dək ziyarətçilər üçün açıq olacaq.

Ekspozisiyada Azərbaycan, İspaniya, İtaliya, Latviya, Ukrayna, Gürcüstan, Birləşmiş Krallıq, Almaniya və digər ölkələrdən olan tanınmış müasir rəssamların əsərləri sərgilənir.

# Dünya Bankının regional direktoru Azərbaycanın əldə etdiyi sosial-iqtisadi nailiyyətləri yüksək qiymətləndirib

**Sentyabrın 9-da maliyyə naziri Sahil Babayev Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Roland Prays və bankın Azərbaycan üzrə yeni ölkə meneceri Saşa Bakesin təmsil olunduğu nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzunmüddətli və strateji tərəfdaşlığın mövcud vəziyyəti və perspektivləri nəzərdən keçirilib, birgə icra olunan layihələr, dövlət maliyyəsinin idarə edilməsi sahəsində aparılan islahatlar, eləcə də əməkdaşlığın genişləndirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Sahil Babayev Dünya Bankının Azərbaycanın inkişaf prioritetlərinə və islahat gündəliyinə göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirərək uzunmüddətli tərəfdaşlığın ölkənin sosial-iqtisadi inkişafına, institusional potensialının gücləndirilməsinə və müxtəlif sahələrdə aparılan islahatların dəstəklənməsinə mühüm töhfə verdiyini bildirib.

Qeyd olunub ki, Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlıq infrastruktur, enerji, nəqliyyat, kənd təsərrüfatı, su idarəçiliyi, məşğulluq və institusional islahatlar daxil olmaqla, geniş istiqamətləri əhatə edir. Belə ki, ölkəmizin Dünya Bankına üzv olduğu dövrdən etibarən tərəfdaşlıq çərçivəsində 53 layihə üzrə ümumilikdə təxminən 4,9 milyard ABŞ dolları həcmində maliyyə vəsaiti ayrılıb.

Eyni zamanda ölkəmizin beynəlxalq inkişaf gündəliyində artan roluna diqqət çəkən maliyyə naziri Azərbaycanın yuxarı ortagəlirli ölkə statusu əldə etdikdən sonra donor kimi beynəlxalq inkişaf təşəbbüslərinə dəstəyini artırdığını bildirib.

Öz növbəsində xanım R.Prays Azərbaycan ilə Dünya Bankı arasında formalaşmış uzunmüddətli əməkdaşlığın əhəmiyyətini qeyd edərək, ölkəmizin son dövrlərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətləri və həyata keçirdiyi islahatları yüksək qiymətləndirib. O, Dünya Bankının Azərbaycanın inkişaf və islahat gündəliyinə dəstəyini davam etdirməyə, həmçinin qarşılıqlı əməkdaşlığı yeni istiqamətlər üzrə genişləndirməyə hazır olduğunu deyib.

Sahil Babayev Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri vəzifəsinə təyin olunması münasibətilə Saşa Bakesi təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Nazir yeni ölkə menecerinin Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Sonda tərəflər qarşılıqlı maraq doğuran iqtisadi və maliyyə məsələləri ətrafında geniş fikir mübadiləsi aparıblar.

# Dövlət Gömrük Komitəsinin sədri Samux şəhərində vətəndaşları qəbul edib



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbirlər görürlər.**

Sentyabrın 9-da Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov Samux şəhərində - Samux və Göygöl rayonlarından, eləcə də Gəncə və Mingəçevir şəhərlərindən olan vətəndaşları qəbul edib.

DGK sədri qəbuldan öncə Samux şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Samux və Göygöl rayonlarının, eləcə də Gəncə və Mingəçevir şəhərlərinin sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

*"Azərbaycan"*

# Aİ Azərbaycanı öz təhlükəsizliyinin əsas aktorlarından biri kimi qəbul edir

**Azərbaycan Cənubi Qafqazın aparıcı gücü olmaqla yanaşı, Avrasiya məkanının da mühüm təhlükəsizlik və əməkdaşlıq mərkəzinə çevrilib. Bu reallıq fonunda ölkəmizin beynəlxalq tərəfdaşları, o cümlədən Avropa İttifaqı və qitənin aparıcı dövlətləri Bakı ilə münasibətləri yeni müstəviyə qaldırmağa xüsusi önəm verirlər. Regionda yaranmış yeni reallıqlar, qlobal enerji bazarlarındakı dəyişiklik və beynəlxalq nəqliyyat marşrutlarının yenidən qurulması Bakı ilə Brüssel arasındakı münasibətləri daha sistemli və genişmiqyaslı müstəviyə çıxarıb. Tərəflər arasında qurulan strateji tərəfdaşlıq modeli təkcə siyasi bəyanatlarla və çərçivə sənədləri ilə məhdudlaşmır, real iqtisadi, geostrateji və təhlükəsizlik ehtiyaclarına əsaslanır.**

Müasir dövrdə Azərbaycanın Avropa üçün əhəmiyyəti zəngin karbohidrogen ehtiyatları ilə yanaşı, həm də ölkəmizin Şərqlə Qərb, Şimalla Cənub arasında etibarlı tranzit və logistika mərkəzi kimi çıxış etməsindən qaynaqlanır. Avropa əvvəllər Azərbaycana enerji mənbəyi kimi baxırdısa, bu gün ölkəmizi özünün enerji və nəqliyyat təhlükəsizliyinin əsas təminatçılarından biri kimi dəyərləndirir. Avropa İttifaqının Cənubi Qafqaz üzrə ümumi ticarət dövriyyəsinin təxminən 70 faizinin məhz Azərbaycanın payına düşməsi ölkəmizin regionun əsas iqtisadi lokomotivi olduğunu aydın şəkildə nümayiş etdirir.

Strateji yaxınlaşmanın və Bakıya artan diqqətin bariz göstəricisi olaraq Avropa İttifaqının ali rəhbərliyinin ölkəmizə intensiv səfərlərini qeyd etmək olar. 2026-cı ilin martında Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın, may ayında Aİ-nin Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın və iyulda Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfərləri rəsmi Bakının Brüsselin xarici siyasət gündəmində nə dərəcədə önəmli aktor olmasından xəbər verir. Qitənin ali rəhbərliyinin Prezident İlham Əliyev ilə keçirdiyi konstruktiv görüşlər Brüsselin Cənubi Qafqazda sabitlik, inkişaf və təhlükəsizliyin mərkəzi kimi məhz Azərbaycanı qəbul etdiyini göstərir. Təsadüfi deyil ki, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen Azərbaycanı Avropa İttifaqının strateji tərəfdaşı adlandıraraq, dünyada az sayda ölkənin Azərbaycan qədər regional əməkdaşlığın və sabitliyin inkişafına töhfə vermək imkanına malik olduğunu xüsusi vurğulamışdır.

Paralel olaraq son aylarda Litvanın Baş naziri İnqa Ruqiniene, Latviya Prezidenti Edqars Rinkeviçs, Çexiyanın Baş naziri Andrey Babiş və İtaliyanın Baş naziri Ciorcia Meloninin ölkəmizə ardıcıl səfərləri də Azərbaycanın artan nüfuzundan və Avropa ölkələrinin Bakı ilə tərəfdaşlığa önəm verməsindən xəbər verir. Aİ rəhbərliyi ilə yanaşı, qitənin aparıcı dövlətlərinin rəhbərlərinin Bakıya səfərləri münasibətlərin dinamik xarakter aldığını göstərir.

Azərbaycan Avropa İttifaqına üzv olan 27 dövlətdən 10-dan çoxu ilə strateji tərəfdaşlıq haqqında rəsmi sənədlər imzalamaqla qitənin iqtisadi və siyasi dayanıqlılığında həlledici mövqe qazanıb. Əməkdaşlığın dərinləşməsində enerji amili yenə də aparıcı mövqeyini qoruyur. 2022-ci il iyulun 18-də Bakıda imzalanmış "Avropa Komissiyası ilə Azərbaycan Respublikası arasında Enerji Sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" iki tərəf arasında uzunmüddətli strateji müttəfiqliyin təməlini daha da möhkəmləndirib. "Cənub qaz dəhlizi" vasitəsilə Xəzər resurslarının Avropa bazarlarına çatdırılması qitənin enerji xəritəsini köklü şəkildə dəyişib. Hazırda 10-u Aİ üzvü olmaqla, ümumilikdə 16 ölkə Azərbaycanın təbii qazını idxal edir və 2027-ci ilə qədər Avropaya qaz tədarükünün 20 milyard kubmetrə çatdırılması hədəflənir.

Bununla yanaşı, Azərbaycan qlobal iqlim probleminin həllində, "yaşıl keçid" prosesində də Avropa üçün öncül tərəfdaş kimi çıxış edir. Avropa İttifaqı Xəzər regionundan Qara dənizin dibi ilə Rumıniya və Macarıstana qədər uzanacaq "yaşıl enerji" kabeli layihəsinə böyük maraq göstərir ki, bu da Bakını Avropanın elektrik enerjisi şəbəkəsinə birbaşa bağlayır.

Azərbaycanın coğrafi mövqeyi, həyata keçirdiyi infrastruktur layihələri və irəli sürdüyü bağlantı tərəfdaşlığı təşəbbüsləri mövcud geosiyasi qarşıdurmalar fonunda ölkəmizi Avrasiya məkanının ən mühüm bağlantı və logistika mərkəzinə çevirib. Cənubi Qafqazın coğrafi üstünlüklərini real iqtisadi və nəqliyyat imkanlarına çevirən Azərbaycanın təşəbbüsü ilə inkişaf etdirilən Orta dəhliz Avropa, Qara dəniz, Xəzər və Mərkəzi Asiya regionlarını vahid zəncirdə birləşdirən strateji arteriya rolunu oynayır. Ənənəvi daşıma marşrutlarının təhlükəsizlik riskləri ilə üzləşdiyi dövrdə Azərbaycan üzərindən keçən təhlükəsiz, şaxələndirilmiş və dayanıqlı dəhliz bütövlükdə qitələrarası yükdaşımaların fasiləsizliyinə zəmanət verir.

Xüsusilə Çinlə strateji tərəfdaşlığın dərinləşməsi, Mərkəzi Asiya dövlətləri ilə münasibətlərin tamamilə yeni müstəviyə keçməsi və Bakının beynəlxalq investisiya dialoqlarına öncülük etməsi Orta dəhlizin buraxılış qabiliyyətini və tranzit cəlbediciliyini dəfələrlə artırıb. Dəyişən iqtisadi vəziyyəti vaxtında qiymətləndirən ölkəmiz daxili resursları hesabına nəqliyyat infrastrukturuna, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsinə, dəniz və dəmir yolu şəbəkələrinin modernləşdirilməsinə ardıcıl investisiyalar yatırır. Bu səbəbdən Avropa rəsmilərinin Cənubi Qafqazı strateji bağlantı qovşağı, Azərbaycanı isə nəhəng iqtisadi və logistik layihələrin idarəetmə mərkəzi kimi qəbul etməsi təsadüfi olmayıb, dövlətimizin müstəqil, çoxşaxəli və balanslaşdırılmış xarici siyasətinin qanunauyğun nəticəsidir.

Azərbaycan ilə Avropa İttifaqı arasında formalaşan tərəfdaşlıq qarşılıqlı maraqlara və bərabərhüquqlu dialoqa əsaslanan unikal əməkdaşlıq modelidir. Azərbaycan bu gün Avropa qitəsinin enerji təhlükəsizliyinin şaxələndirilməsində, Orta dəhliz kimi qlobal nəqliyyat-logistika arteriyalarının fasiləsiz fəaliyyətində, "yaşıl enerji" bağlantılarının reallaşdırılmasında əvəzolunmaz rol oynayır. Avropa İttifaqı və qitənin aparıcı dövlətləri ilə qurulan sistemli və strateji münasibətlər Azərbaycanın qlobal geosiyasi çəkisini daha da artırır, ölkəmizin beynəlxalq münasibətlər sistemindəki mövqeyini möhkəmləndirir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Orta dəhlizin aparıcı gücü

**Son illər dünyada ticarət yollarının dəyişməsi və yeni iqtisadi reallıqların yaranması Avrasiya məkanında nəqliyyat və logistika məsələlərini ön plana çıxarıb. Bu prosesdə ən çox diqqətçəkən marşrutlardan biri Orta dəhlizdir (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu). Azərbaycan isə əlverişli coğrafi mövqeyi və həyata keçirdiyi infrastruktur layihələri ilə bu strateji dəhlizin tam mərkəzində, əsas aparıcı rolda çıxış edir.**



## Qlobal əməkdaşlığın ünvanı

Bu günlərdə Bakının evsahibliyi etdiyi "Qara dəniz və Xəzər Yük Forumu 2026: Dəhlizlər, İnfrastruktur, İnvestisiyalar" adlı 5-ci Beynəlxalq Konfrans kimi mötəbər tədbir də bir daha sübut etdi ki, Azərbaycan Orta dəhlizin önəmli qovşaqlarından biri olmasının fonunda qlobal əməkdaşlığın əsas müzakirə mərkəzlərindən birinə çevrilib.

Ötən il "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusuna həsr olunmuş 6-cı Xəzər Biznes Forumunun iştirakçılarına müraciətində Prezident İlham Əliyev Azərbaycanın sözügedən dəhlizin inkişafında oynadığı əhəmiyyətli rola belə vurğu etmişdi: "Azərbaycanın əlverişli coğrafi mövqeyi - iki qitənin tam ortasında yerləşməsi bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir. Bu gün artıq fəxrlə deyə bilərik ki, Azərbaycanın uzunmüddətli baxışı və yorulmaz səyləri nəticəsində Asiya və Avropa arasında daha yaxşı sinerjini təmin edən Orta dəhliz kimi irimiqyaslı layihənin reallaşması mümkün olmuşdur. Orta dəhlizin tam istismara verilməsi Azərbaycanın iqtisadi potensialı ilə yanaşı, ölkəmizdə mövcud olan siyasi sabitlik və təhlükəsizlik amili ilə də şərtlənmişdir".

Vurğulandığı kimi, Azərbaycanın Orta dəhlizin əsas tərəflərindən biri olması onun strateji mövqeyi ilə yanaşı, ölkədə yaradılan infrastrukturla birbaşa bağlıdır. Ölkəmiz Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanını tikib, Bakı-Tbilisi-Qars dəmir yolunu istifadəyə verib və beynəlxalq yollarını tam modernləşdirib. Eyni zamanda ölkəmiz Xəzər dənizində ən böyük ticarət donanmasına sahibdir ki, bu da yüklərin dəniz üzərindən maneəsiz və sürətli daşınmasına şərait yaradır. Gömrük və sərhəd-keçid prosedurlarının sadələşdirilməsi, logistika mərkəzlərinin rəqəmsallaşdırılması xərcləri və daşınma vaxtını azaldaraq dəhlizin rəqabət qabiliyyətini artırır.

Bütün bunlar Azərbaycanı Orta dəhlizdə əsas dövlətlərdən birinə çevirir.

## Sülh və iqtisadi inkişaf platforması

Orta dəhliz yalnız nəqliyyat marşrutu deyil, ABŞ, Çin və Avropa İttifaqı kimi böyük güclərin maraqlarının kəsişdiyi və dəstəklədiyi sülh və iqtisadi inkişaf platformasıdır. Buna görədir ki, sözügedən dünya nəhəngləri ayrı-ayrılıqda Azərbaycanla ikitərəfli əlaqələrə böyük önəm verirlər.

ABŞ-Azərbaycan əlaqələri strateji tərəfdaşlıq zirvəsinə yüksəlib. Ötən il 8 avqust Vaşinqton Sammitindən sonra ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri çərçivəsində ticarət, energetika, süni intellekt, nəqliyyat və təhlükəsizlik sahələrini əhatə edən Strateji Tərəfdaşlıq Xartiyası imzalandı.

Azərbaycan və ABŞ hökumətləri arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasında Azərbaycan və ABŞ-nin Orta dəhlizi əsas götürərək quru, dəniz və hava nəqliyyatı infrastrukturunun inkişafı, enerji və data bağlantısı, ticarət və tranzitin asanlaşdırılması, gömrük nəzarəti və sərhəd keçidi, beynəlxalq multimodal logistika və digər əlaqəli sahələrdə əməkdaşlıq yolu ilə regional bağlantıları təşviq etmək üçün birgə işləmək niyyətindədirlər. Sənəddə həmçinin Zəngəzur dəhlizi (TRIPP) xüsusi qeyd olunur.

Azərbaycanın ən böyük tərəfdaşlarından biri Çindir. Əlaqələri dinamik dərinləşən iki ölkə arasında iqtisadi əməkdaşlığın mühüm istiqamətlərindən birini Orta dəhlizin inkişafı təşkil edir. Avropa ilə Asiyanı birləşdirən bu mühüm nəqliyyat marşrutu yüklərin təhlükəsiz və sürətli daşınması baxımından böyük əhəmiyyətə malikdir. Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün əsas hissələrindən biri olan Orta dəhliz ölkələrimizin çoxşaxəli əlaqələrinə də şərait yaradır.

Avropa İttifaqı da Çin, Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropanı birləşdirən bu marşrutun inkişafında maraqlıdır.

Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen iyulun 1-də Bakıda mətbuata bəyanatında deyib ki, Cənubi Qafqaz Avropanı, Xəzər regionunu və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən möhtəşəm kəsişmələrindən biridir: "Onun strateji əhəmiyyəti artmaqda davam edir. Azərbaycan burada əsas rol oynaya bilər. Regional əməkdaşlığı və sabitliyi irəli aparmaq üçün çox az sayda ölkənin sizin ölkəniz kimi yerləşməsi var. Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Məhz buna görə biz Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığının başlanılmasını təklif edirik. Bu, nəqliyyat, enerji və rəqəmsal bağlantını əhatə etməklə Yüksəksəviyyəli Bağlantı Dialoqu ilə sıx bağlıdır".

Mərkəzi Asiya ölkələrinin dünya bazarlarına daha qısa və təhlükəsiz çıxış yolları axtarışı Orta dəhlizə olan marağı yüksək həddə çatdırıb. Region dövlətləri üçün Xəzər dənizi və Cənubi Qafqaz üzərindən keçən bu marşrut iqtisadi müstəqilliyin və ticarət şaxələndirməsinin əsas zəmanətidir.

Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında qurulan sıx siyasi dialoq və qardaşlıq münasibətləri nəqliyyat-logistika sahəsində praktiki layihələrlə tamamlanır. Xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolunun genişləndirilməsi və Zəngəzur dəhlizi layihəsinin reallaşma mərhələsinə qədəm qoyması Mərkəzi Asiyanın Avropaya çıxış imkanlarını bir qədər də artırır. Bu infrastruktur şəbəkəsi region ölkələrinə öz təbii resurslarını və sənaye məhsullarını Türkiyə və Avropa bazarlarına daha az xərclə və sürətlə çatdırmaq imkanı verir.

Bütün bunlar göstərir ki, Azərbaycan sadəcə yolların kəsişdiyi coğrafiya deyil, həm də qitələri, iqtisadiyyatları və xalqları birləşdirən sülh və tərəfdaşlıq mərkəzidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan humanitar minatəmizləmənin Dayanıqlı İnkişaf Məqsədinə çevrilməsi istiqamətində fəal iş aparır

**Ermənistanın 30 illik işğalı nəticəsində Azərbaycan Respublikasının ərazisinin təqribən 12-13 faizi mina və partlamamış hərbi sursatlarla çirklənmiş vəziyyətdədir. Bu, təxminən 1,5 milyondan artıq mina və partlamamış hərbi sursatın torpaqda gizli təhlükə mənbəyi olaraq qalması deməkdir.**



Torpaqlarımızın işğalına son qoyulduqdan keçən müddət ərzində əldə olunan nəticələr ümumilikdə genişmiqyaslıdır: indiyədək 298 min hektardan çox ərazi təmizlənib, 260 min 147 mina və partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Yalnız 2025-ci il ərzində ümumilikdə 6 824 mina və 52 392 partlamamış hərbi sursat aşkarlanmış və zərərsizləşdirilmişdir.

Mövcud hesablamalara əsasən, bu qədər genişmiqyaslı çirklənmənin tam şəkildə aradan qaldırılması üçün milyardlarla ABŞ dolları həcmində maliyyə vəsaiti və çox uzun zaman müddəti tələb olunur. Hazırkı mərhələdə Azərbaycan dövləti bu ağır vəzifənin öhdəsindən əsasən öz daxili maliyyə resursları hesabına gəlir ki, bu da dövlətin məsuliyyətli və ardıcıl siyasətinin göstəricisidir.

Mina və partlamamış hərbi sursat problemi bu gün də ölkəmiz üçün ən ciddi təhlükəsizlik çağırışlarından biri olaraq qalır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı mina təhlükəsi həm mülki əhali üçün birbaşa həyat təhlükəsi yaradır, həm də azad olunmuş ərazilərdə həyata keçirilən bərpa, yenidənqurma və məskunlaşma proseslərini ləngidir. Rəsmi məlumatlar göstərir ki, 44 günlük Vətən müharibəsindən sonra 437 Azərbaycan vətəndaşı mina terrorunun qurbanı olmuş, ağır bədən xəsarətləri almış, 73 nəfər isə həyatını itirmişdir. Ümumilikdə Azərbaycanda mina qurbanlarının sayı 3 min 500 nəfəri keçir. Bu fakt mina təhlükəsinin nə qədər real və davamlı olduğunu bir daha təsdiqləyir. Bu həm də göstərir ki, mina təhlükəsi yalnız konkret ərazilərlə məhdudlaşmır, o, demək olar ki, bütün yaş qruplarını əhatə edən genişmiqyaslı humanitar problemə çevrilib. Minalar insanların gündəlik həyatını risk altına salmaqla yanaşı, kənd təsərrüfatı fəaliyyətini məhdudlaşdırır, yaşayış məntəqələrinə və nəqliyyat infrastrukturuna çıxışı çətinləşdirir, iqtisadi və sosial inkişafın qarşısında ciddi maneələr yaradır. Bu səbəbdən humanitar minatəmizləmə təkcə təhlükəsizlik məsələsi deyildir.

Prezident İlham Əliyev 2 sentyabr 2026-cı il tarixində "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının iştirakçılarına müraciətində bu məsələni vurğulayaraq qeyd etmişdir ki, humanitar minatəmizləmə yalnız təhlükəsizlik məsələsi deyil, həm də şəhərlərin və kəndlərin bərpasının, insanların təhlükəsiz qayıdışının və davamlı inkişafın əsas şərtidir. Minalar müharibə başa çatdıqdan sonra belə insan həyatı, infrastruktur və iqtisadi fəaliyyət üçün ciddi təhlükə yaradır. Minatəmizləmə Azərbaycanın daha geniş postmünaqişə bərpa modelinin bir hissəsidir. Bu modeldə təhlükəsizliyin təmin edilməsi, şəhərsalma, infrastrukturun qurulması, ətraf mühitin bərpası, sosial reinteqrasiya və iqtisadi inkişaf vahid çərçivədə həyata keçirilir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi Böyük qayıdış prosesinin təməl elementlərindən biridir. Yenidənqurma, yol və enerji infrastrukturu, kənd təsərrüfatı, yaşayış məntəqələrinin salınması və insanların qayıdışı minatəmizləmə ilə paralel aparılır. Böyük qayıdış artıq real nəticələr verir: təxminən 40 min keçmiş məcburi köçkün azad edilmiş ərazilərdə öz evlərinə qayıdıb. Qarabağ və Şərqi Zəngəzurda yaşayan insanların ümumi sayı 90 mini keçib.

Prezident İlham Əliyevin müraciətində haqlı olaraq bu məsələyə beynəlxalq dəstəyin artırılması üçün çağırış edilmişdir. Maliyyələşmə, müasir avadanlıq, texniki bilik, təlim, texnologiya transferi və uzunmüddətli tərəfdaşlıqlar minatəmizləmə prosesinin sürətləndirilməsi üçün vacib hesab olunur.

Birləşmiş Millətlər Təşkilatı tərəfindən qlobal səviyyədə müəyyən edilmiş 17 Dayanıqlı İnkişaf Məqsədi mövcuddur. Beynəlxalq birliyin hər bir üzv dövləti, o cümlədən Azərbaycan Respublikası bu məqsədlər əsasında öz milli inkişaf prioritetlərini formalaşdırıb. Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə humanitar minatəmizləmə 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi irəli sürülüb və bu ölkəmizdə qəbul edilib. Bu yanaşma, mina probleminin təkcə regional deyil, qlobal humanitar çağırış kimi qəbul edilməsinin vacibliyini ortaya qoyur. Hazırda dövlət başçısının tapşırığına uyğun olaraq Azərbaycan diplomatiyası beynəlxalq platformalarda humanitar minatəmizləmənin qlobal səviyyədə 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi tanınması istiqamətində fəal iş aparır.

Digər mühüm məqam ondan ibarətdir ki, mina terroru yalnız insan həyatına deyil, eyni zamanda mədəni irsə, ətraf mühitə və bütün canlı aləmə ciddi təhlükə yaradır. Bu baxımdan mina problemi çoxşaxəli, kompleks və uzunmüddətli fəsadlara malik təhlükə kimi qiymətləndirilir. Azərbaycan dövləti bu reallığı nəzərə alaraq, mümkün olan bütün istiqamətlər üzrə sistemli fəaliyyət göstərir. Bu istiqamətlərdən biri də minaların mədəni irs obyektlərinə vurduğu ziyanın beynəlxalq səviyyədə tanınması və sənədləşdirilməsidir.

1954-cü ildə "Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyası qəbul edilib. 2023-cü ildə Haaqa Konvensiyasına Tərəf dövlətlərin 15-ci beynəlxalq toplantısında Azərbaycan Prezidentinin təlimatına uyğun olaraq aparılan məqsədyönlü diplomatik fəaliyyət nəticəsində "Minaların mədəni irsə təsiri" ilə bağlı xüsusi qətnamə qəbul edilib. Bu sənəd mina terrorunun mədəni irsə vurduğu dağıdıcı təsirin beynəlxalq hüquqi müstəvidə tanınması baxımından mühüm əhəmiyyət daşıyır və Azərbaycanın bu sahədə qlobal təşəbbüskar rolunu bir daha nümayiş etdirir.

Azərbaycan illər ərzində qazandığı təcrübəsini münaqişədən zərərçəkmiş digər ölkələrlə bölüşməyə hazırdır və minatəmizləməni beynəlxalq əməkdaşlığın mühüm istiqaməti kimi təqdim edir.

*Rizvan NƏBİYEV,*
*Milli Məclisin deputatı*

# Sülh gündəliyinin alternativi yoxdur

## İrəvanın yeganə çıxış yolu öhdəliklərini qeyd-şərtsiz yerinə yetirmək və prosesi sürətləndirməkdir

**Cənubi Qafqazda davamlı sülhün, təhlükəsizliyin və regional əməkdaşlığın bərqərar olunması istiqamətində real addımlar atılmaqdadır. Bu mürəkkəb və məsuliyyətli prosesdə Azərbaycan tərəfinin nümayiş etdirdiyi mövqe tamamilə aydın, prinsipial və məqsədyönlüdür. Xarici işlər naziri Ceyhun Bayramovun sentyabrın 9-da jurnalistlərə açıqlamasında vurğuladığı məqamlar rəsmi Bakının sülh gündəliyinə sadiqliyini, regional inteqrasiyanın tərəfdarı olduğunu və bu istiqamətdə konstrutiv təşəbbüslərin əsas müəllifi kimi çıxış etdiyini bir daha ortaya qoyub.**



XİN başçısı bildirib ki, Azərbaycanın sülhlə bağlı atdığı addımlar göz önündədir: "Azərbaycan-Ermənistan normallaşması prosesi çərçivəsində ötən ilin oktyabrından tranzit yüklərin Ermənistana və Ermənistandan Azərbaycan ərazisi üzərindən daşınmasına tətbiq olunan məhdudiyyətlərin aradan qaldırılması, daha sonra Azərbaycandan bir sıra məhsulların Ermənistana ixracının başlanması, həmin məhsulların nomenklaturasının genişləndirilməsi və digər istiqamətlərdə mühüm addımlar atılıb".

Nazir əlavə edib ki, vətəndaş cəmiyyəti nümayəndələrinin, eləcə də müxtəlif dövlət rəsmilərinin həm Ermənistan, həm də Azərbaycan ərazisində görüşlərinin keçirilməsi də bu prosesin bariz nümunələrindəndir. Rəsmi Bakı normallaşma prosesinin yalnız bəyannamələr müstəvisində qalmaması, real həyatda və praktikada öz əksini tapması üçün həm iqtisadi, həm də humanitar sahələrdə ardıcıl addımlar atmaqdadır. Bu addımlar Azərbaycanın regionda kommunikasiyaların bərpasına, ticari əlaqələrin canlanmasına və xalqlar arasında etimad mühitinin formalaşmasına nə qədər səmimi yanaşdığını göstərir. Eyni zamanda vətəndaş cəmiyyəti nümayəndələrinin, eləcə də müxtəlif dövlət rəsmilərinin həm Ermənistan, həm də Azərbaycan ərazisində görüşlərinin keçirilməsi gərginliyin azaldılmasına və birbaşa dialoqun təşviqinə xidmət edən mühüm amillərdəndir.

Lakin bütün bu müsbət dinamikaya rəğmən, sülh prosesinin tam başa çatması və hüquqi müstəvidə dönməz xarakter alması üçün qarşı tərəf üzərinə düşən bütün öhdəlikləri qeyd-şərtsiz icra etməlidir. Azərbaycanın irəli sürdüyü şərtlər gələcəkdə hər hansı revanşizm cəhdlərinin istisna edilməsi məqsədini daşıyır. Bu tələblərin ən əsası Ermənistanın mövcud konstitusiyasında Azərbaycana qarşı yer alan ərazi iddialarının birdəfəlik aradan qaldırılmasıdır. Bir ölkənin əsas qanunvericiliyində başqa dövlətin suverenliyinə təhdid yaradan maddələrin qalması şəraitində bağlanan hər bir müqavilə gələcəkdə hüquqi baxımdan zəif və kövrək olacaq.

Ceyhun Bayramov bu prinsipial məsələnin əhəmiyyətini vurğulayaraq bildirib ki, prosesin başa çatdırılması üçün Ermənistanda referendum keçirilməli, konstitusiyada yer alan ərazi iddiaları ilə bağlı müddəalar çıxarılmalıdır: "Prosesin başa çatdırılması üçün ehtiyac duyulan addımlar atılmalıdır. Burada, təbii ki, Ermənistanda referendum keçirilməsi və yeni konstitusiyanın qəbul edilməsi də nəzərdə tutulur". Nazirin fikrincə, bunun vaxtının müəyyənləşdirilməsi Ermənistanın daxili prosesidir: "Biz ictimai məkanda Ermənistan rəhbərliyi tərəfindən bu istiqamətdə müxtəlif mesajlar eşidirik. Ötən ilin əvvəlində, Ermənistanda parlament seçkiləri ərəfəsində də belə bəyanatlar var idi. İndi isə seçkilərdən sonra Ermənistan baş naziri öz çıxışlarında ilin sonuna qədər konstitusiya layihəsinin mətninin ictimaiyyətə açıqlanması və daha sonra referendumun keçirilməsi ilə bağlı yeni mesajlar verib". C.Bayramov vurğulayıb ki, Bakının yanaşması dəyişməz olaraq qalır: "Sülh prosesinin tam başa çatdırılması və bu prosesə son imzanın atılması üçün Ermənistanın atmalı olduğu addımları gözləyəcəyik".

Bu, təkcə Bakının tələbi deyil, həm də regionda beynəlxalq hüquqa söykənən ədalətli nizamın qurulması üçün zərurətdir. İrəvan siyasi bəyanatlarla kifayətlənməməli, məsələnin praktiki həllini gecikdirməməlidir. Çünki vaxt itkisi və qeyri-müəyyənlik regionda dayanıqlı inkişafın ləngiməsinə səbəb olur. Referendumun keçirilmə tarixi Ermənistanın daxili proseduru olsa da, məzmunu və nəticəsi sülh müqaviləsinin taleyini müəyyən edən əsas şərtlərdəndir. İrəvan anlamalıdır ki, revanşizmə hüquqi əsas yaratmaqla dayanıqlı və uzunmüddətli sülhə nail olmaq mümkün deyil.

Bakının təqdim etdiyi sülh gündəliyi bütövlükdə Cənubi Qafqazın, o cümlədən Ermənistanın özünün iqtisadi inkişafına imkan verən, regional layihələrdə iştirakına şərait yaradan yeganə yoldur. Bu səbəbdən Azərbaycanın irəli sürdüyü şərtlərin tam və qeyd-şərtsiz qəbul edilməsinin alternativi yoxdur.

Azərbaycan yekun sülhə tam hazır olduğunu genişmiqyaslı quruculuq işləri və konstruktiv təşəbbüslərlə aydın şəkildə nümayiş etdirir. İndi qətiyyətli addımlar atmaq tamamilə Ermənistanın öhdəsinə düşür. İrəvan üzərinə düşən tarixi məsuliyyəti dərk etməli, real dəyişikliyə keçməlidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "Orta dəhliz və TRIPP Azərbaycan ilə Gürcüstanın mühüm tərəfdaşlara çevrilməsinə şərait yaradacaq"

**Son günlər, xüsusən də Batumidə keçirilən Gürcüstan Beynəlxalq Dənizçilik Forumundan sonra Orta dəhliz və TRIPP layihələri Gürcüstan ictimaiyyətində yenidən müzakirə mövzusuna çevrilib. İqtisadçılar və ekspertlər bu layihələrin əhəmiyyətinin əsaslı surətdə artdığını bildirirlər.**

**G.Robokidze Universitetinin professoru, iqtisadçı-alim və ekspert Vaxtanq ÇARAİA** AZƏRTAC-a müsahibəsində deyib ki, Orta dəhliz Gürcüstan, eləcə də regionun digər iştirakçıları üçün mühüm layihədir. Bu layihə həm Gürcüstan, həm Azərbaycan, həm də Asiya və Avropa qitəsi üçün yeni imkanlar yarada bilər. Azərbaycan və Gürcüstanın bu layihədə birgə iştirakı kifayət qədər böyük əhəmiyyət daşıyır.

Onun sözlərinə görə, layihənin reallaşması təkcə mövcud ərazilərdən istifadə hesabına mümkün olmayacaq. Burada ciddi investisiyalar, uzunmüddətli planın olması və hər bir ölkənin layihə çərçivəsində üzərinə götürdüyü işləri nə vaxt başa çatdıracağının müəyyənləşdirilməsi vacibdir. Belə bir planın olması və kifayət qədər böyük investisiya potensialının açılması imkanları mövcuddur.

"Söhbət təxminən 7 milyard dollarlıq investisiyadan gedir. Yüklərin daşınmasına sərf olunan müddət də azaldılmalıdır. Bununla yanaşı, turist axını da artmalıdır. Dünya Bankının qiymətləndirməsinə görə, 2030-cu ilə qədər turizm dövriyyəsi 3 dəfə artmalı, yüklərin daşınma müddəti isə 2 dəfə azalmalıdır. Bütün bunlar Azərbaycan və Gürcüstanın birlikdə həm Avropa İttifaqı, həm də Asiyanın müxtəlif ölkələri üçün ciddi oyunçulara və mühüm tərəfdaşlara çevrilməsinə şərait yaradacaq", - deyə V.Çaraia bildirib.

İqtisadçı-alim TRIPP layihəsinin də əhəmiyyətini xüsusi qeyd edib: "Fikrimcə, Qafqaz regionunun ciddi və əhəmiyyətli oyunçuya çevrilməsi üçün regionda nəqliyyat yollarının şaxələndirilməsi lazımdır. Təkcə bir dəmir yolu, yalnız bir marşrut Cənubi Qafqazı geosiyasi baxımdan əhəmiyyətli oyunçuya çevirə bilməz. Əgər burada müxtəlif nəqliyyat yolları, sülh və tərəfdaşlıq olarsa, bu, biznesə özü üçün ən yaxşı alternativi seçmək imkanı verəcək. Eyni zamanda yaradılacaq marşrutlar arasında müəyyən rəqabətin olması mümkündür. Bu isə xidmətin keyfiyyətini artıracaq, qiymətləri aşağı salacaq və yükdaşımalara sərf olunan vaxtı daha da azaldacaq".

Onun sözlərinə görə, nəticə etibarilə, belə tərəfdaşlıq və sağlam rəqabət, uzunmüddətli perspektivdə regionumuz üçün daha böyük imkanlar yaradacaq.

"Çünki biz son bir neçə onillik ərzində Cənubi Qafqazda davamlı qeyri-sabitlik, münaqişələr və Azərbaycanla Gürcüstan üzərindən keçən faktiki olaraq tək bir əsas marşrutun fəaliyyət göstərdiyi vəziyyətlə üzləşmişik. Fikrimcə, nə qədər çox əməkdaşlıq, tərəfdaşlıq və sülh olarsa, regiondakı hər ölkə və iştirakçı üçün bir o qədər yaxşı olacaq", - deyə ekspert vurğulayıb.

# İqtisadiyyat və sosial həyat

## Dünya Bankı ilə əməkdaşlığın perspektivləri müzakirə edilib

**Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın cari vəziyyəti, həyata keçirilən layihələr və yeni layihə təşəbbüsləri nəzərdən keçirilib.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Prays ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın cari vəziyyəti, həyata keçirilən layihələr və yeni layihə təşəbbüsləri nəzərdən keçirilib.

KOB-ların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, iqtisadi artımın və iqtisadiyyatın şaxələndirilməsinin yeni imkanlarının araşdırılması istiqamətində Dünya Bankı ilə əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Bu sahələrdə birgə təşəbbüslərin Azərbaycanda özəl sektorun inkişafına və dayanıqlı iqtisadi artımın dəstəklənməsinə töhfə verəcəyi qeyd olunub.

Görüşdə Dünya Bankı Qrupunun Azərbaycanda vahid ölkə nümayəndəliyi modelinə keçidinin tərəfdaşlığın daha səmərəli və əlaqələndirilmiş şəkildə inkişafına imkan yaradacağı bildirilib.

## Azərbaycanın investisiya imkanları Adanada təqdim olunub

**Azərbaycanın Türkiyədə ticarət nümayəndəsi aparatının təşkilatçılığı ilə Adana şəhərində ölkəmizin biznes və investisiya imkanları tanıdılıb, keçirilən görüşlərdə işbirliyinə dair müzakirələr aparılıb.**



Azərbaycanın Türkiyədə ticarət nümayəndəsinin aparatı Adana şəhərinə işgüzar səfər təşkil edib. Səfərdə "SOCAR Türkiyə" şirkətinin nümayəndəsi də iştirak edib.

Səfər çərçivəsində ölkəmizin Türkiyədə ticarət nümayəndəsi Tamerlan Tağıyev Adana Hacı Sabancı Sənaye Zonasının İdarə Heyətinin sədri Bekir Sütçü ilə görüşüb. Görüşdə Sənaye Zonası ilə potensial əməkdaşlıq istiqamətləri, birgə layihələr və investisiya imkanları müzakirə olunub. Sənaye Zonası nümayəndələrinin Azərbaycanda işbirliyi imkanları ilə yerində tanış olmalarının faydalı ola biləcəyi vurğulanıb. Həmçinin Sənaye Zonasının nümayəndələri 25-26 sentyabr tarixlərində Bakıda keçiriləcək İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumuna dəvət olunublar.

Adana Hacı Sabancı Sənaye Zonasının üzv şirkətləri üçün "Azərbaycana investisiya: təşviqlər və dəstək mexanizmləri" mövzusunda tədbir keçirilib. Tədbirdə müxtəlif sahələr üzrə fəaliyyət göstərən iş adamları iştirak ediblər. Ölkəmizin biznes və investisiya mühiti, investorlar və sahibkarlar üçün tətbiq edilən güzəşt və təşviqlərə dair təqdimat keçirilib, iştirakçıların sualları cavablandırılıb.

Səfər iştirakçıları "Abdioğulları Plastik və Qablaşdırma", "Sami Trafo" və "Çukurova Silo İdarəçiliyi" şirkətlərində istehsal fəaliyyəti ilə tanış olublar. Həmin şirkətlərlə tərəfdaşlıq müzakirə olunub.

## Naxçıvanın coğrafi üstünlükləri

### Bunlar yerli sahibkarlara istehsal etdikləri məhsulları xarici bazarlara daha tez çıxarmağa imkan verir

**Naxçıvan Muxtar Respublikasında sahibkarlıq yeni iqtisadi model, dövlət dəstəyi və infrastrukturun modernləşdirilməsi sayəsində sürətlə inkişaf edir. Özəl təşəbbüsün təşviqi, sahibkarlığın maliyyə resurslarına çıxışının genişləndirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması muxtar respublikada yeni iqtisadi inkişaf modelinin mühüm istiqamətlərindəndir.**



Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun 2026-cı il üzrə müəyyən etdiyi maliyyələşmə prioritetləri sənaye, xidmət, kənd təsərrüfatı, sosial, yaradıcı və regional iqtisadiyyat sahələrini əhatə edir. Bu prioritetlərin əsas məqsədi qeyri-neft sektorunda innovativ istehsal, emal və müvafiq infrastrukturun yaradılmasıdır.

Hədəf kimi isə ixracyönümlü və idxaləvəzedən məhsul artımının təmin edilməsi, həmçinin iqtisadiyyatda özəl sektorun payının artırılması müəyyən edilib. Cari ilin ilk 7 ayının nəticələrinə görə, fond tərəfindən ayrılan güzəştli kredit məbləğinin 54,1 faizi kənd təsərrüfatı, 27,7 faizi sənaye, 18,2 faizi xidmət sahələrinə yönəldilib. Maliyyələşdirilən layihələrin böyük hissəsi - 89,8 faizi Naxçıvan şəhərindən kənarda, yeni rayon və kəndlərdə fəaliyyət göstərən sahibkarların payına düşür.

2023-cü ildən 2026-cı ilin ilk altı ayı da daxil olmaqla, Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına 342 sahibkarlıq layihəsinin maliyyələşdirilməsi təmin edilib, bu məqsədlə səlahiyyətli bank və kredit təşkilatları vasitəsilə ümumilikdə 27,2 milyon manat güzəştli kredit verilib. Bu dövr ərzində maliyyələşdirilmiş layihələrin 77 faizi 2025-ci il və 2026-cı ilin birinci yarımilinin payına düşür. Layihə sayının sürətlə artması fonunda bir layihəyə düşən orta kredit məbləğinin azalması güzəştli maliyyələşmənin daha geniş sahibkar təbəqəsini əhatə etdiyini, xüsusilə kiçik və orta sahibkarlığın, ailə təsərrüfatlarının dəstəklənməsinin gücləndiyini göstərir.

Qeyd edək ki, 2023-2025-ci illərdə muxtar respublika iqtisadiyyatının əsas makroiqtisadi göstəricilərində müsbət dinamika qeydə alınıb. 2023-cü illə müqayisədə 2025-ci ildə ÜDM real ifadədə 7,6 faiz, sənaye istehsalı 4,6 faiz, nəqliyyat və anbar təsərrüfatı 25,7 faiz, informasiya və rabitə sahəsi isə 2,1 faiz artıb.

İqtisadi artımın əsas hərəkətverici qüvvələrindən biri investisiya fəallığının əhəmiyyətli dərəcədə genişlənməsi olub. Əsas kapitala investisiyalar 2023-cü illə müqayisədə 2,5 dəfə, o cümlədən tikinti-quraşdırma işləri real ifadədə 2,1 dəfə artıb.

Kənd təsərrüfatının inkişafı üçün yeni dövlət proqramları həyata keçirilir. Fermerlər və kiçik torpaq mülkiyyətçiləri üçün kənd təsərrüfatı istehsalı kooperativləri yaradılır. Naxçıvan Sənaye Parkının yaradılması və Orta dəhlizə inteqrasiya biznes mühitini gücləndirir.

Prezident İlham Əliyevin 5 iyun 2023-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında" dövlət başçısının 2 sentyabr 2026-cı il tarixli sərəncamı muxtar respublikanın sosial-iqtisadi inkişaf prioritetlərinin müasir çağırışlara uyğunlaşdırılması və tədbirlərin icra mexanizmlərinin təkmilləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Monitorinq və qiymətləndirmə şöbəsinin Sahəvi proqramların monitorinqi sektorunun müdiri Elşən Yusifli yazır ki, dövlət proqramına edilən dəyişikliklər iqtisadi fəallığın və ixrac imkanlarının genişləndirilməsi, nəqliyyat əlçatanlığının artırılması, təhsil və sosial xidmətlərin əhatəsinin genişləndirilməsi, eləcə də ekoloji dayanıqlılığın gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin daha nəticəyönümlü təşkilinə xidmət edir.

Sözügedən dəyişikliklər nəticəsində dövlət proqramında sahibkarlığın və ixracın dəstəklənməsi istiqamətində yanaşmalar da dəqiqləşdirilib. Naxçıvan Muxtar Respublikasının əlverişli coğrafi mövqeyindən istifadə etməklə regionda istehsal olunan məhsulların ölkədaxili və xarici bazarlara çıxışının sürətləndirilməsi əsas istiqamətlərdən biri kimi müəyyən olunub. Yerli məhsulların rəqabətqabiliyyətliliyinin artırılması və daşınma xərclərinin optimallaşdırılması məqsədilə sahibkarlara məqsədli logistik dəstək mexanizmlərinin tətbiqi nəzərdə tutulur.

İİTKM-in sektor müdiri bildirir ki, müntəzəm yükdaşımaların təşkili və nəqliyyat marşrutlarının effektivliyinin yüksəldilməsi ixracın, məşğulluğun və işgüzar əlaqələrin genişlənməsinə əlavə imkanlar yaradacaq. Onun sözlərinə görə, xüsusilə Zəngəzur dəhlizinin açılmasından sonra Naxçıvanda istehsal olunan məhsulların quru yolu ilə ixrac imkanlarının əhəmiyyətli dərəcədə genişlənməsi gözlənilir. Dövlət proqramına edilən dəyişikliklərə əsasən, bu imkanlardan səmərəli istifadənin stimullaşdırılması məqsədilə müxtəlif güzəştlərin tətbiqi məsələsinə ayrıca qiymətləndirmə əsasında baxılmasının nəzərdə tutulması çevik və iqtisadi əsaslandırmaya söykənən dəstək mexanizmlərinin formalaşdırılması baxımından əhəmiyyətlidir. Bu yanaşma yerli istehsalın iqtisadiyyatda rolunun gücləndirilməsinə və Naxçıvanın regional ticarət-logistika imkanlarının reallaşdırılmasına xidmət edəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycanın dəyişən ixrac xəritəsi

### Qeyri-neft məhsullarımız yeni bazarlara çıxır

**Bir vaxtlar Azərbaycanın ixrac çeşidinə baxanda göz önünə ilk növbədə neft və qaz gəlirdi. İndi isə həmin siyahıya hər ay, hər il neftdənkənar məhsulların adları əlavə olunur. Meyvə-tərəvəz, şərab və digər kənd təsərrüfatı məhsullarından tutmuş kimya sənayesi, metallurgiya və müxtəlif sənaye mallarımızın ixrac coğrafiyası da genişlənir.**

Bu dəyişiklik təsadüfi deyil. İqtisadiyyatın şaxələndirilməsi, neftdənkənar sahənin inkişafı və yerli məhsulların dünya bazarlarına çıxarılması Azərbaycanın qarşısında böyük imkanlar açır. Daimi ixrac bazarları ilə yanaşı, yeni coğrafiyalara doğru hərəkət də sürətlənir. Azərbaycanın ixrac xəritəsi artıq "nə ixrac edək?" sualı ilə üz-üzə deyil. Əksinə, "hara ixrac edirik?" sualına fərqli cavab verməyə başlayır. Bəs neftdənkənar ixracda hansı məhsullar önə çıxır? Yerli istehsalçılar hansı xarici bazarlara üz tuturlar? Qarşıdakı illərdə Azərbaycanın ixrac coğrafiyasını hansı istiqamətlər genişləndirə bilər?

Qeyd olunan sualların cavabı isə Azərbaycanın qeyri-neft-qaz ixracında əsas bazarların və yeni istiqamətlərin formalaşmasına nəzər saldıqda daha aydın görünür. Ənənəvi olaraq, qeyri-neft məhsullarının əsas alıcıları arasında region ölkələri xüsusi yer tutur. Rusiya, Türkiyə və Gürcüstan kimi yaxın bazarlar Azərbaycan məhsullarının xaricdə tanınmasında və satış coğrafiyasının formalaşmasında mühüm rol oynayır. Bununla yanaşı, son illər Mərkəzi Asiya, Yaxın Şərq və Avropa istiqamətlərində də xeyli imkanlar yaranıb.

İxrac haqqında danışarkən ilk növbədə kənd təsərrüfatı məhsullarının rolunu qeyd etmək lazımdır. Meyvə-tərəvəz, pomidor, fındıq, xurma, müxtəlif emal olunmuş ərzaq məhsulları xarici bazarlarda Azərbaycan brendinin formalaşmasında böyük rol oynyır. Amma bu o demək deyil ki, ixrac səbətində başqa məhsullar yoxdu. Təbii ki, belə deyil. Kimya sənayesi məhsulları, gübrələr, alüminium və ondan hazırlanan məmulatlar, pambıq və pambıq ipliyi, müxtəlif sənaye məhsulları neftdənkənar ixracın strukturunda geniş yer tutur.



Rəsmi statistikaya nəzər saldıqda Azərbaycanın ixrac səbətində həm kənd təsərrüfatı, həm də sənaye məhsullarının kifayət qədər yer aldığını görürük. 2025-ci ildə əvvəlki illə müqayisədə təzə meyvə ixracı 21,4, təzə tərəvəz ixracı 18, şəkər ixracı 67,6, kartof ixracı 47,8, bitki yağları ixracı 25, pambıq ipliyi ixracı 30,5 faiz artıb. Sənaye məhsulları arasında isə xüsusilə emal olunmamış alüminium ixracının 87 faiz artması diqqət çəkir. Eyni zamanda polietilen ixracı 12,7, sement klinkerləri 11,5, polipropilen ixracı isə 0,8 faiz yüksəlib.

Azərbaycanın xarici ticarət xəritəsində Avropa ölkələri ilə yanaşı, regionun və dünyanın aparıcı iqtisadi gücləri də xüsusi çəkiyə malikdir. Dövlət Gömrük Komitəsinin məlumatları göstərir ki, ölkənin xarici ticarət dövriyyəsində əsas pay bir neçə strateji tərəfdaşın üzərinə düşür. Bu ölkənin yüksək göstəricisi iki ölkə arasındakı iqtisadi münasibətlərin strateji xarakterini bir daha ortaya qoyur.

Siyahının zirvəsində isə İtaliya yer alıb. Azərbaycanın xarici ticarət dövriyyəsinin 24 faizi bu ölkənin payına düşür. Ölkənin xarici ticarət dövriyyəsində hər dörd manatdan təxminən birinə İtaliya sahibdir. Bu da o deməkdir ki, Azərbaycanın xarici iqtisadi əlaqələrində Avropa istiqamətinin, xüsusilə də İtaliya ilə əməkdaşlığın çəkisi kifayət qədər böyükdür. Türkiyə 11,6 faizlə ikinci, Rusiya 10 faizlə üçüncü, Çin isə 9,9 faizlə dördüncüdür. Bu mənzərə Azərbaycanın xarici ticarət coğrafiyasının Avropa ilə yanaşı, regional və qlobal iqtisadi mərkəzlər üzrə də şaxələndiyini göstərir. Azərbaycanın digər aparıcı ticarət tərəfdaşları sırasında İsveçrə 3,6, ABŞ 3,1, Almaniya 2,8, Birləşmiş Krallıq 2,3 faiz payla təmsil olunur.

Xarici ticarət coğrafiyasının daha bir diqqətçəkən xüsusiyyəti isə tərəfdaş ölkələrin kifayət qədər geniş spektrə malik olmasıdır. Avstraliya, Gürcüstan və Yunanıstanın hər birinin payı 1,8 faiz təşkil edir. Bolqarıstan 1,7, Çexiya və Özbəkistan 1,6, Rumıniya, Xorvatiya və Qazaxıstanın hər biri isə 1,4 faizlə Azərbaycanın əsas ticarət tərəfdaşları sırasında yer alır. İran Azərbaycanın xarici ticarət dövriyyəsində 1,3, Ukrayna 1 faiz paya malikdir. Portuqaliya və Belarusun hər birinin payı 0,9, Fransa və Hindistanın ayrı-ayrılıqda payı 0,8 faizdir.

Göründüyü kimi, Azərbaycanın ixrac coğrafiyasının genişlənməsi üçün Mərkəzi Asiya, Yaxın Şərq, Şimali Afrika və Avropa bazarları vacib yer tutur. Əsas hədəf də ixracın həcmini artırmaqla yanaşı, daha çox əlavə dəyər yaradan məhsulların dünya bazarlarına çıxarılmasını sürətləndirməkdir. Bu baxımdan yerli istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsi, Azərbaycan məhsullarının yeni bazarlarda tanıdılması və ixracatçı şirkətlərin imkanlarının genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Neftdənkənar sahədə emal və istehsal zəncirinin gücləndirilməsi ölkənin ixrac strukturunda daha dayanıqlı dəyişikliklərin formalaşmasına imkan verə bilər.

Nəticə etibarı ilə Azərbaycanın ixrac xəritəsi dəyişir. Neft və qazın dominant olduğu ənənəvi modelə yeni məhsullar, yeni bazarlar və yeni iqtisadi imkanlar əlavə olunur. Qarşıdakı illərdə bu coğrafiya və çeşidin nə qədər genişlənəcəyi isə neftdənkənar sahədə istehsalın və ixrac imkanlarının artırılmasından asılı olacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# Mədəniyyət





# Yaddaşımıza hopmuş əbədi nəğmələr

## Tofiq Quliyev xalqın ruhunu musiqiyə çevirən sənətkar idi

**İnsan dünyaya göz açdığı andan həyatın görünməz nəğməsini dinləməyə başlayır. Hələ danışmağı, sözlərin mənasını bilmədiyi bir vaxtda belə, onun ruhuna ilk toxunan musiqi səsi olur. Bəzən bu səs ananın ürəyinin döyüntüsüdür, bəzən beşik başında asta-asta pıçıldanan bir layla... Körpə həmin laylanın sözlərini anlamasa da, onun həzinliyini duyur.**

İllər keçir, uşaqlıq uzaqlarda qalır, sözlər yaddaşın dərinliklərində itib gedir, ancaq o laylanın həzin avazı insanın ruhunda əbədi yaşayır. Çünki musiqi insanın yaddaşına sözlərdən əvvəl yazılır. Bəlkə də buna görə insan ömrü boyu eşitdiyi səslərin ardınca gedir - dənizin pıçıltısına, quşların nəğməsinə, sevdiyi insanın səsinə, uşaqlıqdan yadında qalan bir melodiyaya doğru... Musiqi həyatın görünməyən rənglərini üzə çıxarır, sevincə səs, həsrətə ah, sevgiyə nəğmə, xatirələrə isə əbədiyyət verir.

Bəstəkarın möcüzəsi də elə buradan başlayır. O, hamının eşidib keçdiyi səslərin içindən görünməyən bir ahəng taparaq onu ürəyindən keçirərək nota çevirir, bir anlıq duyğusunu illərin yaddaşına həkk edir. Beləcə, bir insanın qəlbində doğulan melodiya minlərlə, milyonlarla insanın duyğusuna çevrilir.

Tofiq Quliyev də Azərbaycan həyatının səslərini belə dinləyən sənətkarlardan idi. O, xalqın duyduğu, lakin sözlə ifadə edə bilmədiyi hisslərə musiqi dili verib. Onun melodiyalarında Bakının küləyi, Xəzərin nəfəsi, sevginin həyəcanı, ayrılığın kövrəkliyi, gəncliyin sevinci, Vətənə bağlılığın müqəddəs duyğusu var. O, sanki Azərbaycanın öz səsini dinləyib və həmin səsləri nota çevirib. Bəstəkarın musiqisində Bakının səhəri, Xəzərin ləpəsi, axşamın sakitliyi, gəncliyin coşqusu, məhəbbətin kövrəkliyi var. Bu melodiyalarda insan özünü, yaşadığı şəhəri, sevdiyi insanı, müqəddəs saydığı Vətəni görür. Buna görə Tofiq Quliyevin musiqisi sadəcə dinlənilmir - duyulur və yaşanır.

1917-ci il noyabrın 7-də Bakıda musiqini sevən bir ailədə dünyaya gələn Tofiq Quliyev hələ uşaqlıqdan bu sehrli dünyanın cazibəsinə düşmüşdü. 12 yaşından musiqi təhsili almağa başlaması onun gələcək taleyini müəyyənləşdirmişdi. Sonralar Azərbaycan Dövlət Konservatoriyasında fortepiano və dirijorluq sənətini öyrənmiş, professor İ.S.Aysberq və S.Y.Ştrasser kimi müəllimlərdən dərs almış, Üzeyir bəy Hacıbəylinin musiqi məktəbindən bəhrələnmişdi. Tofiq Quliyev yalnız hazır musiqini öyrənməklə kifayətlənməmiş, həm də xalqın öz içindən gələn musiqini axtarmışdır. Çünki milli musiqinin ruhunu bilmədən xalqın qəlbinə toxunan əsər yaratmaq çətindir.

Bu yol onu Bülbüllə birlikdə xalq mahnılarının, rəqslərin və muğamların toplanmasına, nota alınmasına gətirdi. Azərbaycan musiqisinin şifahi yaddaşda yaşayan nümunələri nota köçürüldükcə sanki xalqın əsrlər boyu qoruduğu səslər kağız üzərində əbədiləşirdi. Tofiq Quliyev və onun sənət dostlarının bu sahədəki fəaliyyəti Azərbaycan musiqi irsinin qorunması baxımından mühüm əhəmiyyət daşıyırdı.

Bəstəkarın ilk yaradıcılıq addımlarından biri Mirzə Ələkbər Sabirin şeirinə yazdığı mahnı idi. Bu, təsadüfi seçim deyildi. Tofiq Quliyev hələ gənc yaşlarından sözlə musiqinin bir-birini necə tamamladığını duyurdu. Şeir bir duyğunu sözlə ifadə edirdisə, musiqi həmin duyğunun görünməyən tərəfini üzə çıxarırdı.

1930-cu illərin ikinci yarısında Tofiq Quliyevin həyatında yeni bir mərhələ başladı. Üzeyir bəy Hacıbəylinin təşəbbüsü ilə o, təhsilini davam etdirmək üçün Moskvaya göndərildi. Burada klassik musiqi ilə yanaşı, o dövrün yeni və cazibədar musiqi aləmi - caz və estrada ilə də yaxından tanış oldu. A.Sfasmanın rəhbərlik etdiyi estrada orkestrində pianoçu kimi çalışması onun musiqi dünyagörüşünü genişləndirdi. Bu, çox mühüm məqam idi. Tofiq Quliyev sonralar milli musiqi düşüncəsi ilə Avropa peşəkar musiqi məktəbinin, xüsusən caz elementlərinin imkanlarını bir araya gətirərək özünəməxsus üslub yaratdı. O, Azərbaycan musiqisinin köklərindən uzaqlaşmadan müasir səslənməyə nail oldu. Bu musiqidə nə milli ruh itirdi, nə də dünya musiqisinin nəfəsi.

Həyatının bu sakit yaradıcılıq yolu müharibə ilə yarımçıq kəsildi. Tofiq Quliyev həmin ağır günlərdə sənətkar kimi kənarda dayanmadı. Müharibə illərində hərbi ansamblların yaradılmasında iştirak etdi, əsgərlərin qarşısında səslənən vətənpərvər mahnılar yazdı.

Bəzən musiqinin silah qədər güclü olduğunu deyirlər. Silah insanın qarşısındakı düşmənə, musiqi isə onun daxilindəki qorxuya qarşı mübarizə aparır. Cəbhədə səslənən mahnı əsgərə doğma evini, anasını, sevgilisini, vətəni xatırladırdı. Bir neçə dəqiqəlik musiqi insanı səngərdən uzaqlara - evinə, ailəsinə, uşaqlığına aparırdı. Tofiq Quliyev belə məqamlarda musiqinin insan ruhuna təsir gücünü yaxşı anlayırdı.

Müharibədən sonra Tofiq Quliyevin yaradıcılığında yüksəliş dövrü başladı. Bəstəkarın mahnıları sürətlə yayılırdı. Bu mahnıların səhnəsi yalnız konsert salonları deyildi, insanların daxili aləmi idi. Axı onun mahnılarını Rəşid Behbudov, Şövkət Ələkbərova, Rauf Atakişiyev, Lütfiyar İmanov və başqa böyük sənətkarlar ifa edirdilər. Sonralar "Qaya" vokal-instrumental ansamblının ifasında da Tofiq Quliyevin mahnıları səsləndi. Amma onun musiqisinin sirri yalnız məşhur ifaçıların böyük sənətində deyildi, həm də melodiyanın insan ürəyinə yaxınlığında idi. Tofiq Quliyev insan səsini çox yaxşı duyurdu. O, müğənninin nəfəsini, səsinin imkanlarını, melodiyanın harada yüksəlib harada sakitləşməli olduğunu hiss edirdi. Ona görə də bəstəkarın mahnılarında melodiya heç vaxt sözlərin üzərinə çıxmır, əksinə, sözün hissini tamamlayır, mahnıları qısa, yığcam və sadə idi. Həmin sadəliyin arxasında böyük sənətkarlıq dayanır. Sənətkarın gücü də elə bundadır. Əsl sənət nümunəsi öz mürəkkəbliyini gizlətmək bacarığındadır.

Tofiq Quliyev deyəndə insanın gözləri önündə ilk canlanan Bakı olur. Bu da təsadüfi deyil. Bakı bəstəkarın yaradıcılığında sadəcə doğma şəhər mövzusu deyildi, həm də bir duyğu idi. Xəzərin sahilində doğulan, küləyini, küçələrini, işıqlarını, insanlarını tanıyan bəstəkar bu şəhəri musiqiyə çevirmişdir. Onun "Bakı haqqında mahnı" əsərində şəhərin obrazı sözlərlə yanaşı, həm də melodiyanın özündə yaşayır. Mahnının sözlərində "Ana Xəzər", "Cavan Bakı", "Mehriban Bakı" kimi obrazlar şəhəri insanlaşdırır, ona canlı bir ruh verir. Bu mahnını dinləyəndə Bakı yalnız göz önündə canlanmır, sanki adamın ruhuna sirayət edir. Xəzərin ləpələri, səhərin işıqları, küçələri, dənizdən əsən külək - hamısı melodiyanın içində bir-birinə qarışır. Tofiq Quliyev Bakını musiqidə elə təqdim etmişdir ki, illər keçsə də, o, şəhərin melodik portreti olaraq qalır.

Bəstəkarın "Axşam mahnısı" kimi əsərlərində isə tamam başqa bir Tofiq Quliyev görünür. Burada şəhərin gurultusu tamamilə çəkilir, axşam düşür, meşənin üzərinə kölgə enir, insan gözünü yola dikir. Melodiya sakitləşir və dinləyicini düşüncələrə aparır. Bu mahnıda musiqi sanki sözlərin arasında görünməyən bir hekayə danışır. "Badamlı", "Bağçamız", "Arzular", "Darıxma", "Sənə də qalmaz", "Azərbaycan", "Axşam mahnısı", "Bakı haqqında mahnı" və başqa əsərlər müxtəlif ovqatların musiqi yaddaşıdır. Birində sevgi var, digərində həsrət, üçüncüdə baharın nəfəsi, başqa birində Vətən, növbətidə isə insanın öz içində heç kimə demədiyi duyğular...

Tofiq Quliyevin yaradıcılığının böyük bir hissəsi kino ilə bağlıdır. "Görüş", "Bəxtiyar", "Qızmar günəş altında", "Ögey ana", "Onu bağışlamaq olarmı?", "Telefonçu qız", "Dərviş Parisi partladır", "Qayınana" və başqa filmlər üçün yazdığı musiqilər Azərbaycan kino tarixinin yaddaşında xüsusi yer tutur. Rəsmi mənbələrdə bəstəkarın 40-dan çox bədii və sənədli filmə musiqi bəstələdiyi qeyd olunur. Kino musiqisinin bir özəlliyi var - bəstəkar ekranda görünmür, amma onun musiqisi hadisələri təqib edir, onların emosional yaddaşına çevrilir. Tofiq Quliyevin musiqisi bunu çox yaxşı bacarırdı.

Bəstəkarın yaradıcılığına nəzər salanda bir həqiqət aydın görünür - o, musiqini xalqdan uzaqlaşdırmır, əksinə, onu xalqın gündəlik həyatına gətirmişdir. Tofiq Quliyevin əsərlərini musiqini duymayan insanlar da sevirdi. Çünki həmin əsərlərdə insanın təbii duyğuları var. Məhz buna görə onun musiqisi nəsildən-nəslə keçdi.

Tofiq Quliyev yalnız bəstəkar deyildi, həm də pianoçu, dirijor, təşkilatçı, musiqi xadimi və Azərbaycan estrada musiqisinin yaradıcılarından biri idi. O, Azərbaycan Filarmoniyasına rəhbərlik etmiş, Azərbaycan Bəstəkarlar İttifaqında uzun illər mühüm vəzifələr daşımışdı. Azərbaycan Xalq artisti fəxri adına layiq görülmüş, müxtəlif dövlət mükafatları və ordenlərlə təltif olunmuşdu. 1998-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən "İstiqlal" ordeni ilə təltif edilməsi bəstəkarın sənətinə verilən ən yüksək qiymətin ifadəsi idi. Amma sənətkarın ən böyük mükafatı bunlar deyildi, mahnılarının yaşamasıydı.

Tofiq Quliyev 2000-ci il oktyabrın 4-də dünyasını dəyişdi. Amma onun musiqisi susmadı. Böyük bəstəkarların ölümü onların yaratdığı əsərlərin sonu demək deyil, əksinə, xalqın yaddaşında yeni həyatının başlanğıcıdır. Bu gün Tofiq Quliyevin musiqisini dinləyəndə biz yalnız keçmişi xatırlamırıq, özümüzü, uşaqlığımızı, gəncliyimizi, ilk sevgimizi, qədim Bakını, Xəzərin sahilində keçirdiyimiz axşamları, bir vaxtlar yanımızda olan, indi isə yalnız xatirələrdə yaşayan insanları xatırlayırıq. Musiqinin ən böyük qüdrəti də elə budur - o, zamanı geri qaytara bilmir, amma keçmişi yaşada bilir.

Tofiq Quliyev Azərbaycan həyatının rənglərini musiqiyə çevirdi, xalq mahnısının yaddaşını cazın ritmi ilə, peşəkar bəstəkarlıq məktəbini estradanın nəfəsi ilə, şəhərin səsini insan ürəyinin döyüntüsü ilə birləşdirdi. Onun musiqisində Azərbaycan var. Bəzi mahnılar sadəcə bəstələnmir, xalqın yaddaşında doğulur, Tofiq Quliyevin əsərləri kimi...

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Müasir şəhərsalma konsepsiyasının uğuru

## "Qara Şəhər" Ağ Şəhərə necə çevrildi



**Son illər paytaxtın simasını kökündən dəyişən, onu dünyanın öndəgedən müasir meqapolislərindən birinə çevirən ən böyük şəhərsalma layihələrindən biri şübhəsiz ki, Bakı Ağ Şəhər (Baku White City) layihəsidir. Bir vaxtlar neft emalı zavodlarının qara tüstüsü ilə örtülmüş, elə buna görə "Qara Şəhər" kimi tanınan sənaye ərazisinin ekoloji baxımdan təmizlənərək ultramodern yaşayış və ictimai məkana çevrilməsi təkcə Azərbaycanın deyil, dünya şəhərsalma tarixinin ən uğurlu nümunələrindən biridir.**

Bu müasir tikililər həm şəhərin sosial-mədəni həyatına yeni nəfəs gətirir, həm də estetik baxımdan Bakının ən möhtəşəm memarlıq görünüşünə çevrilir. Ağ Şəhərdəki müasir yaşayış, ictimai və inzibati tikililər sadəcə binalardan ibarət deyil, onlar funksionallığın, ekoloji standartların və memarlıq sənətinin harmoniyasıdır. Ərazidə aparılan tikinti işlərində məşhur Fransız (Haussmann) stilinin klassik elementləri ilə müasir futuristik dizayn həlləri ustalıqla sintez olunmuşdur. Layihənin ictimai infrastrukturu sakinlərin və şəhər qonaqlarının rahatlığını, sosial inteqrasiyasını və asudə vaxtının səmərəli təşkilini təmin etmək üçün xüsusi dəqiqliklə layihələndirilib.



Ərazinin gözəçarpan obyektləri sırasında Bakı Ağ Şəhər Ofis Binası (Office Building) xüsusi vurğulanmalıdır. Bura bütövlüklə Bakı Ağ Şəhər layihəsinin simvolu, eyni zamanda ərazinin girişində yerləşən baxımlı biznes və inzibati mərkəzdir. Bina beynəlxalq səviyyədə tanınmış "ATKINS" (Böyük Britaniya) şirkəti tərəfindən layihələndirilmişdir. Layihənin əsas qayəsi "Qara Şəhər"in sənaye keçmişindən ekoloji və modern gələcəyə keçidi nümayiş etdirməkdir. Tikilinin hamar, axıcı və dalğavari fasad xətləri dəniz dalğalarını və küləyi xatırladır. Fasadın böyük hissəsi xüsusi izolyasiyalı şüşə panellərlə örtülüb ki, bu da daxili məkanların maksimum təbii gün işığı almasını təmin edir. Binanın qarşısında geniş yaşıllıq zolaqları, mənzərəli fəvvarə kompleksləri və pərəstişkar landşaft dizaynı yer alır.

Bakı Ağ Şəhər Ofis Binası regionda beynəlxalq BREEAM (Building Research Establishment Environmental Assessment Method) "yaşıl tikinti" standartlarına uyğun layihələndirilən ilk binalardan biridir. Burada günəş şüalarını idarə edən xüsusi fasad şüşələri və "ağıllı" havalandırma sistemləri sayəsində enerji sərfiyyatı minimuma endirilib. Tikinti zamanı ətraf mühitə zərər vurmayan, təkrar emal oluna bilən və yüksəkkeyfiyyətli materiallardan istifadə olunub. İşıqlandırma, istilik və soyutma sistemləri tam avtomatlaşdırılmış "Smart Building" (ağıllı bina) texnologiyası ilə idarə olunur.

A-Class biznes mərkəzi kimi fəaliyyət göstərən Bakı Ağ Şəhər Ofis Binası (Baku White City Office Building) sadəcə müasir biznes mərkəzi deyil, paytaxtın XXI əsr şəhərsalma və memarlıq tarixində dönüş nöqtəsi hesab edilən strateji bir tikilidir. Böyük Britaniyanın dünyaca məşhur "ATKINS" memarlıq və mühəndislik şirkəti tərəfindən layihələndirilən bina Bakının qlobal memarlıq arenasında mövqeyini möhkəmləndirmişdir. Heydər Əliyev Mərkəzi (Zaha Hadid) və Alov Qüllələri (HOK) kimi nəhəng layihələrin ardınca, bu bina da Bakının beynəlxalq memarlıq büroları üçün cəlbedici mərkəz olduğunu bir daha təsdiqləmişdir.

Ağ Şəhər Ofis Binası paytaxtın memarlıq xəritəsində Bakının gələcəyə yönəlmiş modern vizyonunun, ekoloji şüurunun və estetik transformasiyasının maddi təcəssümü kimi mühüm əhəmiyyətə malikdir.

### Qarabağ Atları Meydanı

Bakı Ağ Şəhər (mərkəzi park kvartalı) ərazisində yerləşən, 44 günlük Vətən müharibəsindəki tarixi qələbəmizə və milli irsimizə həsr olunmuş Qarabağ Atları Meydanı geniş bir heykəltaraşlıq və istirahət kompleksidir. Meydan klassik və müasir şəhərsalma prinsiplərinin harmonik vəhdəti əsasında layihələndirilmişdir. Mərkəzdə amerikalı məşhur heykəltaraş Robert Sammers tərəfindən bürüncdən hazırlanmış 7 Qarabağ atının ("Soltan", "Ürək", "Sereyin", "Aypara", "Şöhrət", "Ötqəm" və "İldırım") əzəmətini və dinamikasını əks etdirən mohtəşəm heykəltaraşlıq kompozisiyası yerləşir. Bu ansambl məkanın həm estetik cazibəsini artırır, həm də milli-mədəni irsimizi rəmzi olaraq nümayiş etdirir.

Kompleksin təməli 2022-ci ilin dekabrında qoyulub, rəsmi açılışı 29 dekabr 2025-ci ildə baş tutub. Meydan müasir 8 mərtəbəli yaşayış binaları (Ağ Saray Residence, Ancora Residence) ilə əhatə olunub. Fəvvarələr, dekorativ işıqlandırma sistemləri və xüsusi landşaft dizaynına malik yaşıl guşələr günün istənilən saatında rahat istirahət mühiti yaradır. Müasir şəhərsalmada insan yönümlü (human-centric) ictimai məkanların yaradılması prioritet məsələlərdəndir. Bu meydan sakinlərin sosial ünsiyyəti, toplanması və asudə vaxtını səmərəli keçirməsi üçün mükəmməl şəraiti təmin edir.

Qarabağ Atları Meydanı həm yerli əhalinin, həm də Bakıya gələn xarici turistlərin mütləq baş çəkdiyi əsas gəzinti və fotosessiya ərazilərindən birinə çevrilmişdir. Bu yerdə həmin ərazidə salınan Ağ Şəhər bulvarı və dənizkənarı park xüsusi qeyd olunmalıdır. Xəzər sahili boyunca uzanan bu geniş ictimai zona, piyada yolları, velosiped zolaqları, yaşıl landşaftı və istirahət guşələri ilə paytaxt sakinlərinə açıq havada müasir şəhər mühitindən həzz almaq imkanı yaradır.

Mərkəzi park zonasını dənizkənarı bulvarla birləşdirən Müasir Piyada Körpüsü də nəqliyyat infrastrukturunun bir hissəsi kimi özünəməxsus dizaynı ilə diqqətçəkən müasir memarlıq nümunəsidir (architectural installation). Ərazidə inşa edilən müasir təhsil müəssisələri və layihələndirilmiş ticarət-əyləncə mərkəzləri isə bu məkanın müasir ictimai infrastruktura malik dinamik bir mərkəz olmasını tamamlayır.

Ağ Şəhərin ictimai binalarının əsas xüsusiyyəti onların çoxfunksiyalılığıdır - binaların alt mərtəbələri geniş ticarət, iaşə və mədəniyyət obyektlərinə ayrılaraq küçə həyatını daim canlı saxlayır, yuxarı mərtəbələr isə biznes və yaşayış mühitini təmin edir.

Yekun olaraq demək olar ki, Bakı Ağ Şəhərdə inşa edilən müasir tikililər Azərbaycanın müasir şəhərsalma konsepsiyasının uğurudur. "Qara Şəhər"dən "Ağ Şəhər"ə uzanan bu möhtəşəm yol Bakının gələcəyə doğru inamlı addımlarının və müasir memarlıq irsinin bariz sübutudur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Naxçıvanda doğuldu, Tbilisidə təhsil aldı, Bakıda məşhur rəssam oldu

**Azərbaycan rəssamlığının inkişafında böyük xidmətlər göstərmiş sənətkarlardan biri də Əyyub Hüseynovdur. Görkəmli rəssamın müxtəlif illərdə çəkdiyi bir-birindən maraqlı əsərlər bu gün də maraqla baxılır. Deməli, həqiqi sənət əsərləri heç vaxt ölmür, bütün nəsillərlə yol yoldaşlığı edir.**

**Əyyub Hüseynov 1916-cı ilin sentyabrında Şərurun Xok kəndində dünyaya göz açıb. Kiçik yaşlarından rəssamlıq sənətinə maraq göstərən Ə.Hüseynov 1930-1935-ci illərdə Bakıdakı Azərbaycan Rəssamlıq Texnikumunda təhsil alıb. 1935-1941-ci illərdə isə təhsilini Tbilisi Rəssamlıq Akademiyasında davam etdirib.**



Ali təhsilini başa vurduqdan sonra Əyyub Hüseynov Naxçıvana qayıdıb. Bir müddət Naxçıvan Dövlət Dram Teatrında quruluşçu rəssam işləyib. Bu sənət ocağında çalışdığı dövrdə o, tanınmış rəssam Şamil Qazıyevlə birlikdə müxtəlif tamaşaların bədii tərtibatını və geyim eskizlərini hazırlayıb, Əbdürrəhim bəy Haqverdiyevin "Pəri-cadu", Səməd Vurğunun "Fərhad və Şirin", Osman Sarıvəllinin "Babək", Abdulla Şaiqin "Vətən", Nağı Nağıyevin "Polad", Əbülfəz Abbasquliyevin "Günəş doğur" və başqa pyeslərə bədii tərtibat verib.

Rəssamlıq sahəsində böyük bilik və təcrübə qazanmış Əyyub Hüseynov 1948-ci ildə Bakıya gələrək bir zamanlar böyük həvəslə təhsil aldığı Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində pedaqoji fəaliyyətə başlayıb. Gələcəyin rəssamlarına dərs deyib, bu sahənin incəliklərini, sirlərini onlara öyrədib. Rəssam eyni zamanda yaradıcılıq işləri ilə də məşğul olub. Ürəyindən, qəlbindən süzülüb gələn fikir və düşüncələri rənglərin dili ilə ifadə edib, həyatda, təbiətdə, məişətdə gördüyü mənzərələri böyük sənətkarlıqla kətan üzərinə köçürüb.

1948-ci ildən ömrünün sonunadək Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində dərs deyən Əyyub Hüseynov 1956-1965-ci illərdə bu təhsil ocağına rəhbərlik edib. Onun ciddi və yorulmaz fəaliyyəti nəticəsində məktəbdə təhsilin və tədrisin keyfiyyəti daha da yüksəlib.

Əyyub Hüseynovun yaradıcılığı çoxşaxəlidir. Əsərlərindən də göründüyü kimi, rəssam yalnız dəzgah rəngkarlığı ilə kifayətlənməmiş, bir növ, yaradacılığına rəngarənglik qatmışdır. Xeyli dəyərli, ziyarətçilərin zövqünü oxşayan qrafik əsərlər çəkmiş, bənzərsiz rəsm nümunələri yaratmışdır.

Əyyub Hüseynovun yaradıcılığı rəngarəngliyi və bənzərsiziliyi ilə fərqlənir. Başqa mövzularla yanaşı, sənətkarın əmək mövzusunda kətana köçürdüyü "Kömək gəlib", "Yaylaqda", "Çobanlar", mənzərə janrında çəkdiyi "Şahbuz", Yağışdan sonra" və "Aşıq Ələsgər", "Əmək qəhrəmanı" portretləri hazırda müxtəlif muzeylərdə nümayiş olunur.

Əyyub Hüseynov müxtəlif illərdə xarici ölkələrə yaradıcılıq ezamiyyətlərinə getmişdir. Bu səfərlərdə keçirdiyi görüşlər rəssamın yaradıcılığında öz əksini tapmışdır. Rumıniya, İtaliya və başqa ölkələrdən çəkdiyi əsərlər bu gün də sevilə-sevilə baxılır. Rəssam bu əsərləri ilə sanki uzaq ölkələri yaxınlaşdırmışdır. Avstriya, Fransa, Macarıstan, Çexoslovakiya səfərlərindən sonra rəssamın çəkdiyi əsərlər isə onu şəhər mənzərəsinin mahir ustası kimi də tanıtmışdır.

Ə.Hüseynov illər uzunu bir çox janrlarda əsərlər yaratsa da, ömrünün sonunadək realizm üslubuna sadiq qalmışdır. Bu üslubun verdiyi imkanlarından bacarıqla istifadə edərək həyat gerçəklərini sənət əsərlərinə çevirən rəssam istedadı ilə çoxlarının yüksələ bilmədikləri zirvələri fəth etmişdir. Onun "Pambıqçılar", "Batabat", "Çuxuryurd", "Minanın portreti", "Yağışdan sonra", "Xəzər", "Günorta", "Sahildə", "Meşə. Kənd mənzərəsi", "Buxarest", "Venesiya", "Arpaçay mənzərəsi" və başqa əsərlərindəki realizm elə ilk dəqiqədən diqqəti cəlb edir.

Bir çox tədqiqatçılar Əyyub Hüseynovun yaradıcılığını üç dövrə bölürlər. 1930-1950-ci illər birinci dövrü əhatə edir. Həmin illər onun rəssam kimi sənət yollarında fəaliyyətə başladığı dövr hesab olunur. İkinci dövr rəssamın yaradıcılığının üzü zirvələrə doğru yüksələn məhsuldar dövrü hesab olunan 1960-1980-ci illərdir. 1980-1990-cı illər isə üçüncü dövrdür. Tədqiqatçılar haqlı olaraq bu dövrü Əyyub Hüseynovun yaradıcılığının yetkin və bitkin dövrü kimi qiymətləndirirlər. Həmin dövrdə rəssam sənət aləminin zürvəsinə yüksəlmiş və əbədi olaraq bu zirvədə özünə yer etmişdir.



2018-ci ildə Mədəniyyət Nazirliyinin sifarişi ilə görkəmli rəssam Əyyub Hüseynovun həyat və yaradıcılıq yoluna həsr edilmiş "Avtoportret" sənədli film çəkilmişdir. Belə bioqrafik filmlərin çəkilməsi dövlətimizin mədəniyyətimizə və sənətkarlara diqqətin və qayğının aydın göstəricisidir. Bu cür filmlər həm də gələcək nəsillər üçün dəyərli bir tarixdir.

1998-ci ilin aprelində dünyasını dəyişən Əyyub Hüseynovun bir-birindən dəyərli əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Azərbaycan Rəssamlar İttifaqının fondunda və özünün emalatxanasında saxlanılır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Rəqəmsal dünyada bərabərsizlik təhlükəsi

## Dünyada hələ də oxumaq və yazmaq bilməyən 700 milyondan çox insan var



**Dünyamız sürətlə rəqəmsallaşır və hər gün yeni texnoloji kəşflərlə irəliləyir. Əlimizdəki smartfonlar, saniyələr içində cavab verən sistemlər və sərhədsiz məlumat bolluğu yeni bir dövrün başlandığından xəbər verir. Lakin bu rəqəmsal dünyanın arxasında böyük reallıq gizlənir. Texnologiya inkişaf etdikcə, dünyada sosial bərabərsizlik daha da böyüyür.**

Rəqəmsallıq həyatımızın hər sahəsinə daxil olur, lakin bu tərəqqi hamı üçün eyni sürətlə baş vermir. Bir tərəfdə süni intellektin yaratdığı sonsuz imkanlar müzakirə olunur, digər tərəfdə isə əsas təməl ehtiyaclardan belə məhrum olan milyonlarla insan yaşayır. Bu qlobal bərabərsizlik iqtisadi sahə ilə yanaşı, bəşəriyyətin ən təməl hüququ olan savadlılıq anlayışını təhlükə altına qoyur.

Dünyada hələ də oxumaq və yazmaq bilməyən 739 milyon gənc və yetişkin yaşayır. Savadsızlıq bütün bəşəriyyətin ortaq yarasıdır. Savadlılıq təməl insan hüquqlarından biridir. O, insanın digər hüquq və azadlıqlardan faydalanmasına yol açır. Savadlı insan bilik, bacarıq və dəyər qazanır. Bu qazanclar isə sülhün, bərabərliyin və ayrı-seçkiliyin olmadığı bir cəmiyyətin qurulmasına kömək edir.

Tarixə nəzər salsaq, müəyyən irəliləyişlərin şahidi olarıq. 1975-ci ildə dünyada oxuma-yazma bilən yetişkinlərin nisbəti 65 faiz idi. Bu gün isə həmin nisbət artaraq 88 faizə çatıb. Ancaq bu müsbət inkişafa baxmayaraq, milyonlarla insan hələ də hərfləri belə tanımır. Qlobal miqyasda vəziyyətin ağırlığı bölgələrə görə dəyişir. Belə ki, oxuma-yazma bilməyən yetişkinlərin 225 milyonu Afrikadadır. 347 milyonu isə Cənubi Asiyada yaşayır. Bu iki bölgə dünyadakı savadsız yetişkinlərin yüzdə 77 faizindən çoxuna evsahibliyi edir. Bundan başqa, gender bərabərsizliyi də bu sahədə özünü göstərir. Savadlı olmayan yetişkin əhalinin 63 faizini qadınlar təşkil edir. Uşaqlar arasında da vəziyyət ürəkaçan deyil. Aşağı və orta gəlirli ölkələrdə hər 10 uşaqdan 4-ü oxumağı bacarmır.

Texnologiyanın inkişafı savadlılıq anlayışının çərçivəsini sürətlə dəyişdirir. Artıq, sadəcə, oxuyub-yazmaq bəs etmir. Rəqəmsal dünyada ayaqda qalmaq üçün yeni bacarıqlar lazımdır. Lakin bu dəyişikliklər böyük bir risklə irəliləyir - texnologiyaya və süni intellektə çıxış bərabərsizliyi.

UNESCO-nun 2025-ci il tarixli hesabatı bu təhlükəni ortaya qoyub. Hesabatda bildirilir ki, bu qlobal dəyişiklik ədalətsiz şəkildə baş verir. Dünyanın üçdəbirinin hələ də internetə çıxışı yoxdur. Ən inkişaf etmiş süni intellekt modellərinə yalnız lazımi infrastruktura, dil üstünlüyünə və pullu abunəliklərə sahib olan insanlar çata bilir. Bu reallıq mövcud savadsızlıq səviyyəsini daha da dərinləşdirə bilər. İnterneti və kompüteri olmayan uşaqlar gələcəyin dünyasından tamamilə geri qala bilərlər.

Azərbaycan əhalisinin savadlılıq səviyyəsi əsasən dünyanın ən qabaqcıl ölkələri sırasında yer alır. Ölkəmizdə əhalinin savadlılıq səviyyəsi 100 faiz civarındadır. Bunun fonunda Azərbaycan yüksək rəqəmsal inkişaf göstəriciləri və internetin hər kəs üçün əlçatan olması ilə nümunəvi ölkədir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, ölkəmizdə internet xidmətləri və rəqəmsal bağlantı sürətlə artmağa davam edir. Belə ki, əhalinin hər 100 nəfərinə düşən internet istifadəçilərinin sayı 2021-ci ildəki 86,7-dən artaraq 2025-ci ildə 92 nəfərə (şəhər yerlərində 95,9 faiz, kəndlərdə isə 86,3 faiz) çatıb. Ölkəmizdə ən yüksək internet istifadəsi göstəricisi hər 100 nəfərə təxminən 95-dən çox istifadəçi düşən Bakı şəhərində qeydə alınıb. Həmçinin 2025-ci ildə hər 100 nəfərə 107 mobil telefon abunəçiliyi, 23,5 sabit genişzolaqlı və 89,2 aktiv mobil genişzolaqlı internet abunəçisi düşüb, mobil telefonu olan ev təsərrüfatlarının xüsusi çəkisi isə 95,6 faiz təşkil edib. Bütün bunlar Azərbaycanda rəqəmsal bərabərsizlik olmadığını və vətəndaşların müasir texnologiyalara bərabər şərtlərlə çıxış əldə etdiyini təsdiqləyir.

UNESCO hesab edir ki, süni intellekt təhsildəki mövcud çətinlikləri aşmaq üçün böyük potensiala malikdir. Süni intellekt vasitəsilə tədris prosesini inkişaf etdirmək və təhsildə sürətli irəliləyiş əldə etmək mümkündür. Lakin bu irəliləyişlər düzgün idarə olunmasa problemlər qaçılmaz olar. Həmin problemlərə texnologiyaya çıxışda yaranan bərabərsizliklər, siyasət sahəsindəki mübahisələr, savadsızlıq uçurumunun daha da böyüməsi daxildir.

Məhz bütün bunlara görə də UNESCO çağırış edir. Təşkilat süni intellektin təhsil sahəsində yaratdığı dəyişikliklərin fərqli yanaşmalar ilə müzakirə olunmasını istəyir. Dünyanın hər yerində uşaqların və gənclərin bərabər şərtlərdə oxumaq və öyrənmək hüququ qorunmalıdır. Etik və ortaq həllər tapılmasa, texnologiya cəmiyyəti birləşdirmək əvəzinə, insanları daha da uzaqlaşdıra bilər. Savadsızlıq bəşəriyyətin qədim problemlərindən biridir. İllər keçdikcə bu sahədə addımlar atılsa da, rəqəmsal dövr yeni və daha çətin bir imtahan qarşısındadır. Bir tərəfdə hələ də əlifba bilməyən 739 milyon insan, digər tərəfdə isə sərhədsiz imkanlar açan süni intellekt dayanır.

Gələcəkdə bərabər və ədalətli bir dünya qurmaq üçün ilk növbədə hər bir uşağın təməl savadlılıq hüququ təmin edilməli, daha sonra isə texnologiyaya çıxış hər kəs üçün əlçatan olmalıdır. Əks halda, süni intellekt əsri bərabərsizliyi yox edən deyil, onu dərinləşdirən əsas faktor olaraq tarixə düşəcək.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Bəzi yerlərdə yağış yağacaq



**Azərbaycanda sentyabrın 10-na gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, günün birinci yarısında bəzi yerlərdə fasilələrlə yağış yağacağı proqnozlaşdırılır. Yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 15-19, gündüz 24-27 dərəcə isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-17, gündüz 25-29, dağlarda gecə 6-11, gündüz 15-20 dərəcə isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-14, gündüz 23-28 dərəcə isti olacağı gözlənilir.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 15-20, bəzi yerlərdə 24 dərəcə isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10, gündüz 14-19, bəzi yerlərdə 24 dərəcə isti olacağı bildirilir.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15, gündüz 24-29 dərəcə isti təşkil edəcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şərq rayonlarda qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14, gündüz 21-26, dağlarda gecə 4-9, gündüz 12-17 dərəcə isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-17, gündüz 25-29 dərəcə isti təşkil edəcək.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşamdan yağıntılar tədricən kəsiləcək. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-18, gündüz 23-27, dağlarda gecə 11-14, gündüz 15-18 dərəcə isti olacağı proqnozlaşdırılır.

## BEYNƏLXALQ HƏYAT

# Fransada Renuar Muzeyindən rəsm əsərləri oğurlanıb

**Fransanın Kan-sür-Mer şəhərindəki Pyer-Ogüst Renuar Muzeyindən rəsm əsərləri oğurlanıb. Bu barədə şəhər hakimiyyəti məlumat verib. Əvvəlcə 4 rəsm əsərinin oğurlandığı bildirilib, lakin sonradan məlum olub ki, oğrular hadisə yerindən qaçarkən onlardan ikisini bağda atıblar.**




Regional "Nice-Matin" qəzetinin məlumatına görə, oğurlanan rəsm əsərləri Renuarın özünə məxsusdur. Nəşr Kan-sür-Mer merinin mədəniyyət işləri üzrə müavini Karolin d'Amata istinadən onların adlarını qeyd edib: "Koko oxuyur" (1905), "Madam Kolonna Romanonun portreti" (1910), "Madam Stiven Piçonun portreti" (1895) və "Quyu başındakı qız" (1886). Oğrular tərəfindən atılan rəsmlər əvvəlcə dəqiq bəlli deyildi. Sonra Kan-sür-Mer hakimiyyəti oğruların yalnız "Madam Kolonna Romanonun portreti" və "Quyu başındakı qız" əsərləri ilə qaçmağı bacardıqlarını bildirib.

Qəzetin şəhər hakimiyyətinə istinadən verdiyi məlumata görə, Renuar Muzeyində siqnal sistemi yerli vaxtla səhər saat 5:48-də işə düşüb. Müşahidə kameraları muzeydə 2 nəfərin olduğunu qeydə alıb. Polis siqnal işə düşdükdən 5 dəqiqə sonra muzey binasına gəlib. Lakin oğrular artıq orada olmayıblar.

Şəhərin meri Brayan Massonun dediyinə görə, oğurlanmış rəsmlərin dəyəri təxminən 9 milyon avrodur.

Renuar Muzeyi 1960-cı ildə açılıb. Rəssam ömrünün son 11 ilini muzeyin yerləşdiyi Kan-sür-Mer şəhərində keçirib. Muzeyin kolleksiyasına rəssamın 12 əsəri və yaratdığı onlarla heykəl daxildir. Muzeydə həmçinin Pyer Bonnar və Raul Düfi daxil olmaqla digər rəssamların əsərləri də nümayiş olunur.

# 11 sentyabr terrorundan sonra havanın çirkliliyi səbəbindən ölənlərin sayı terror zamanı həlak olanların sayını üstələyib

## Lakin bu, uzun müddət Nyu York sakinlərindən gizlədilib

**Yeni açıqlanan sənədlərə görə, 11 sentyabr 2001-ci il hücumlarından qısa müddət sonra Manhettendə təhlükəli hava çirkliliyi qeydə alınsa da, rəsmilər ictimaiyyət üçün riskləri azaldıblar.**



Keçən il şəhər rəsmiləri müxtəlif iş sənədləri, tibbi hesabatlar və təcili yardım xidməti hesabatları olan 68 qutu aşkar ediblər. Bu sənədlər göstərir ki, Dünya Ticarət Mərkəzinin qüllələrinin uçduğu yer olan "Qraund - Zero" rayonu ətrafında asbest və digər toksinlər tapılıb.

Nyu Yorkun meri Zöhran Mamdani sənədlərin açıqlanmasına cavab olaraq bildirib ki, "insanlar xəstələniblər, çünki etibar etdikləri liderlər onlara yalan danışıblar və bu zəhərli hava ilə nəfəs almağın təhlükəsiz olduğunu deyiblər".

ABŞ səhiyyə rəsmilərinin məlumatına görə, qüllələrin uçmasından sonra tozlu və tüstülü hava ilə nəfəs alma nəticəsində yaranan xəstəliklərdən ölənlərin sayı təxminən 3000 insanın ölümünə səbəb olan terror hücumları zamanı həlak olanların sayından çoxdur.

Hava ilə bağlı hesabatlar və digər sənədlər 11 sentyabr hücumlarının 25-ci ildönümü münasibətilə xüsusi onlayn portalda dərc edilib. Növbəti il ərzində əlavə sənədlərin yayımlanması planlaşdırılır.

***Hazırladı: Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# *BMT:* Təhsil müəssisələrinə hücumların sayı rekord həddə çatıb

**2024-2025-ci illərdə dünyada təhsil sahəsinə 8,5 mindən çox hücum qeydə alınıb. Bu, əvvəlki dövrlə müqayisədə 40 faiz çoxdur və bütün müşahidə dövrü ərzində ən yüksək göstəricidir.**



AZƏRTAC xəbər verir ki, bu barədə BMT-nin 9 Sentyabr - Təhsilin Hücumdan Beynəlxalq Müdafiəsi Günü münasibətilə hazırladığı materiallarda bildirilir.

Hücumlar nəticəsində azı 10,6 min şagird və müəllim öldürülüb, yaralanıb və ya oğurlanıb. Bununla yanaşı, məktəblərdən hərbi məqsədlərlə istifadə hallarının miqyası demək olar ki, iki dəfə artıb.

BMT-nin Baş katibi Antonio Quterreş bildirib ki, təhsil insanın əsas hüquqlarından biridir, lakin silahlı münaqişələrin artdığı şəraitdə bu hüququn həyata keçirilməsi getdikcə daha təhlükəli olur.

O, dövlətləri təhsil müəssisələrinin təhlükəsizliyini təmin etməyə, məktəblərə hücumların qarşısını almağa, təqsirkarları məsuliyyətə cəlb etməyə, habelə təhsilə investisiya yatırmağa və məktəblərin müdafiəsi üzrə beynəlxalq təşəbbüsləri dəstəkləməyə çağırıb.

BMT-nin məlumatına görə, 2025-ci ildə münaqişə zonalarında uşaq hüquqlarının 38 mindən çox ağır şəkildə pozulması halı qeydə alınıb. Bu, 30 illik monitorinq dövründə ən yüksək göstəricidir.

Hazırda böhranlardan zərər çəkmiş 87 ölkədə 258 milyon uşaq təhsildə ciddi fasilələrlə üzləşir. Onlardan 93 milyonu, ümumiyyətlə, məktəbə getmir.

"Təhsil gözləyə bilməz" Fondunun direktoru Maysa Calbut vurğulayıb ki, təhsil sisteminə hücumlar təsadüfən baş vermiş zərər kimi qiymətləndirilə bilməz. Təhsilin məhv edilməsi cəmiyyətləri gələcək mütəxəssislərdən məhrum edir, uşaqların sosial həssaslığını daha da artırır, münaqişə və məcburi köçkünlük dövrlərinin davam etməsinə şərait yaradır.

O, bütün tərəfləri beynəlxalq humanitar hüququn normalarına riayət etməyə, məktəblərə, şagirdlərə və müəllimlərə hücumları dayandırmağa çağırıb.

"Təhsil gözləyə bilməz" Fondu həmçinin donorları, biznes nümayəndələrini, xeyriyyəçiləri və vətəndaş cəmiyyətini ən ağır böhran şəraitində yaşayan 10 milyon uşağın təhlükəsiz və keyfiyyətli təhsillə təmin olunması üçün 600 milyon dollar toplanmasına yönəlmiş "Ümid burada başlayır" kampaniyasına qoşulmağa çağırıb.

# Çində torpaq sürüşmələrinə görə 15 mindən çox sakin təxliyə edilib

**Çinin şərqindəki Ciansi əyalətində baş verən torpaq sürüşmələri və palçıq axınına görə 15 mindən çox sakin təxliyə edilib.**



AZƏRTAC əyalətin fövqəladə hallarla mübarizə qərargahına istinadla xəbər verir ki, sentyabrın 5-də Suyçuan rayonunun Minken kəndində baş verən sürüşmə nəticəsində ölənlərin sayı 12-yə çatıb, bir nəfər hələ də itkin hesab olunur.

Bir neçə gün davam edən leysan yağışlardan sonra rayonun Cuoan və Tanhu şəhərlərində baş verən torpaq sürüşmələrindən sonra bir nəfərin öldüyü, 2 nəfərin isə itkin düşdüyü bildirilib.

Hazırda bölgədə axtarış-xilasetmə əməliyyatları, yolların möhkəmləndirilməsi və təkrar baş verə biləcək fəlakətlərin qarşısının alınması işləri davam edir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2022-ci ildə Aygün Məstan qızı Boranın adına verilmiş Abşeron rayon, Şəfəq qəsəbəsi, bina 62, mənzil 11 ünvanına dair sənədlər itdiyi üçün etibarsız sayılır.**

**Elturan Fərman oğlu Şairova məxsus 13.07.2018-ci il tarixli C02037637 seriyalı ümumvətəndaş pasportu itdiyi üçün etibarsız sayılır.**

**Əzim Əhliyət oğlu Şükürzadəyə məxsus 30.05.2016-cı il tarixli C00884704 seriyalı ümumvətəndaş pasportu itdiyi üçün etibarsız sayılır.**

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Xalq artisti

**ALEKSANDR ŞAROVSKİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3319
Sifariş 1150

Qiyməti 60 qəpik